**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**Jurnal 1970-ci ildən nəşr olunur.**

**2019, № 1 (226)**

# MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL

## (elmi-metodik jurnal)

**2**

**2019**

## РЕДАКСИЙА ЩЕЙЯТИ

### Баш редактор: проф.Й.Ш.Кяримов

**Айдын Ящмядов** — *Азярбайжан Республикасы Тящсил Назирлийи, Məktəbəqədər və цмуми тящсил шюбясинин мцдири;*

**Нярминя Алнаьыйева** — *Азярбайжан Республикасы Тящсил Назирлийи, Мяктябягядяр тящсил секторунун мцдири;*

**Фаиг Шащбазлы** — *Азярбайжан Республикасы Тящсил İnstitutu Elmi-Pedaqoji Mərkəzinin direktoru;*

**Видади Хялилов** — *Азярбайжан Республикасы Тящсил Институтунун elmi məsləhətçisi, педагоъи елмляр доктору, профессор;*

**Рамиз Ялийев** — *Азярбайжан Dövlət Pedaqoji Universitetinin цмуми психолоэийа kafedrasının мцдири, психолоэийа елмляри доктору, профессор ;*

**Асяф Заманов** — *Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi işlər üzrə prorektoru, физика-рийазиййат елмляри доктору, профессор ;*

**Нурлана Ялийева** — *Azərbaycan Slavyan Universitetinin rektoru, филолоэийа елмляри доктору, профессор ;*

**Вагиф Ямирасланов** — *Бакы Сосиал-Педагоъи Коллежинин директору, тарих цзря фялсяфя доктору;*

**Миржяфяр Щясянов** — *Азярбайжан Дювлят Педагоъи Университетинин профессори ;*

**Laləzər Cəfərova** — *Азярбайжан Республикасы Тящсил İnstitutu məktəbəqədər təhsilin kurikulumu şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru;*

**Азадхан Адыэюзялов** — *Азярбайжан Дювлят Педагоъи Университетинин профессоrи, педагоъи елмляр доктору;*

**Щягигят Щажыйева** — *Азярбайжан Дювлят Педагоъи Университетинин досенті, биолоэийа цзря фялсяфя доктору;*

**Земфира Ясядова** — *Бакы шящяри, Низами району, 175 нюмряли кюрпяляр еви-ушаг баьчасынын мцдири;*

**Есмира Аьайева** — *И. Яфяндийев адына Елитар Эимназийанын ибтидаи синифляр цзря директор мцавини;*

**Zemfira Ağayeva** — *Бакы шящяри, Nərimanov rayonu, 69 nömrəli körpələr evi-uşaq bağçasının tərbiyəçisi;*

**Бибиханым Ибадова** (мясул катиб) — *Азярбайжан Республикасы Тящсил Институтунун İбтидаи тящсиліп курикулуму шюбясинин мцдири, педагоэика цзря фялсяфя доктору.*



Йığылмаьа верилмиш 24.10.2017. Çапа имзаланмыш 15.12.2017.
Каьыз форматы 60x84 1/8. Şярти чап вяряги 6,5.
Şифариш № 16. Тираъ 1000. Qиймяти 2 манат 50 гяпик.
Редаксийанын цнваны: АЗ 1010. Бакы, Зярифя Ялийева кцчяси, 96.
Тел. моб. (051) 623-01-15.

**(Redaksiya heyətinin yeni tərkibi may ayının21-də Təhsil Nazirliyinə təqdim edilmiş, hələ təsdiq olunmadığından əvvəlki tərkib təkrarlanmışdır).**

«РС Полиграф» ММЖ-нин мятбяясиндя щазыр диапозитивлярдян чап олунмушдур.
Ünван: Бакы, А.Мяммядов küçəsi, 113.

## MÜNDƏRİCAT

### *ÜMUMPEDAQOJİ PROBLEMLƏR*

**1. Heydər Əliyev – 96** (tərtib edən Məmmədova K.)......4
**2. Bəşirov V.** Səməd Behrəngi – 80. Vətəndaş yazıçı, ustad pedaqoq......7
**3. Məmmədova E.** XX əsrin 20–30-cu illərində Azərbaycan təhsilində mövcud pedaqoji fikir......10
**4. İsmayılova Ç., İbrahimova M.** Nitq inkişafı metodikasının məzmunu və planlaşdırılması məsələləri......17
**5. Dahilər nitq mədəniyyəti haqqında**......22

### *MƏKTƏBƏQƏDƏR TƏHSİL*

**6. Musayeva S.** Məktəbəqədər yaşlı uşaqların inkişafı üçün oyunlar......23
**7. Kazımbəyli Ş.** Məktəbəqədər təhsil müəssisələrində uşaqların məktəbə hazırlanmalarının müasir aspektləri......27
**8.Ağayeva R.** "Milli Ordu" mövzusunda açıq məşğələnin icmalı......31
**9. Lao Tszıdan 8 məsləhət**......35

### *FƏNLƏRİN TƏDRİSİ VƏ QABAQCIL TƏCRÜBƏ*

**10. Quliyev B.** Kiçikyaşlı məktəblilərin fiziki inkişaf xüsusiyyətlərinin təlimdə nəzərə alınması......36
**11. İbadova B.** İbtidai siniflərdə yazı bacarıqlarının inkişaf etdirilməsi......40
**12. Qurbanov V., Ramizzadə N.** IV sinifdə dinləmə mətnləri, təlim məqsədləri, məzmunu və metodları…46
**13. Alxasova S.** Şagirdlərdə musiqi duyumunun inkişaf etdirilməsi yolları......50
**14. Əliyeva M.** Uşaqlarda nitq mədəniyyətinin formalaşmasına dair......54

### *PSİXOLOGİYA VƏ DEFEKTOLOGIYA*

**15. Комарова Т.П., Кулешова Т.А.** Тактильные книги в обучении школьников с нарушением зрения......57
**16. Мурадова Н.** Мыслительные процессы развития экспертно-логического мышления младщих школьников......60

### *TƏRBİYƏ PROBLEMLƏRİ*

**17. Əmirəliyeva İ.** Müəllim-şagird münasibətlərinin səmərəli qurulmasında tolerantlığın rolu......66
**18. Haşımova S.** Şagirdlərin təşkilatçılıq bacarığını necə formalaşdırıram?!......69
**19.AXC haqqında görkəmli şəxsiyyətlərdən sitatlar**......71

# HEYDƏR ƏLİYEV – 96



Heydər Əlirza oğlu Əliyev 1923-cü il, may ayının 10-da Azərbaycan Respublikasının Naxçıvan şəhərində anadan olub.

1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) memarlıq fakültəsinə daxil olub, lakin İkinci Dünya müharibəsinin başlanması ona təhsilini başa çatdırmağa imkan verməyib.

Heydər Əliyev 1941–1944-cü illərdə əvvəlcə Naxçıvan Muxtar Respublikası Xalq Daxili İşlər Komissarlığında arxiv şöbəsinin məxfi hissəsinin müdiri, sonra isə Naxçıvan MSSR Xalq Komissarları Sovetində ümumi şöbənin müdiri vəzifələrində işləyib.

1944-cü ilin may ayında dövlət təhlükəsizliyi orqanlarında işə göndərilib.

1949–1950-ci illərdə SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin Leninqraddakı (indiki Sankt-Peterburqdakı) Rəhbər Kadrların Hazırlığı Məktəbində təhsil aldıqdan sonra, 1950-ci ildə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinə bölmə rəisi vəzifəsinə təyin edilib.

1957-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) tarix fakültəsinin qiyabi şöbəsini bitirib.

1958-ci ildə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin əks-kəşfiyyat şöbəsinin rəisi, 1964-cü ildə DTK-nın sədr müavini təyin edilib.

1966-cı ildə Moskvada DTK-nın F.E.Dzerjinski adına Ali Məktəbinin rəhbər heyətin təkmilləşdirilməsi kursunu müvəffəqiyyətlə bitirib.

1967-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə təyin edilib və həmin ildə də ona general-mayor rütbəsi verilib.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyulun 14-də keçirilmiş plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilib.

Heydər Əliyev 22 il Azərbaycan SSR Ali Sovetinin və SSRİ Ali Sovetinin deputatı olub. 1974–1979-cu illərdə isə SSRİ Ali Soveti İttifaq Sovetinin sədr müavini vəzifəsində işləyib.



1976-cı ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvlüyünə namizəd,1982-ci ilin dekabrında Siyasi Büronun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilib. Bu vəzifədə işləyərkən Heydər Əliyev SSRİ-nin iqtisadi, sosial və

mədəni həyatının ən mühüm sahələrinə rəhbərlik edib.



Heydər Əliyev 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar yanvarın 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb edib. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyası sıralarını tərk edib.

1990-cı il, iyulun 20-də Bakıya qayıdan Heydər Əliyev iki gün sonra Naxçıvana yola düşüb, həmin ildə də Azərbaycan SSR və Naxçıvan MSSR-in xalq deputatı seçilib.

1991-ci il, sentyabrın 3-də Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri seçilib və müvafiq qanunvericiliyə əsasən, həm də Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olub. Bu vəzifədə o, 1993-cü ilə kimi çalışıb.

Heydər Əliyev 1992-ci il, noyabrın 21-də Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis konfransında partiyanın sədri seçilib.

1993-cü ilin may-iyun aylarında ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandığına görə, Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbini irəli sürüb və ölkənin rəhbərliyi onu Bakıya dəvət etməyə məcbur olub.

Heydər Əliyev 1993-cü il, iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilib, iyunun 24-dən isə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayıb.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib.

O, 1998-ci il, oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib.

2003-cü il, oktyabrın 15-də keçirilən prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar namizədliyini İlham Əliyevin xeyrinə geri götürüb.

2003-cü il, dekabrın 12-də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Amerika Birləşmiş Ştatlarının Klivlend Klinikasında vəfat edib və dekabrın 15-də Bakıda, Fəxri Xiyabanda dəfn olunub.

Heydər Əliyev beş dəfə keçmiş SSRİ-nin Lenin, "Qırmızı Ulduz" ordenləri ilə və çoxsaylı medallarla təltif edilib, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adına, həmçinin müxtəlif ölkələrin ali mükafatlarına, nüfuzlu ali məktəblərin fəxri adlarına layiq görülüb.

## ***HEYDƏR ƏLİYEVİN MÜDRİK KƏLAMLARI***

- Ağıl olan yerdə zora ehtiyac yoxdur.
- Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir.
- Azərbaycanın nefti gələcəkdə də bəşəriyyətə, sülhə, əmin-amanlığa xidmət edəcəkdir.

- Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi üçün döyüşəcək, vuruşacaq, Azərbaycanın dövlət müstəqilliyini və ərazi bütövlüyünü təmin edəcəyik!
- Başqasının fikrinə hörmət etmək, ondan faydalı bir şey götürmək qabiliyyəti hər bir adama lazımdır.
- Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra nəticələrini aradan götürməkdən daha asandır.
- Biz çalışmalıyıq ki, gənclərimiz Azərbaycan xalqına xas olan mənəvi ənənələr əsasında tərbiyə edilsinlər.
- Böyük siyasət aparmaq üçün bilik, təcrübə lazımdır.
- Dövlət iki halda sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə.
- Ədaləti ədalətsizliklə bərpa etmək olmaz.
- Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.
- Həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla vicdanlılığı hər kəs özü üçün seçir.
- Kim ki, öz biliyindən, bacarığından artıq iddialar edir, o, həmişə məğlub olur.
- Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır.
- Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir.
- İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.
- Mən həyatda yalnız üç şeyə arxalanmışam: Yaradanıma, zəhmətimə və bir də xalqıma. Bəlkə də ən çox xalqıma.
- Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!
- Öz ana dilini bilməyən adamlar şikəst adamlardır.
- Rəhbərlik etmək, yəni adamları öyrətmək və tərbiyələndirmək üçün gərək mənəvi haqqın olsun.
- Rüşvətxoru, oğrunu qəhrəmana çevirmək öz xalqına xəyanət etməkdir.
- Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və qiymətləndirmək lazımdır.
- Vətəndaşlıq milli mənsubiyyətlə müəyyən olunmur.
- Vəzifə insana heç bir şey vermir, sadəcə olaraq səlahiyyət verir. Qalan hər bir şey onun ağlından, zəkasından, biliyindən, mədəniyyətindən asılıdır.
- Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, yaşayacaq, inkişaf edəcəkdir.
- Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq.
- Həyatını müəllimliyə sərf edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır.
- Mən Azərbaycanın sadə vətəndaşıyam. Bu, yüksək addır, ancaq bundan da yüksək ad müəllimlikdir.
- Mən dünyada müəllimlikdən yüksək ad tanımıram.
- Təhsil millətin gələcəyidir!

**TƏRTİB EDƏN: “Məktəbəqədər və ibtidai təhsil” jurnalının müxbir-redaktoru**
**KƏKLİK MƏMMƏDOVA**

# SƏMƏD BEHRƏNGİ – 80. VƏTƏNDAŞ YAZIÇI, USTAD PEDAQOQ

**Vidadi Bəşirov,**
Azərbaycan Dillər Universitetinin pedaqogika
kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru

*"Ölüm hər halda insanlıq, xüsusilə də ürəkləri parlaq və işıqlı gələcək ümidi ilə dolu olan əqidə sahibləri üçün xoşagələn deyildir."*
***Xosrov Ruzbeh***



Öz söz və kamal qüdrəti ilə bütün türk dünyasının tanınmış simalarından olan Səməd Behrənginin bu il 80 illik yubileyi dövlətimiz tərəfindən geniş miqyasda qeyd olunur. Bunun bariz nümunəsi yaxınlarda Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında yubilyarın anım günü münasibətilə ona həsr olunmuş ədəbi-bədii gecə idi.

Tədbirin təşkilatçıları və dəstəkçiləri Azərbaycan Yazıçılar Birliyi və Mədəniyyət Nazirliyi idi.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin bu qəbildən olan mədəni-kütləvi tədbirlər silsiləsinə həmişə nəcib və şərəfli bir işə dəyər verməsi təşəbbüsünə təqdirəlayiq hadisə kimi baxmaq lazımdır.

Əsl vətəndaş-yazıçı xisləti ilə ümummilli türk dünyasının mücadilə tarixində misilsiz xidmətləri olan Səməd Behrənginin həyatı və fəaliyyətindən, Cənubi Azərbaycanın məruz qaldığı sosial-siyasi məhrumiyyətlərindən söz açmaq, bu münəvvər şəxsiyyətin ədəbi dünyası ilə yanaşı, pedaqoji fəaliyyətindən də bəhs etmək olduqca təqdirəlayiqdir.

Onun böyük yaradıcılıq ehtişamına vətəndaş-yazıçı, müqtədir müəllim prizmasından baxıb, dəyər vermək, dövrünün acı, möhnətli rejimi şəraitində belə, öz məğrur əməlləri ilə gənc nəslə örnək olası mübarizə əzmindən dönməmək, yetkin, lakin nakam ömrünə, mənalı həyat yoluna çıraq tutmaq bu gün öz həyati məzmunu və mündəricəsi ilə aktual mahiyyət kəsb edir.

Səməd Behrəngi İran Azərbaycanının ən istedadlı uşaq yazıçılarındandır. Şah rejimi dövründə onun fədakar ziyalı-vətəndaş mövqeyi böyük, mütərəqqi və cahanşümul azadlıq ideyalarının parlaq təcəssümünü olan pedaqoji fikirlərində, xüsusən, uşaq ədəbiyyatı nümunələrində daha geniş spektrdə öz ifadəsini tapmışdır. Qeyd etmək lazımdır ki, müasirləri onun keşməkeşli mübarizələrlə dolu həyat salnaməsini izləməklə, ömrünün sonuna qədər kənd müəllimi kimi işləməsini, məhsuldar yazıçı, alovlu publisist, ustad tərcüməçi kimi böyük yaradıcılıq haqqında müəyyən dəyərli təhlillər vermiş, bu azadlıq aşiqinin cəfakeş ömür yoluna işıq saçan mücadilə savaşına milli və ümumbəşəri zəmindən haqq qazandırmışlar. Mürtəce rejim tərəfindən onun dəfələrlə cəzalandırılmasına rəğmən yolundan dönməməsinə, aldığı cüzi əmək haqqı müqabilində yaşanan güzəran psixologiyasına xətər gətirməməsinə, işindən uzaqlaşdırılmasına baxmayaraq, dərslərini açıq havada belə davam etdirmişdir. O, gənc nəslin savad təlimi, Azərbaycan dili uğrunda mübarizədə əzmkar, üsyançı mövqeyində dayanmasını təqdir edərək, bu yolun əbədiyaşarlıq meyarına çevrildiyini bildirmişdir.




Onun qısa, mənalı və şərəfli həyat xronikası belədir. Səməd Behrəngi 1939-cü ildə Təbrizin Çərəndab yaşayış məntəqəsində, kasıb azərbaycanlı ailəsində anadan olmuşdur. Atası İzzət kişi çətinliklə də olsa, beş övladından ikisini – Səməd və Əsəd Behrəngini oxutmağa nail olmuşdur.

Bu barədə mənbələrin birində təfərrüatlı yazılmışdır: "Hər gün səhər tezdən məhəllə sakinləri başmaqlarını qoltuğuna vurub, sürətlə qaçan bir oğlan uşağını görür və bir-birindən onun kim olduğunu soruşurdular:

– Nə üçün o, həmişə qaçır? Başmaqlarını niyə qoltuğuna vurur?

Məlum oldu ki, Səməd adlı həmin uşaq onların məhəlləsində yaşayan fəhlə İzzətin oğludur. Oxuduğu məktəb uzaqda olduğundan qaçır ki, gecikməsin. Başmaqlarını da qoltuğuna ona görə vurub ki, yırtıqdır, qaçmağına mane olur".

İbtidai təhsilini başa vurduqdan bir müddət sonra o, Təbriz pedaqoji məktəbinə daxil olur. Oranı qurtarandan sonra öz istəyi ilə Cənubi Azərbaycanın ucqar kəndlərində müəllimlik edir, əməkçi insanların balalarına savad verir. O, gənc nəslin maariflənməsi yolunda fədakar müəllim kimi çalışaraq, böyük nüfuz qazanır.

Kənd mühitinin ab-havası, milliliyi onun yazıb-yaratmaq şövqünü birə on qat artırır. O, ziyalı vətəndaş kimi kənd əhlinin məhrumiyyətlərini, həyat palitralarını qələmə almaqla bir daha özünü təsdiq edir.

Məktəb həyatı, kənd əhlinin ona olan ümidləri öz bəhrəsini tezliklə büruzə verir. O, Təbriz Universitetinə daxil olur. Oxuduğu illərdə xarici dillər ( xüsusilə ingilis dili) üzrə bilik səviyyəsini xeyli təkmilləşdirir. O, əsl püxtələşmiş qələm sahibi kimi yetişməyin sübutu olan dəyərli əsərləri ilə təsdiqlənərək, vətəndaş-yazıçı, ustad pedaqoq kimi tanınmağa başlayır.

Onu da qeyd etmək lazımdır ki, Səməd Behrəngi müasir fars və Cənubi Azərbaycanın mütərəqqi nəsrinin, xüsusilə uşaq ədəbiyyatının görkəmli nümayəndəsi kimi təkcə doğulduğu və təhsil aldığı ölkədə deyil, həm də dünyanın bir çox məmləkətlərində tanınır. Yazıçının ən məşhur seçilmiş əsərləri bir vaxtlar İngiltərədə sərgilənmiş, "Balaca qara balıq" hekayəsi isə İtaliyanın Boloniya şəhərində keçirilən "Beynəlxalq Uşaq ədəbiyyatı" müsabiqəsində mükafata layiq görüşmüşdür.

S.Behrəngi cəmi 29 il ömür sürmüşdür. Onun ömür kəhkəşanında, bu qısa yaşam payında zəngin, mədəni və bədii irs nümunələri həyatına əbədiyaşarlıq rövnəqi və yenilik ruhu gətirmişdir. Onun yazıları bir çox xalqların dillərinə tərcümə olunmuş, dəfələrlə kitab halında çapdan çıxmışdır. Səməd Behrənginin yaradıcılığının manifestinə çevrilən "Balaca qara balıq" əsəri də bu qəbildən dəyərli sənət nümunəsi olub, həm ədəbi, həm də pedaqoji ictimaiyyətimiz tərəfindən yüksək qiymətləndirilmiş, şeirləri dərsliklərə salınmış, mütərəqqi elmi baxışları işıq üzü görərək geniş oxucu kütləsinin rəğbətini qazanmışdır.

Səməd Behrəngi əqidə və məslək yolunda öz sələfləri olan Ş.M.Xiyabaninin, S.C.Pişəvərinin, M.Möcüzün, T.Eraninin, eləcə də milli azadlıq, ictimai tərəqqi yolunda onun sadiq silahdaşları olan, şah rejiminin ağır istibdadına sinə gərərək, mükəmməl pedaqoji fikir və mütərəqqi ideyalar carçılarına çevrilən M.Tərbiyatın, M.Şəhriyarın, Səhəndin, Əli Təbrizinin, Həbib Sahibin, Əhməd Kəsrəvinin nurlu əməllərini də hifz etmişdir. O, bu zəkalı simaların ədəbi-bədii, ictimai-pedaqoji ideyalarındakı xəlqilik, humanizm, ümumbəşərilik prinsiplərinə istinad edərək, öz fəaliyyətinə milli ruh gətirmişdir.

Cəmi 29 il yaşamasına baxmayaraq, ömrünün böyük bir qismini şah rejiminin mənfur siyasətinə qarşı kəskin ideya mübarizələrində keçirən gənc Səməd Behrəngi həyatının mənasını xalqının azadlığında, vətəninin istiqlalında, torpağının basılmazlığında görürdü. Öz əməli xidmətlərini Azərbaycan xalqının milli müstəqillik ideyasının formalaşması ruhunda kökləyərək

Cənubi Azərbaycanda demokratik hərəkatın milli məzmununu mətin addımlarla möhkəmləndirirdi. İranda Pəhləvi diktaturası şəraitində yaşayan bütün insanların bərabərlik və azadlıq hüquqlarının qorunması yolunda canını əsirgəmirdi. Heç də təsadüfi deyil ki, o, 1968-ci ildə Araz çayında çimərkən məkrli siyasətin qurbanı olaraq, əbədiyyət üfüqlərinə köç etdi.

Səməd Behrəngidən öz xalqına, bütün bəşəriyyətə qalan zəngin milli və ümumbəşəri dəyərlərlə dolu əsərləri, bitib-tükənməyən işıqlı idealları oldu. Onun həyatında pedaqoji fikir yaradıcılığı da müstəsna yer tutur. Xüsusən, "İran tədris-tərbiyə sisteminə aid tədqiqatlar" toplusu, "Uşaq ədəbiyyatı antologiyası" silsiləsindən oxu nümunələri, türkdilli uşaqlar üçün "Əlifba" tədris vəsaiti, özünütəhsillə bağlı orijinal metodik iş sistemi haqqında tövsiyələri, xalq yaradıcılığını əks etdirən etnoqrafik nümunələr külliyatı tərbiyələndirici və təhsilləndirici vəsaitlər kimi müasir Azərbaycan pedaqogikasına dəyərli töhfələrdir.

Ötən əsrin 60-cı illərində Cənubi Azərbaycanın bu tanınmış siması pedaqoji fəaliyyətində, bir qayda olaraq, türk mənşəli didaktik nümunələrdən istifadə imkanlarına da böyük rəvac vermişdir. O, məhz bu istiqamətdə xalq təfəkküründən süzülən şifahi və yazılı sənət nümunələrimizi təsnif edərək, gənc nəslin istifadəsinə çatdırırdı. Onun didaktik səciyyə daşıyan poeziya nümunələrindən uzun müddət Azərbaycan Respublikasının məktəblərində tədris-tərbiyə materialı kimi istifadə olunmuşdur. Onun bizə gəlib çatan sənət nümunələri içərisində "Balaca qara balıq" (Bakı, "Gənclik", 1978) bu cəhətdən olduqca maraqlı və ibrətamiz əsərdir. "Ulduz və qarğalar", "Balaca qara balıq", "Bir hulu, min hulu", "Çuğundur satan oğlan", "Qar dənəsinin sərgüzəştləri", "24 saat yuxuda və ayıqlıqda" sərlövhəli hekayələrində cəmləşən bu məzmun ideyalarında pedaqoji səciyyə daşıyan aforizm səviyyəli təhkiyələrində, mühakimələrində bənzərsiz bir həyat mübarizəsi əks olunmuşdur.



**S.Behrənginin "Balaca qara balıq" hekayəsinə illüstrasiya**

Hekayələrin hər birində rəmzi münasibət əqidəsi, insanın işıqlı inam dünyasının müqayisəli təhlili öz bədii ifadəsini tapmışdır.

Yazıçı obrazlı deyim tərzi ilə peyzaj nümunələri əsasında alleqorik səciyyəli hər bir bədii təsvir obrazının aqibətinə insan şücaəti nöqteyi-nəzərindən diqqət yetirir. Sözünün kəsərini obrazlaşdırmaqla fikrini nikbin metaforalarla bəyan edir.

Səməd Behrənginin həm yazıçı təxəyyülü, həm də müəllimlik fəaliyyəti ona tam imkan vermişdir ki, həyatda görüb-duyduqlarını, ictimai fəsadları uşaqların dərketmə səviyyəsinə qədər endirib sadələşdirərək, zamanın möhnətlərinə onların nöqteyi-nəzərindən, münasibəti baxımından da təqdirəlayiq qiymət versin. Odur ki, o, bu hekayələr vasitəsilə siyasi səhnədə cövlan edən haqsızlıqlara, məşəqqətlərə öz uşaqlıq taleyinin sərgüzəştləri baxımından ictimai məna vermiş, bu kontekstdən onun gözəl gələcəyi təqdir olunmuşdur.

Səməd Behrənginin məşəqqətli həyat yolu nə qədər ağır, sarsıdıcı olsa da, onun yaradıcılığında milli ruh, ümumbəşəri siqlət, müstəqillik yolunda mətinliklə addımlayan dünya türklərinin vəhdəti üçün bu gün də birlik və əzəmət simvoludur. Haqlı olaraq deyilmiş, səfərbəredici ifadədir: "Bizim hamımızın yolu Səməd Behrəngi yoludur".

Təbriz hər zaman olduğu kimi, bu gün də doğma Bakının yanında olmaqla, Qarabağ probleminə ən çox etiraz edənlərdəndir. Biz hər birimiz, Səməd Behrəngi demişkən, " bayrağı müəyyən qədər daşıyıb, bizdən sonrakılara əmanət edirik. İnanırıq ki, bizdən sonrakılar da bu bayrağa daha müvəffəqiyyətlə sahib çıxacaqlar".

Bunu bizdən həyatın özü tələb edir.

# XX ƏSRİN 20–30-CU İLLƏRİNDƏ AZƏRBAYCAN TƏHSİLİNDƏ MÖVCUD PEDAQOJİ FİKİR

**Elnarə Məmmədova,**
pedaqogika üzrə fəlsəfə doktoru,
Bakı şəhəri, 165 nömrəli tam orta məktəbin təlim-tərbiyə işləri üzrə
direktor müavini, Azərbaycan Jurnalistlər Birliyinin üzvü



**Açar sözlər:** təhsil sistemi, mütəfəkkir, pedaqoq, tədris.
**Ключевые слова:** система оброзования, мыслителъ, педагог, обучение.
**Key words:** education system, thinker, research, teaching.

Qloballaşan dünyada milli təhsil sisteminin inkişaf tarixinin, müxtəlif mərhələlər üzrə keçdiyi çətin yollar heç də əhəmiyyətsiz qalmır, bəlkə də bu prosesə yeni baxışlarla yanaşmağı zəruri edir. Unutmaq olmaz ki, hər bir elmi fikir milli təhsil tarixinə, onun inkişaf perspektivlərinə, uğur və problemlərinə yeni yanaşmalar tələb edir, indiki dövr üçün əhəmiyyətli olan müasir faktları aşkara çıxarır.

Azərbaycan təhsilinin hazırkı vəziyyəti onun keçmişi olan maarifçilik hərəkatını, təhsilin zəngin milli ənənələrinin müasirliklə sintezini təmsil edir. Ulu öndər demişdir: "Azərbaycan təhsili, məktəbləri sona çatmış XX əsrdə çox böyük nailiyyətlər əldə edib. Əsrin əvvəllərində Azərbaycanın mütəfəkkir şəxsləri, maarifçiləri, ziyalıları, müəllimləri xalqımızı savadsızlıqdan, ətalətdən çıxarmaq, maarifləndirmək, təhsili inkişaf etdirmək üçün çox işlər görmüşlər. Əgər Azərbaycan Respublikasının mükəmməl təhsil tarixi yazılsa (bu tarix yazılmalıdır), şübhəsiz ki, hər mərhələdə görülən işlər orada əksini tapacaq və öz qiymətini alacaqdır". Bu baxımdan XX əsrin 20–30-cu illərində Azərbaycanda təhsilin inkişaf yoluna bir daha nəzər salmağa ehtiyac duyulur.

Təhsil tariximizə nəzər salanda XX əsrin 20–30-cu illərində Azərbaycan təhsilində pedaqoji fikirdə mövcud olan ziddiyyətlər, axtarışlar xüsusi tədqiqat tələb edir. XX əsrin 20-ci illərində Azərbaycanda yeni cəmiyyət quruculuğu, ictimai-siyasi həyatda baş verən kəskin siyasi dəyişikliklər ictimai fikrin müxtəlif sahələrində yeni problematik baxışlar, fikir və ideyalar yaratmışdı.

Aydın məsələdir ki, XX əsrin 20-ci illərində baş verən kəskin siyasi dəyişikliklər haqqında təsəvvür yaradan ən güclü vasitə pedaqoji mətbuat oldu. Təhsilin, nəzəriyyənin, praktikanın problemlərinə tam yaxud qismən həsr olunmuş qəzet, jurnal, həmçinin dövri olmayan nəşrlərin cəmini pedaqoji mətbuat əhatə edir. Vəziyyət tələb edirdi ki, məktəb və təhsil sistemi, onun quruculuğunu inkişaf etdirmək üçün səmərəli axtarışlar aparılmalıdır. Yeni təhsil müasir təməl üzərində qurulmalı idi.

XX əsrin 20-ci illərində ictimai-siyasi vəziyyət ölkədə məktəblərin sayının sürətlə artmasına təsir göstərdi. Hər il məktəblərdə dərs demək üçün minlərlə müəllim hazırlanmalı, dərsliklər və dərs vəsaitləri yeniləşməli idi. Qarşıya qoyulmuş bu böyük məqsədə nail olmaq üçün keyfiyyət dəyişiklikləri tələb olunurdu. Ölkədə mədəni irəliləyişə nail olmaq üçün ümumi icbari təhsilin həyata keçirilməsi zərurəti ortaya çıxdı. Buna görə də "Savadsızlıqla mübarizə komitəsi" yaradıldı. Yeni dərslik və proqramların hazırlanması, pedaqoji mətbuatın nəşri ciddi problem kimi öz həllini gözləyirdi.

Təhsilimizin tarixində 1920-ci illər Azərbaycan xalq maarifinin inkişaf dövrü kimi səciyyələndirilir. Bu məqsədlə mədəni geriliyi aradan qaldırmaq üçün bir sıra əməli tədbirlər həyata keçirilir, maarif sahəsində yeni prinsiplər müəyyənləşdirilirdi. Ölkədə təhsilin vacib pillələri,

xalq məktəbi elan edildi, təhsil haqqı ləğv olundu. Dərslərin ana dilində keçirilməsi haqqında qanun qəbul edildi, məktəbin dindən ayrılması haqqında dekret verildi.

Xalq Maarif Komissarlığı tərəfindən 1920/1921-ci dərs ilində açılacaq məktəblərin tədris planları, onların idarə edilməsi qaydaları, o cümlədən, oğlan və qızların birlikdə təhsil almalarına dair sənədlər hazırlandı, bununla da SSRİ Xalq Maarifi sisteminin yeni qaydaları ilə işləməsinə rəvac verildi. Tezliklə "Azərbaycan SSR Vahid Əmək Məktəblərinin Nizamnaməsi" qüvvəyə mindi. 1922-ci ildə I və II dərəcəli məktəblər üçün yeni nizamnamə təsdiq olundu. 1924–1925-ci illərdə ilk yeddillik, 1926-1927-ci illərdə isə doqquzillik adı altında orta məktəblər açılmağa başlandı. Beləliklə, aşağıdakı məktəb tipləri müəyyənləşdirildi:

1. I dərəcəli məktəblər;
2. II dərəcəli məktəblər;
3. yeddiillik məktəblər;
4. kəndli gənclər məktəbləri;
5. doqquzillik məktəblər;
6. fəhlə fakültələri.

Beləliklə, ümumi icbari təhsilin həyata keçirilməsi günün vacib işinə çevrildi. Bu məqsədlə 1920–1921-ci dərs ilində Azərbaycanda 194 yeni ibtidai məktəb açıldı. Xalq maarifinə kapital qoyuluşu əsaslı şəkildə artırıldı.

Məktəblərin pillələr üzrə bölünməsi ləğv edildi, bütün məktəblər "vahid əmək məktəbi" adlandırıldı. Məktəb sahəsində qazanılan təcrübələr əsasında 1925-ci ildə Azərbaycan SSR XMK tərəfindən bir sıra qərarlar qəbul olundu və bunlar təlim-tərbiyə işlərinin canlandırılmasına təkan verdi. Məktəbin elmi əsaslarla qurulması və idarə edilməsi zəruri tələbata çevrildi.

Qeyd etmək lazımdır ki, bu dövrdə şagirdlərin tərbiyəsi məktəblərdə aparıcı xətt təşkil edirdi. Bu da, hər şeydən əvvəl, dövrün səciyyəvi xüsusiyyətləri, keçid dövrünün ziddiyyətləri ilə izah olunmalıdır. Tərbiyə məsələləri də yeni tələblərə uyğun quruldu.

Əlbəttə, bu tələblər ilk növbədə rejimin qaydalarından doğurdu: əməyə münasibətin kökündən dəyişməsi, "onun sovet adamlarının həyati tələbatına çevrilməsi" şüarının əldə rəhbər tutulması məktəblərimizdə həmin sahəyə yeni münasibət vəzifəsini qərarlaşdırırdı. Burada əmək dərslərinin qarşısında duran vəzifələr, şagirdlərin bir vətəndaş kimi formalaşmalarında əməyin rolu önə çəkilirdi.

Məktəblərin yenidən qurulması, yeni proqramların, dərs kitablarının hazırlanması da qarşıya çox mühüm problemlər qoyurdu. Bu məqsədlə XMK-da, 1920-ci ilin may ayında dərslikləri çap etdirmək üçün məktəb şöbəsi nəzdində xüsusi komissiya yaradıldı. Bu şöbə 1921-ci ildən Azərbaycan Dövlət Nəşriyyatına çevrildi və dərsliklərin çapı "Azərnəşr"ə həvalə edildi. Beləliklə, 1923-cü ildən ölkəmizdə orijinal dərsliklər nəşr edilməyə başlandı. Dərsliklərin tərtibində, əlbəttə, yeganə təcrübə mənbəyi kimi rus sovet pedaqoqlarının qabaqcıl təcrübəsindən istifadə olundu. 1923–1930-cu illərdə o dövr üçün məqbul sayılan "Üçüncü il", "Zəhmət məktəbi", "Hesab məsələləri", "Qiraət", "Sərf-nəhv" kimi dərsliklər dəfələrlə nəşr edildi. Təkcə 1931-ci ildə ibtidai məktəblərdə 16 adda dərslikdən istifadə olunurdu. Onların tərtibində dövrün qabaqcıl maarifçi alim-pedaqoqları H.K.Sanılı, Ə.Dəmirçizadə, H.Araslı, İ.Həsənov, Ə.Babazadə, A.Şərifov və başqaları yaxından iştirak edirdilər. Bir sıra uğurlara baxmayaraq, 1920-1931-ci illərdə tərtib edilmiş proqramlarda çatışmazlıqlar qalmaqda idi. Ona görə də bəzi dərsliklər tədris prosesində özünü doğrultmadı. Bu səbəbdən də proqramlar ilbəil yeniləşdirilib təkmilləşdirilsə də, yenə qənaətbəxş sayılmırdı. Bu vəziyyət pedaqoji mətbuatın diqqətindən kənarda qalmırdı. Pedaqoji mətbuatda çatışmazlıqlar barədə ara-sıra yazılar gedirdi. Eyni zamanda, bu yazılarda o zaman hələ yenicə formalaşmağa başlayan pedaqoji fikrin rüşeymləri öz yerini tuturdu.

XX əsrin 20-ci illərində, eləcə də 30-cu illərin əvvəllərində, başqa sahələrdə olduğu kimi, təhsil problemləri sahəsində də bir sıra maraqlı tədqiqatlar aparılmışdır. Bu tədqiqatlar bir çox

hallarda epizodik xarakter daşıyır, kifayət qədər dəqiq olmayan cəhətlər də özünü göstərirdi. Bununla belə, həmin tədqiqatlar təhsil problemlərinin həllində mühüm rol oynamamışdı.

20–30-cu illərdə pedaqoji mətbuatda dərsliklərin tərtibi prinsipləri haqqında müzakirələr başlandı, təkliflər verildi, lakin ciddi nöqsanlar yenə də aradan qaldırılmadı. SSR XMK tərəfindən orijinal dərsliklərin keyfiyyətini yaxşılaşdırmaq vəzifəsi qarşıya qoyuldu.Az müddətdə köhnə dərsliklərin yeniləri ilə əvəz edilməsində müəyyən irəliləyiş hiss olundu.

Məktəb şəbəkəsini genişləndirmək tələbinə uyğun olaraq 1933/1934-cü dərs ilindən başlayaraq respublikamızda yeddiillik məktəblər tədricən onilliyə çevrildi. Struktur dəyişiklikləri aparılaraq, ibtidai məktəblər 4 sinifdən, natamam orta məktəblər 7 sinifdən və orta məktəblər 10 sinifdən ibarət olmaqla müəyyənləşdirildi. Ardıcıl keçirilən tədbirlərin nəticəsi olaraq, 30-cu illərdə məktəbyaşlı uşaqlarla yanaşı, yaşlı əhalinin də savadlanmasında uğurlu addımlar atıldı. 1928/1929-cu dərs ilindən birinci və ikinci dərəcəli məktəblərin hamısında latın əlifbası tətbiq edildi. 1929/1930-cu dərs ilindən bütün məktəblər üçün məcburi olan tədris planları və tədris proqramları tətbiq edildi. Bütün bunlar məktəblərdə istifadə olunan yeni proqramların, metodların tətbiqinə zəruri ehtiyac yaratdı.

Bu qərardan sonra əsası dövlət səviyyəsində qoyulan politexnik məktəbləri yenidən quruldu. Emalatxanaların artırılması və məktəblərin zavodlara, sovxozlara təhkim edilməsi politexnikləşdirməyə təkan verdi.

"İbtidai və orta məktəb haqqında" qəbul edilən yeni qərar məktəblərdə təlimin keyfiyyətini yüksəltməkdə müəllimlərə metodik köməyi, rəhbərliyi gücləndirdi.

Bu illərdə respublikada yaradılan nümunəvi məktəblər təlim-tərbiyə işlərinin yaxşılaşdırılmasına xidmət edirdi. İcbari təhsil özünün ilk nəticələrini verirdi.ÜİK (b)P MK-nın 25 avqust, 1932-ci il tarixli "İbtidai və orta məktəbdə tədris proqramları və rejim haqqında" adlı qərarından sonra respublikada yeni proqramların yaradılması sahəsində əsaslı dəyişikliklər edildi. Tezliklə yeni proqram və dərsliklər hazırlandı, məzmunun təkmilləşdirilməsinə başlandı.

Məktəblərdə yeni proqram və dərsliklərlə işləmək pedaqoji prosesə müsbət təsir göstərirdi. Bu da onunla bağlı idi ki, yeni proqramların tərtibində sistemlilik, elmilik prinsipləri əsas götürülmüşdü. Proqramların hazırlanmasına pedaqoji aləmdə yaxşı tanınan B.Çobanzadə, F.Qasımzadə, Ç.Zülfüqarlı, A.Abbaszadə kimi pedaqoqlar, xüsusən Azərbaycan Elmi Tədqiqat Pedaqoji İnstitutunun əməkdaşları cəlb olundular. Onların səyi ilə məktəblər yeni proqramlara keçə bildi.

Dövrün tələblərinə uyğun olaraq, 1938/1939-cu dərs ilində Azərbaycanda təlim rus dilində olmayan məktəblərdə rus dilinin tədrisi zəruri hesab edildi və II sinifdən tədrisi qərara alındı. Bunu sahmana salmaq məqsədilə tezliklə rus dili üzrə tədris planı və proqramlar hazırlandı, metodik ədəbiyyat nəşr edildi və 1938-ci ildə bu iş başa çatdırıldı.

O zaman təlim metodları məsələsi pedaqoji mətbuatda geniş müzakirə olunurdu. "Dalton-plan", "Tədqiqat" kimi yeni metodlar çox yayılır, bəzi məktəblərdə bu metodları və ya onların ayrı-ayrı ünsürlərini tətbiq etmək təşəbbüsləri də olurdu. Bəzən bütün qurumlarda şagirdlər 5–6 nəfərlik kollektivlərə bölünür, müəllim gələcək yeni dərs haqqında şagirdlərə tapşırıq verir, cədvəl üzrə aparılan dərslərdən sonra qarşıdakı dərslərə hazırlaşırdılar. Bir sıra məktəblərdə isə müəllimlər "yeni metodlara" yaxın gəlmirdilər. O zaman "Yeni məktəb"də çıxan "Məktəbdə iş metodları" adlı məqalədə tədris metodlarının təsnifinə dair mülahizələr, həmçinin sovet pedaqoqları B.V.Vsesvyatski və A.P.Pinkeviçin bu barədə fikirləri şərh edilir. Bütün bunların "qeyri-fəal", "fəal" olmaqla iki yerə bölünməsi məqbul sayılırdı. Məqalə müəllifi mühazirəni, müəllimin canlı sözünü, kitab üzərində işi, illüstrasiya metodlarını qeyri-fəal hesab edir, laborator və zəhmət metodlarını, xüsusilə yaradıcılıq, müstəqillik nümunəsi kimi "laborator tədqiqat" metodunu fəal hesab edir. Göründüyü kimi, təsnifatda müəyyənlik nəzərə çarpmırdı. Ona görə də "metodların sintezinin lazımlığı" qənaətinə gəlirdilər, lakin pedaqoji mətbuatda bu metodların mahiyyətinə, onların tətbiqi nəticələrinə dair əsaslı fikirlər söylənirdi (M.Mehdizadə, "Azərbaycanda sovet məktəbinin tarixinə dair xülasələr. Bakı, 1958, səh. 139-140).

“Yeni məktəb” jurnalında deyilirdi: “Unudulmamalıdır ki, məktəbin başlıca vəzifəsi uşaqlarla uyğunlaşmaqdır. Uşaqlar əhalidən ayrılmaz olduğundan onlarla da uyğunlaşmalı, daha doğrusu, əhali ilə birlikdə çalışmalıdırlar (“Yeni məktəb”, 1924, №3-4). “Maarif və mədəniyyət”də də buna uyğun fikirlər söylənirdi: “Bunu yadda saxlamaq lazımdır ki, məktəb həyat üçündür. Ona görə də dərslər mövcud həyatla əlaqələndirilməlidir” (“Maarif və mədəniyyət”, 1923, №6). Başqa bir məqalədə isə “Məktəb həyata yaxın olmalı, məktəb tərəfindən əhali arasında təşviqat aparılmalı, məktəb həyatın kiçik bir parçası kimi təsəvvür edilməlidir”, – deyilirdi (Yenə orada,1924, №1). Beləliklə, məktəb ilə ictimaiyyət arasında müəyyən əlaqələr yaradılırdı.

Yeni təlim metodlarında başlıca məqsəd kimi cəmiyyət üçün yararlı vətəndaşlar yetişdirmək, gənc nəsli elmlərin əsasları ilə silahlandırmaq və s. məktəb qarşısında duran əsas vəzifələr kimi müəyyənləşdirildi. Pedaqoqlar təlim-tərbiyənin keyfiyyətini yüksəltmək üçün əlverişli metodlar haqqında, təlim prinsipləri, təşkilat formaları və metodlarından istifadəyə dair müzakirələr keçirir və pedaqoji mətbuatda məqalələr çap edilirdi. Bu vəzifələrin yerinə yetirilməsində pedaqoji ictimaiyyətə Ə.Azaqbəyli, Ə.Əfəndizadə, M.Quliyev, H.Ağalar, H.Əşrəf, C.Cəbrayılbəyli, M.Rəhimli, H.Camalov, A.Musaxanlı, Ə.Məhəmməd, F.Rzabəyli, A.Sübhanverdixanov və b. alimlərin əsaslı köməyi dəyirdi.

Qeyd etmək lazımdır ki, XX əsrin 20–30-cu illəri Azərbaycanda pedaqoji fikrin təşəkkülü dövrü olduğundan pedaqogikada bəzi ziddiyyətli və yanlış fikirlərlə qarşılaşilirdı. Maarif işçiləri tərəfindən didaktikanın bəzi sahələri, xüsusən təlimin prinsipləri düzgün izah olunsa da, məktəb təcrübəsində o dövr üçün vacib sayılan təlimin təşkilati formalarına (laborator, daltonplan, laborator-briqada, kompleks və s.) daha çox yer verilir, onlar haqqında mətbuatda tərifləyici məqalələr dərc edilir və həmin metodlar tətbiq olunurdu. Belə yanaşmalar olduqca təhlükəli nəticələr verə bilərdi. Sırf təcrübəyə əsaslanan bu metodlar məktəbdə vahid iş rejimini pozur, tədrisdə müxtəlif təhriflər yaradır, nəzəri biliklərin şagirdlərə müntəzəm və dərindən mənimsədilməsinə, onların hesabatının düzgün aparılmasına əngəl törədirdi.

Sovet rejiminin təsiri ilə yeni tipli pedaqogika elmi və onun vəzifələri klassik irsə zamanın tələbindən doğan meyarlar çərçivəsində münasibət, digər problemlər əksər hallarda tendensiyalı şəkildə tədqiq olunurdu. Bu məsələlər yeni siyasi-tarixi şəraitdə tədqiqat aparılmasını zəruri edirdi. Azərbaycan pedaqoqlarının qərb və rus klassik pedaqogikasına üstünlük verməlləri, heç də onlara qədərki pedaqoji fikirlərdən imtina etmək deyildi. Yeri gəlmişkən qeyd edək ki, 20–30-cu illər pedaqoji fikrin yenicə formalaşmağa başladığı illər idi. Qərb və Rusiya ilə bağlı fikir və mülahizələri bəzən kontekstdən çıxararaq, onu ümumşərq, o cümlədən, Azərbaycan pedaqoji fikrinə xor baxmaq kimi dəyərləndirənlər də tapılırdı. Bəziləri də 20-30-cu illərin siyasi çəkişmələrindən çıxış edərək, klassik pedaqoji irsimizə düzgün qiymət verə bilmirdilər. Ruhən və fikrən onların yaşadıqları mühit və ideologiyanın təsiri nəzərə alınmırdı. Ona görə, elmi-pedaqoji fikrin canlandırılmasına, elmi kadrların yetişdirilməsinə ciddi zərurət yaranmışdı.

Elmi-pedaqoji kadrların hazırlanmasında, pedaqoji fikrin formalaşmasında, tədris işlərində təhriflər aradan qaldırılmasa da, respublikada dövri mətbuatın, xüsusən “Azərbaycan məktəbi” jurnalının, ali məktəblərdə çap olunan “Elmi əsərlərin” rolunu unutmaq olmaz. “Maarif və mədəniyyət”, “Yeni məktəb”, “Maarif işçisi”, “Müəllimə kömək”, “Kommunist tərbiyəsi uğrunda” və b. pedaqoji yönümlü jurnallar sonrakı illərdə “Azərbaycan məktəbi” jurnalı və onun əlavə məcmuələri, habelə “Azərbaycan müəllimi” qəzeti pedaqoji və metodik biliklərin təbliğində bəzi məsələlərə aydınlıq gətirilməsində, qabaqcıl pedaqoji təcrübənin öyrənilməsi və yayılmasında, milli elmi-pedaqoji kadrların püxtələşməsində aparıcı rol oynamışlar. 30-cu illərdə “Kommunist tərbiyəsi uğrunda” jurnalının ətrafına daha nüfuzlu alimlər, pedaqoqlar yığışmışdı. Azərbaycan pedaqoqlarının belə məzmunlu məqalələrlə çıxış etmələrində jurnalın adının və nüfuzunun da rolu danılmazdır.

“Kommunist tərbiyəsi uğrunda” məcmuəsində N.E.Maqarikin “Pedaqoji işlərin nəzəriyyə və praktikasında “sol” opportunizm təhrifləri əleyhinə” məqaləsində (1932, №3) deyilirdi ki,

pedaqoji sahədəki mübarizə ideologiya cəbhəsində mübarizənin üzvü bir hissəsidir. Məktəbin "ölməsi" nəzəriyyəsinin tərəfdarlarından olan V.N.Şulgini kəskin tənqid edir, onunla həmfikir olan M.V.Krupeninadan misal gətirir: "Məktəb nəzəriyyəsinin heç bir əhəmiyyəti yoxdur. İş prosesində, fabrikdə, zavodda, sovxozda çalışanların əmək prosesini də kütlə öyrənir və vacib olan məlumatı alır". Sonra müəllifə belə bir münasibət bildirir: "Deməli, məktəb artıq məktəb deyil, hər nə istəsən olur (məktəb, istehsalat, zavodun, kolxozun sexi və s.). Yalnız əsl məsələ məktəb olmamasıdır". M.V.Krupenina fikrini bir qədər də kəskinləşdirərək yazırdı: "Artıq ümumi təhsil materialının istehsalata və ictimai işlərə tabe olmaq zamanı çatmışdır. Ümumi təhsil işləri proqramından deyil, bəlkə ictimai faydalı istehsalat əməyindən işə girişmək zamanı çatmışdır". Bütün bunlar məktəb haqqında qərarların tamamilə əksinə idi. Əslində bu layihələr "məktəbin ölməsi" nəzəriyyəsi idi. Məqalədə V.N.Şulgindən və M.V.Krupeninadan sitatlar gətirilir: "Məktəb bütün bəndlərindən sökülür", "Müəllim çocuqların öz-özlərini tərbiyə və təlim etmələrində onların köməkçisi olur", "Çocuqlar tərbiyə prosesində və onun quruluşunda iştirak edərkən öyrənirlər" (V.N.Şulgin) və s. "Bilik proqramı yox, bəlkə hərəkət proqramı", "Bütün məktəb işlərinin çap daşları olan tədris kitabları artıq keçmişə buraxılır" (M.V.Krupenina).

Professor P.P.Fridolin yazırdı: "Laborator-tədqiqat, ekskursiya metodları və Dalton-plan – zəhmət məktəbinin məqsədini müəyyən edən bu üç əhəmiyyətli nöqtə fəal zəhmət və kompleks sisteminin əsasını təşkil etməlidir. Yeni pedaqoji düşüncə, yeni zəhmət məktəbinin prinsiplərini nəzərdə tutaraq, bunlardan başqa heç bir yenilik təqib etməz və etməməlidir" ("Yeni məktəb", 1925, №5-6). P.P.Fridolin bunu o zaman yazmışdır ki, onda pedaqoji mətbuatda yeni metodlardan çox yazır və hamını bu yola dəvət edirdilər. Heç də hamı bu yolla getmirdi. Ona görə də də "Dalton plan", "tədqiqat və ekskursiyadan başqa sovet məktəblərində heç bir metod tətbiq etməməyi lazım bilirdi, lakin buna etiraz edənlər də çox idi. Bu metodlardan müəllimlər ekskursiyanı bəyənirdilər. Mətbuatda da bu metod haqqında yazılar gedirdi. Bu metod özünə daha çox tərəfdar qazandı. Ancaq prof. A.M.Amosov başqa fikirdə idi. O yazırdı ki, il ərzində sinifdə riyaziyyat üzrə bir dəfə ekskursiya təşkil etmək kifayətdir". Belə ekskursiya da məhz o zaman təşkil edilə bilər ki, yerli şərait müəllimə şagirdləri belə ekskursiyalara aparmağa imkan versin." (M.Mehdizadə. Azərbaycanda sovet məktəbinin tarixinə dair xülasələr. Bakı, 1958, səh. 66-67).

Yenə həmin jurnalda müəllifin "Briqada laborator tədris metodu əleyhinə" adlı məqaləsi də dərc olunmuşdur (1932, №7-8). Müəllif tövsiyə edirdi ki, müxtəlif metodlar tətbiq ediləndə gərək nəzəriyyə ilə təcrübənin fəallıq, yaradıcılıq və təşəbbüskarlığı təmin edilsin.

"Nəzəri pedaqoji cəbhəsində" adlı məqalədə ("Kommunist tərbiyəsi uğrunda", 1933, №1) 1920-ci ildən məktəblərimizdə qazanılan nailiyyətlər qeyd olunduqdan sonra, o dövrdə nəzəri məsələlər ətrafında gedən mübahisələrdən danışılır və göstərilirdi ki, bəzi "nəzəriyyçilər" çox asanlıqla istifadə etdikləri belə bir nəzəriyyə davam etməyə başlamışdır ki, Şura pedaqogikasının çox kiçik bir keçmişi vardır və onun "yaşı" mahiyyət etibarilə, ancaq bir neçə illə ölçülür. Bundan başqa, beş-on nəfər digər nəzəriyyəçi pedaqoqlar qısa bir zamanda marksizm pedaqogikasını yarada bilmirdilər. Buradan da müəyyən nəticələr alınır: "Əvvələn, belə bir nəticə meydana çıxır ki, bizdə elmi şura, pedaqogika yoxdur, ikincisi, "nəzəriyyəçilər" tərəfindən nə iş görülmüşdürsə, bunlar görüləcək işin məcmusudur".

Halbuki məsələyə bir az dərindən yanaşılmalıdır. Müəllif sözünü davam etdirərək yazır: "Söz yox ki, məsələnin bu sayaq qoyuluşu kökündən doğru deyildir. Məsələnin belə qoyulması, nəinki bir sıra pedaqoqların sadəcə özlərini doğru hesab etdiklərini göstərir, eyni zamanda onların pedaqojimizin mənbəyini anlamalarını, bu pedaqojinin tarixi köklərini, politexnik məktəb quruluşunun real yollarını, bütün bunların nəticəsi olaraq, yeni yetişən nəslin, kommunist tərbiyəsinin nəzəriyyat və praktika məsələlərini də rəhbər göstərərək anlamalarını isbat edir. Onlar bilməlidirlər ki, "hər bir elmin əsas məsələsi olduğu kimi, pedaqogikanın da predmeti və metodu üzərində dayanması lazımdır. Pedaqoji məxəzçilik məsələsi unudulmamalıdır, pedaqoji-

nin başqa elmlərlə əlaqəsinə də diqqət yetirilməlidir. "Nəzəriyyəçilər" uçurub dağıtmaqla məşğuldular".

20-ci illərin ikinci yarısında bir sıra kitablar, o cümlədən, P.P.Pinkeviçin iki cildlik "Pedaqogika" kitabı tərcümə edilib, 1926-cı ildə nəşr olundu. Bu kitab müəllimləri bir sıra mühüm pedaqoji nəzəriyyələrlə tanış etdi. Bunlardan əlavə, Xəlil Fikrətin iki cildlik "Pedaqogika tarixi" (Bakı, 1926), professor B.B.Komarovskinin "Типология педагогики" (Bakı, 1920) və "Современные педагогические течения США" (Bakı,1930) adlı kitablar və bəzi kiçik həcmli kitabçalar da buraxıldı ki, bununla da yeni yaranmaqda olan pedaqogika elminin təməli qoyuldu. Bu yeni pedaqoji nəzəriyyə, əsasən, pedaqoji mətbuat və maarif orqanları tərəfindən maarif sisteminə yayılırdı.

Düzdür, həmin metodlar bir müddət əksər məktəblərimizdə tətbiq olundu, lakin bu tədbir inkişafı xeyli ləngitdi, təlimin keyfiyyətinə mənfi təsir göstərdi. Bütün bu nöqsanlara görə ÜİK (b)P MK-nın 25 avqust, 1932-ci il tarixli qərarı ilə məktəblərimizdə tətbiq olunan dərsin laborator və kompleks formaları pisləndi, onların tətbiqi qadağan olundu.

Bu qərardan sonra məktəblərimizdə dərs təlimin əsas təşkilat forması kimi özünə möhkəm yer tutdu. Tədris prosesində nəqli, illüstrasiya, nümayiş etdirmə, evristik müsahibə, tədqiqatçılıq, kitab üzərində iş kimi təlim metodlarından istifadə olunmağa başlandı.Bu illərdə "arasıkəsilməz dərs ili", "yay məktəbi", "proyektlər metodu" kimi müxtəlif antipedaqoji nəzəriyyələr yayılmışdı. Bu dövrdə pedalogiya da öz işini gücləndirdi. 1930-cu ildə kompleks layihə proqramları ortaya çıxır. 1931-ci ildə o, özünü daha da genişləndirir. Bu layihələr özünü doğrulda bilmədi və həmin metodlar pisləndi.

Qeyd etmək lazımdır ki, XX əsrin 20-40-cı illərində məktəblərimizdə dərsin, əsasən, iki tipindən – yeni bilik verən və mürəkkəb tipindən geniş istifadə olunurdu. Əyanilik və şüurluluq prinsipinə, şagirdlərin təlim prosesində fəallığına xüsusi diqqət yetirilirdi. 1930–1934-cü illər arasındakı dövrdə ümumi icbari təhsilə keçmək üçün şərait yaradıldı.

1935-ci ildə Azərbaycan XMK şagirdlərin biliyini qiymətləndirmək üçün yeni qiymət normaları (*"çox pis","pis","orta","yaxşı","əla"*) müəyyənləşdirdi, sonra isə yazı işlərinin qiymətləndirilməsi normativləri hazırlandı ki, bunlar da şagirdlərin biliklərinin düzgün qiymətləndirilməsinə, təlimin səmərəsinin yüksəldilməsinə müsbət təsir göstərdi.

Pedaqoji mətbuat onu da yazırdı ki, Azərbaycan məktəblərinin laborator metodlardan kompleks metoda keçməsi pedaqoji fikrin inkişafına müəyyən mənada irəliləyiş gətirdi. Kompleks metod istər Dalton-plan, istərsə də laborator-briqadadan öz həyatiliyi ilə fərqlənirdi. Təcrübə baxımından kompleks metod geniş imkanlara malik idi, lakin onun tətbiqi tərbiyə sahəsində çatışmazlıqlar törətmiş, "azad tərbiyəyə" şərait yaratmışdı. Ona görə də çox böyük ziddiyyətli fikirlərdən sonra həm laborator, həm də kompleks metod pisləndi və qadağan olundu.

"Kommunist tərbiyəsi uğrunda" jurnalı öz tənqidi fikirlərini ümumiləşdirərək yekun sözü kimi yazırdı: "Məktəbin ölməsi nəzəriyyəsi" metodik və projektorluq kimi anti-Lenin və "sol" fikirlərlə qəti mübarizə aparmaqla bərabər məktəbimizin geriyə, dil və siyasətdən xaric bir məktəbə çevirmək təşəbbüsündə olan sağ təmayüllə də mübarizəni xüsusilə qüvvətləndirir. (1932, №7-8)

Təlim metodlarının seçilməsində, dərslik və proqramların tərtibində, təlimin təşkilat formalarının müəyyənləşdirilməsində bəzi yanlışlıqlara yol verilsə də, 30-cu illərdə bütün bu çatışmazlıqlar mövcud qərarlara müvafiq olaraq tamamilə aradan qaldırıldı və pedaqogika elminin təcrübədə doğulmuş nəzəri təməli üzərində quruldu. Məhz bu təməl məktəbin sonrakı inkişaf yolunda möhkəm zəmin oldu.

Professor N.E.Maqarik bu sahədə buraxılan səhvləri də, o cümlədən, pedaqoji mətbuatdakı təhrifləri də kəskin tənqid etmişdir: "Azərbaycanda birinci politexnikləşdirmə qurumlarında və həm də Azərbaycan müəllimlər qurultayında bizim tərəfimizdən layihələr metodu məktəbin politexnizm əsası ilə yenidən qurulmasının vacib bir şərti olan rəhbər metod kimi irəli sürülmüşdür. Azərbaycan pedaqoji mətbuatımız Xalq Maarif Komissarlığı tədris

metodları ilə ("Müəllimə kömək", "Kommunist tərbiyəsi uğrunda") deyil, solçuluq və əyintilərlə mübarizə aparır, bəlkə pedaqogikada Şulgin məqsədini təşviq etmişdir".

"Buna qədər də məktəb haqqında Mərkəzi Komitənin qərarlarında göstərilən bütün səhvlərə və təhriflərə pedaqoji fikrin ən yaxın və bilavasitə münasibəti vardır. Bu səhvlər etiraf olunsa da, həm nəzəriyyədə, həm də təcrübədə bütün bunları tamamilə ləğv etmək, Mərkəzi Komitənin məktəb haqqındakı qərarını yerinə yetirmək üçün tədbirlər görülməlidir.

Azərbaycan məktəblərinin yeni metodlara keçməsi, onların müasir proqramlara keçmək üçün kütləvi hazırlıq kampaniyası məktəbimizin işlərində qəti dönüş yaratmalıdır".

"Məktəbdə pedaqoqlar geridə qalmış, intizamsızlıq edən şagirdləri xüsusi hesaba alaraq müəllimlərin belə şagirdlərlə işləmələrinə mane olur, onları heç bir ümid verməyən uşaqlar kimi xüsusi, yardımçı məktəblərə göndərir, müəllimlərin təlim-tərbiyə işinə müdaxilə edir, onların üzərində nəzarətçi kəsilirdilər. Bütün bunlar məktəbdə pedaqoqun rolunu və məsuliyyətini azaldır, onları təlim-tərbiyənin keyfiyyəti uğrunda mübarizədən çəkindirir, məktəb üzərində rəhbərlik işində doğrudan-doğruya nəzarətsizlik yaradırdı, nəticədə də sovet məktəbinin bütün işinə böyük zərər yetirirdi" (M.Mehdizadə).

Pedaqoji təhriflərə dair qərardan sonra pedalogiyanı ləğv etmək, pedaqogika və pedaqoqları öz hüquqlarında bərpa etməklə pedaqogika elminin yeni inkişafı, təlim-tərbiyə işləri təcrübəsinin hərtərəfli işıqlandırılması, habelə məktəb işlərinin yeni yüksəlişi üçün əlverişli zəmin yaratmış oldu (M.Mehdizadə."Azərbaycan sovet məktəbinin tarixinə dair xülasələr. Bakı, 1958, səh. 197). Sol opportunist təhrifləri ilə aparılan mübarizənin, məktəbi politexnikləşdirməkdən imtina edən, əski əzbərçilik məktəbini saxlamağa çalışan, nəzəri təlim və praktika arasında bir uçurum yaradan, bütün bunlarla yanaşı, firqə siyasətini təhrif olunan sağ oppotrunist təhlükələri ilə aparılan mübarizəni təmin edə bilirdi.

Ümumiyyətlə, pedaqoji aləmdə XX əsrin 20-ci illərini respublikamızda yeni məktəbin və pedaqoji fikrin axtarış illəri, 30-cu illər yeni məktəbin, xalq maarifinin elmi əsaslar üzrə inkişafı dövrü hesab etmək olar. Həmin təcrübələr Azərbaycanda pedaqoji fikrin inkişafının əsaslı təməli kimi bu gün də dəyərini itirməmişdir.

**Ədəbiyyat**


1. Mehdizadə M. Azərbaycan sovet məktəbinin tarixinə dair xülasələr. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı,1958.
2. Mehdizadə M. SSRİ-nin 60 illiyi və Azərbaycanda pedaqoji elmlərin inkişafı haqqında, "Azərbaycan məktəbi", 1982, №12, 1983, №1.
3. Muradxanov M. 30 ildə Sovet İttifaqında məktəbin inkişafı, "Azərbaycan məktəbi", 1947, №3.
4. Məcidov S. İbtidai təhsil metodisti N.A.Korf. "İbtidai məktəb və məktəbəqədər tərbiyə", 1983, №3.
5. Maqarik N.E. Pedaqoji işlərin nəzəriyyat və praktikasında "sol" oppotunist təhriflərin əleyhinə, "Kommunist tərbiyəsi haqqında", 1932, №3.
6. Fridolin P.P. Laborator, ekskursiya metodları – Dalton plan, "Yeni məktəb", 1925, №5-6.
7. Rüstəmov F. Azərbaycan pedaqogikaşünaslığı. Bakı: "Elm və təhsil", 2016.
8. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Bakı: "Elm və təhsil", 2010.
9. Kərimov Y. Təlim metodları. Bakı, 2007.
10. "Müəllimə kömək" jurnalı, 1930-1941.
11. "Yeni məktəb", 1925-1930.
12. "Народное просвещение" jurnalı, 1920, №2.
13. "Maarif işçisi" jurnalı, 1926, №2-3.


**ПЕДАГОГИЧЕСКОЕ МЫШЛЕНИЕ В ОБРАЗОВАНИИ АЗЕРБАЙДЖАНА, ПРОТИВОРЕЧИЯ , ПОИСКИ В 20–30-х ГОДАХ XX ВЕКА**

**резюме**


В статье рассматриваются проблемы, существующие в сфере образования в 20-30-е годы XX века, и пути их решения. Показаны факты развития образования в Азербайджане. Упоминаются факторы, которые помогают сформировать идею борьбы с антипедагогическими теориями. За последние 20 лет мы искали путь, который прошел наше образование. В статье также говорится о трудоемком алфавите, который был насильственно принят в те годы в наших школах, и его вредных особенностях. В результате, идеи, противоречащие существующим педагогическим идеям, подвергаются критике, и проводятся новые поиски.

**IN THE TWENTIES AND THIRTIES OF THE TWENTIETH CENTURY, THE PEDAGOGICAL THINKING IN THE FORMATION OF AZERBAIJAN, CONTROVERSY,SEARCHING**

**summary**

The article discusses the problems existing in the field of education in the 1920s and 30s, and ways to solve them. The facts of the development of education in Azerbaijan are shown. The factors that help shape the idea of fighting anti-pedagogical theories are mentioned. For the past 20 years we have been looking for the path that our education has gone through. The article also speaks of the laborious alphabet, which was forcibly adopted in those years in our schools, and its harmful features. As a result, ideas that contradict existing pedagogical ideas are criticized and new searches are conducted.

# NİTQ İNKİŞAFI METODİKASININ MƏZMUNU VƏ PLANLAŞDIRILMASI MƏSƏLƏLƏRİ

**Çinarə İsmayılova,**
ADPU-nun magistrantı;
**Məryəmxanım İbrahimova,**
ADPU-nun magistrantı





**Açar sözlər:** nitq inkişafı, ifadə, inşa, inşa və ifadələrin növləri, dərsliklər, metodik vəsaitlər;

**Ключевые слова:** развитие речи, изложение, виды сочинений и изложений, сочинение, учебники, методические пособия;

**Key words:** speech development, presentation, essay, textbooks, teaching aids, types of essays and presentations.

Didaktika elmində dərsin iki aspektindən birinin nitq inkişafı, digərinin isə təfəkkür inkişafı olduğu göstərilir. Professorlar Ə.Əfəndizadə, Y.Kərimov, B.Əhmədov, V.Kazımov və başqaları didaktikada nitqi, təfəkkürü bir-birindən təcrid olunmuş şəkildə, yəni ayrılıqda götürməyi mənanı ifadə formasından ayrı şərh etmək kimi qiymətləndirirlər. Doğrudan da, dərsi iki paralel qola bölmək olmaz. Nitqsiz təfəkkürdən danışmaq mümkün deyil. Bir halda ki, təfəkkürü daxili nitq doğurur və o, nitqlə ifadə olunur, buradan belə bir məntiqi nəticə çıxır: Nitq inkişafını təfəkkürün inkişafından ayırmaq, bir növ, barmağın ətini dırnaqdan, yaxud da əksinə, dırnağı barmağın ətindən ayırmaq kimi bir əməliyyatdır.

Tutaq ki, öyrənilən mətn "İnci" hekayəsidir. Qısa məzmunu belədir: "Buluddan dənizə bir damla düşür. Damla sahilsiz dənizə baxanda özünü çox kiçicik bir damlacıq hesab edir və
–dənizlə müqayisədə heç bir şeyəm – deyir:

Öz kiçikliyini etiraf edir və onu bir sədəf qoynuna alır. Günlər keçir, həmin damladan inci əmələ gəlir və dilbər gözəllərin sevimlisinə çevrilir".[2] Nəticə belədir: deməli, damla sadəlik göstərdi, özünü kiçik gördü və axırda görün necə də ucaldı.

Şeyx Sədidən alınan bu mətn bizim üçün bir fikri ifadə mətnidir. Müəllifin özü üçün isə inşadır. Əvvəlcə mənanın dərk olunmasına fikir verək:"Kiçilmək, sadəlik göstərmək əslində ucalmaq deməkdir". "Sadəlik gözəlliyi yüksəklərə qaldırır", "Ayaqda otur ki, çıxasan başa" və s. Bütün bunlar həmin hədisdən çıxan nəticələrdir. Deməli, hadisəni bilmək və nağıl etmək nitq inkişafı, ondan çıxarılan nəticələr isə təfəkkürün inkişafıdır.

Bildiyimiz kimi, ifadə yazılar, başdan-axıradək rabitəli nitqin inkişafı prosesidir. Mətnin oxunub dərkedilməsi, planının tutulması təfəkkürlə nitqin qarşılıqlı fəaliyyəti sayəsində mümkün olur. Bunlar şagirdlərin plan tərtibi üzrə düşündükləri, habelə praktik fəaliyyətə cəlb olunmaları sayəsində baş verir.

İnşa metodikası da onun kimidir, yəni mövzunun dərk olunması, ondan irəli gələn başlıca ideyanın müəyyənləşdirilməsi, materialların toplanması, saf-çürük edilməsi və sistemə salınması prosesi nitq və təfəkkür əməliyyatlarının bir-birini doğurması kimi nəticələnir. Ümumiyyətlə, ifadə və inşanın fəlsəfəsini açmaq çox geniş anlayışların açıqlanmasından, onların fikrən parçalanması, yenidən bir tamda birləşməsi kimi təbii proseslərdən keçib gedir. Necə deyərlər, suyun əmələ gəlməsini xatırladır.

İfadə və inşanın maddi əsasında söz və onun doğurduğu məna, habelə sözlərdən yaranan digər mənalar durur. Bu, nə deməkdir? Belə bir analogiya aparaq. Şeyx Sədinin bir fikri var: "İnsan göylərə səcdə etməkdənsə, öz vicdanına səcdə etməlidir". Bu ifadə düşüncə materialıdır. Ona *nitq parçası* deyirik. Bəs doğurduğu mənanı necə dərk edirik? Budur həmin məna: "Göylərə təzim edib, günahından keçməsi üçün yalvarmaqdansa, öz saf qəlbinin döyüntülərinə qulaq as və hər hansı bir hərəkətə düşündükdən sonra rəvac ver. İnsan öz qəlbinin səsinə qulaq asmalıdır. "Çalış öz qəlbini saflaşdırmağa" deyən dahi Nizamini də gərək yaddan çıxarmayasan.

Saf qəlb – pak vicdandır. Deməli, pak vicdana səcdə etmək daha düzgündür, daha məsləhətlidir. Sual oluna bilər: Şeyx olan bir kəs bu sözlərlə göylərin qüdsiyyətini, Allahın kəramətini danırmı? Xeyr, heç vaxt. Sadəcə şeyx deyir ki, göylərdə nəzərdə tutulanları öz ürəyinə və oradan da əməllərinə köçürməlisən. Dahilər göyləri də, yerləri də şüurla araşdırıb, dərk edən müdrik insanlardır. Xaqani Şirvani, Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami və Məhəmməd Füzuli öz ürəkləri ilə danışa-danışa, ondan öyrənə-öyrənə «Sədaqət güzgüsü», «Cəlairi-ruh», «Ənisül-qəlb» kimi əsərlər yaratmışlar. Bu əsərlərin hər biri 130-dan artıq beytdən, hər beyt də məna ilə dolu fəlsəfi fikirlərdən ibarətdir. Deməli, daxili nitq fikrin içərisindədir, fikri doğurur və onun ifadəedicisi olur. Dahi Nizami Gəncəvi, Saib Təbrizi, Məhəmməd Füzuli və başqaları sözün forması ilə mənasının vəhdət təşkil etdiyini göstərmişlər:

Sözün qanadları var, quş kimi incə-incə,
Dünyada söz olmasa, nəyə gərək düşüncə?!

"Əgər düşüncəni ifadə etməyə sözün (nitqin) yoxdursa, həmin fikir nəyə lazımdır".

Yaxud:

Sözün mənasındadır söz deyənin qüdrəti,
Çün ətrindən bəllənər hər gülün lətafəti.

(Füzuli)

"Şöz deyənin gücü-qüdrəti dediyi sözün mənasındadır, necə ki, gülün lətafəti onun ətrindən məlum olur. Deməli, gül ətri ilə lətafətlidirsə, insan sözü ilə şərafətlidir. İnsan dünya sədəfinin gövhəridirsə, söz insan sədəfinin cövhəridir" . (Füzuli)

Bu fikri metodik prosesə çevirsək, belə nəticə alınar: Dahiləri öyrənmək və onlardan hədislər söyləmək nitq inkişafıdırsa, onların kəlamlarını məna yükünü dərk etmək, açmağı bacarmaq təfəkkürün inkişafıdır.

İfadə materialları, inşa mövzuları da insanı düşündürür və danışdırır. Deməli, biz şagirdləri rabitəli fikirlər toplusu, fikir mənbəyi əsasında düşündürməyi qarşımıza məqsəd qoymalıyıq. Hədəfimiz düşünüb, danışmağı öyrətmək olmalıdır. Bu prosesin bir çox maneələrdən keçdiyini, nələrə diqqət yetirmək lazım olduğu, hansı sualları meydana çıxarması da nəzərə alınmalıdır. Bu zaman qarşıya çətinliklər çıxır. Onlar hansılardır?

1. Bir beytin mənasını açmaq və ya ona müvafiq ad qoymaq ifadə, yoxsa inşadır?

2. İfadə də qurulur, inşa da. Bəs bunların fərqi nədədir? Məgər ifadə materialı özü də, inşa kimi, kiminsə tərəfindən yazılmırmı?

3.İnşaların növləri ilə ifadələrin növləri bir-birindən necə fərqlənir? İnşa materialını nəzəriyyəçi alimlər yazır, biz də ona heç bir dəyişiklik etmədən danışırıqsa, bunun harası inşa olur, bu, ifadə deyimi? Məsələn: "Ədəbiyyat" dərsliklərində "Xosrov surəti", "Şirin surəti", "Məcnun surəti", "Leyli surəti" və s. mövzulardan illər boyu inşa kimi imtahan vermişik. Onlar başqalarının yazdıqları inşalar, bizim yazdığımız ifadələr olub. Bu halda bizim yazdıqlarımız ifadə deyil-

dimi? Etiraf etməliyik ki, biz bu vaxta kimi çox şeyləri, o cümlədən, nitq inkişafı anlayışlarını da qarışıq salmışıq.

Rus dilinin tədrisi metodikasında hər hansı müəllifin bir şerini tədris edərkən müəllim onun məzmun və mövzusuna dair sual-cavablarla şagirdləri danışdırır. Əgər suallar birbaşa mətndə nəyin necə olmasına aiddirsə, (məsələn, "Payız hansı sözlərlə, necə təsvir olunmuşdur?"), şagird də çıxış edərək, müvafiq parçanı nümunə göstərirsə, buna *ifadənin məzmunu üzrə təhlili* deyilir. Əslində elə ifadənin planı da belə suallar əsasında açılır. Yox, əgər mətn üzrə sual "Sizcə, bu şeir nə üçün «Payız» adlandırılmışdır?" şəklində qoyulmuşsa, cavab mətnin içində yoxdursa, onu şagird özü düşünüb tapırsa, buna *düşüncə, yaradıcı sual* deyilir.Şagird deyə bilər ki, A.S.Puşkin «Payız» şerini öz sıxıntılı əhvali-ruhiyyəsinə uyğun yazmışdır. Deməli, bir mətni yenidən canlandırmaq *ifadə* adlanan rabitəli nitqdirsə, mətni suallar əsasında yeni münasibətlə ifadə etmək *inşa*dan ibarət rabitəli nitq inkişafıdır.

Rabitəli nitqin nəzəriyyəsini bilmədən onun təcrübəsini və ya tədrisini elmi əsaslar üzərində qurmaq olmaz.

*Məntiqi nəticə:* Şagirdlərə (və ya tələbələrə) çatdırmaq lazımdır ki, şair və yazıçıların əsərləri onların inşaları, həmin əsərləri öyrənib–danışmağımız isə bizim ifadə materiallarımız sayılır. Həmin əsərlərə münasibət bildirməklə təhlil etməyimiz bizim *mühakimə xarakterli inşa*larımızdır.

Pedaqoji təhsildə bu sahə ciddi diqqət tələb edir. Tələbələr bunların həm nəzəri, həm də praktik cəhətlərini bilməli, didaktik əsaslarını həyata keçirməlidirlər. Onlara aydın istiqamətlər vermək üçün tematik planlaşdırma hazırlamışıq. Həmkarlarımızdan xahiş edirik ki, bu təxmini, planlaşdırmaya və söylədiyimiz fikirlərə öz münasibətlərini bildirsinlər.

**1. Nitq inkişafı metodikası**

***Giriş:*** Kurikulumun metodologiyası. Yeni didaktika. Təlimin quruluşu, məzmun xətləri. Yeni təlim metodları. Fənnin məqsəd və vəzifələri.

**1-ci mövzu:** Təlimin aspektləri. Nitq inkişafı və təfəkkürün inkişafı – 2 saat;

**2-ci mövzu:** Nitq inkişafının başlıca əlamətləri. Mətnlərin oxusu – 2 saat;

**3-cü mövzu:** Dərsliklərdə verilmiş rabitəli mətnlər. Bölmələr üzrə hər bir mətnin xarakterik xüsusiyyətləri – 2 saat;

**4-cü mövzu:** İfadə və inşa bacarıqları standartlarda. İfadənin metodikası – 2 saat;

**5-ci mövzu:** İnşanın metodikası. Debatlar – 2 saat;

**6-cı mövzu:**Təsviri, nəqli, mühakimə xarakterli mətnlər.İfadənin inşaya çevrilməsi– 2 saat;

**7-ci mövzu:** Bədii mətnlər. Ədəbi tələffüz, onların yaradılması xüsusiyyətləri – 2 saat;

**8-ci mövzu:** Nəzmlə olan mətn materialının ədəbi tələffüzü və onların üzərində təhlil apararkən nitq və təfəkkürün inkişafı – 2 saat;

**9-cu mövzu:**Nəzmin nəsrə çevrilməsi zamanı təfəkkür və nitqin inkişaf etdirilməsi– 2 saat;

**10-cu mövzu:** Motivasiya baxımından mövzuda MMV-lərin təhlili – 2 saat;

**11-ci mövzu:** İfadə və inşalar (debatlar) üzrə mövzu seçimi, onların təşkili metodikası – 2 saat;

**12-ci mövzu:** İfadə, inşa və esselərə dair dərsliklərdə verilən əsas və əlavə mətnlər – 2 saat;

**13-cü mövzu:** Nəzm və nəsrlə verilən mətnlərin oxunması, onların təqdimatları və qiymətləndirilməsi – 2 saat;

**14-cü mövzu:** İnşaların təqdimatları və qiymətləndirilməsi – 2 saat;

**15-ci mövzu:** Ədəbi dilin normaları üzrə debatlar, təqdimatlar və qiymətləndirmələr – 2 saat.

**2. Rabitəli nitqin inkişafı**

**1-ci mövzu:** *Rabitəli nitq* anlayışı. İnşa, esse, ifadə və hekayə – 2 saat;

**2-ci mövzu:** Dərsliklərdə verilmiş ifadə mətnlərinin oxunması və təhlili – 2 saat;

**3-cü mövzu:**Müəllim üçün metodik vəsait mətn materialları baxımından təhlili – 2 saat;

**4-cü mövzu:**İfadə və inşaların tədrisi metodikası – 2 saat;

**5-ci mövzu:** Rabitəli mətnlərin bölmələrə görə təhlili – 2 saat;
**6-cı mövzu:** Nəzm və nəsrlə nəqli xarakterli ifadələr – 2 saat;
**7-ci mövzu:** Nəqli xarakterli inşalar – 2 saat;
**8-ci mövzu:** Nəzm və nəsrlə yazılmış təsviri xarakterli ifadə mətnləri – 2 saat;
**9-cu mövzu:** Nəzm və nəsrlə yazılmış mühakimə xarakterli ifadələr – 2 saat;
**10-cu mövzu:** Mühakimə xarakterli inşalar – 2 saat;
**11-ci mövzu:** Nəzm və nəsr parçalarının ədəbi oxusu (Dərsliklərə dair müəllim üçün metodik vəsaitdə ) – 2 saat;
**12-ci mövzu:** İctimai-siyasi xarakterli mətnlər– 2 saat;
**13-cü mövzu:** Dərsliklərdəki ifadəli xarakterli mətnlərin məzmun və forma cəhətdən təhlili– 2 saat;
**14-cü mövzu:** İfadələrin inşaya çevrilməsi– 2 saat;
**15-ci mövzu:** Ədəbi tələffüzlə oxuya, nitqə dair təqdimat və qiymətləndirmələr – 2 saat;

Aşağıdakı suallar hər iki fənnə aid ola bilər.

**Nitq inkişafı və rabitəli nitq inkişafı metodikası üzrə**
**SUALLAR:**

- nitq və təfəkkür;
- nitq inkişafı;
- təfəkkürün inkişafı;
- nitq və təfəkkürün dialektikası;
- mətn anlayışı;
- rabitəsiz mətnlər;
- rabitəli mətnlər;
- ifadə və onun növləri;
- ifadə təlimi;
- inşa və onun növləri;
- bədii ifadələr;
- publisistik ifadələr;
- bədii mətnlər;
- nəzmlə olan mətnlər;
- nəzmlə olan ictimai-siyasi xarakterli mətnlər;
- hekayə mətnləri;
- mətnlərin təhlili;
- bədii mətnin təhlili;
- mətnin xarakterinə görə təhlili;
- mətnin fonetik təhlili;
- mətnin leksik təhlili;
- mətn–assonans;
- mətn– alliterasiya;
- mətnin strukturu;
- uşaq şeirləri mətnlərinin təhlili;
- uşaq hekayə mətnlərinin təhlili;
- Abbas Səhhətin “Vətənimdir” mətninin oxunması;
- Abbas Səhhətin “Qaranquş balaları” mətninin oxunması;
- Abbas Səhhətin “Ayı və şir” şerinin oxunması;
- M.Ə.Sabirin “Cütçü” şerinin oxunması;
- M.Ə.Sabirin “Qarğa və tülkü” şerinin təhlili;
- M.Ə.Sabirin “Uşaq və buz” şerinin təhlili;
- S.Vurğunun “Azərbaycan” şerinin nümunəvi oxunması;
- S.Vurğunun “Şair, nə tez qocaldın sən?” şerinin təhlili;

- N.Gəncəvinin “Bərdənin tərifi” parçasının (“İsgəndərnamə”) təhlili;
- N.Gəncəvinin “Kərpickəsən qoca” şerinin oxunması;
- M.Füzulinin söz haqqında fikirlərinin təhlili;
- N.Gəncəvinin söz, poeziya, təfəkkür haqqında fikirlərinin təhlili;
- N.Gəncəvinin hikmətli fikirlərinin təhlili;
- H.Cavidin deyimlərinin təhlili;
- Ə.Cəmilin «Kənddə bahar axşamı” şerinin oxusu və məzmununun təhlili;
- Ə.Cəmilin “Can nənə, bir nağıl de!” şerinin oxusu və məzmununun təhlili;
- S.Vurğunun “Dağlar” şerinin ifadəli oxunması;
- S.Vurğunun “Mən tələsmirəm!” şerinin ifadəli oxunması;
- M.Füzulinin “Söz” qəzəlinin ifadəli oxunması;
- Zeynal Cabbarzadənin “Bakı” şerinin ifadəli oxusu və ya deklamasiyasının deyilməsi;
- Qabilin “Azərbaycan əsgəri” şerinin deklamasiya kimi deyilməsi;
- mətn üzərində oxu bacarıqlarının nümayiş etdirilməsi;
- monoloji mətnin oxunması;
- mühakimə xarakterli mətnin oxunması;
- dialoji mətnin oxunması;
- sual intonasiyalı mətnlərin oxunması;
- əmr intonasiyalı mətnlərin oxunması;
- təsviri xarakterli mətnlərin oxunması;
- İfadəni necə inşaya çevirmək olar?
- İnşadan ifadə kimi necə istifadə etmək olar?
- Mətnin lüğət üzrə təhlili nədir?
- Mətnlər neçə cür təhlil oluna bilər?
- Sözlə və heca ilə oxu.
- Ədəbi tələffüzü nəzərə alaraq oxumaq nə deməkdir?
- Mətnin ədəbi oxusu nədir?
- Rabitəli mətnin sintaktik təhlili nə deməkdir?
- Poetik təfəkkür nədir?
- Poetik mətn necə mətnlərə deyilir?
- ədəbiyyatımızda mövcud olan əsl poeziya nümunələri;
- dərsliklərdəki nümunəvi mətnlər haqqında;
- mətn üzrə verilən standartlar haqqında;
- mətn və məzmun standartları;
- mətnin dinlənilməsinə verilən tələblər;
- rabitəli nitqin süjeti haqqında;
- “Uşaq və buz” şerinin ifadəli oxusu;
- Qabilin “Səhv düşəndə yerimiz” şerinin ifadəli oxusu;
- sual-cavab mətnlərinin oxusu və tələffüzü;
- Xəlil Rza Ulutürkün “O sahildə, bu sahildə” şerinin ədəbi tələffüzlə oxusu;
- “İsgəndərnamə”dən “Bərdənin tərifi” parçasında məzmunun təhlili;
- M.Arazın “Səninləyəm” şerinin nümunəvi oxusu;
- mətnin oxusuna verilən tələblər;
- Rəy– inşalar necə tərtib olunur və necə oxunur?
- müasir Azərbaycan dili dərsliklərində ifadə və inşa yazı imkanları;
- Azərbaycan dili dərslikləri haqqında rəy söyləmək, yazmaq;
- Mətn üzərində inkişafetdirici iş nə deməkdir?
- dərsliklərdə vətənpərvərlik və qəhrəmanlıq motivli mətnlərin verilməsi;
- mətn üzrə motivasiya
- İfadə və inşalara hazırlıq işləri necə aparılır?

- “Mövzu ilə əlaqədar material toplamaq və sistemə salmaq” nə deməkdir?
- İfadə, inşa və esselər necə qiymətləndirilir?
- Hansı mətnləri əzbər bilməyə ehtiyac var?
- Nitqi inkişaf etmiş adamlar kimlərdir?
- Nitqi inkişaf etdirmək üçün nələri bilmək lazımdır?
- Ədəbi tələffüz problemləri hansılardır?

Beləliklə, nitq inkişafının metodikası, məzmunu və planlaşdırılması məsələlərindən danışarkən məqalədə göstərilən nüansları nəzərə almaq məqsədəuyğundur.

**Ədəbiyyat**

1. Azərbaycan dilində ifadə və inşa yazılar təlimin keyfiyyətini yüksəltməyin vasitəsi kimi. Bakı, 2004.
2. Sədi Şirazi. Bustan. ADA, 1964.

**МЕТОДИКА РАЗВИТИЯ РЕЧИ**

**резюме**

В статье речь идет о методике развития речи. Отмечается, то развитие речи – есть особый аспект обучения родному языку. Считается как самостоятельным аспектом, но является не автономным. Развитие речи как процесс, в без развития мышлений не существует, так как они органически связаны между собой. Так же объясняется вопрос усовершенствования методики преподавания изложения и сочетания, так как этот выборочный предмет, имеет огромное значение для будущего учителей-студентов начального образования. Приводится примерный тематико-урочный план.

**SPEECH DEVELOPMENT TECHNIQUE**

**summary**

The article deals with the development of speech. It is noted that the development of speech is a special aspect of teaching the native language. It is considered as an independent aspect, but is not autonomous. The development of speech as a process, in the development of no thinking does not exist, as they are organically linked. It also explains the issue of improving the methodology of teaching presentation and combination, since this selective subject is of great importance for the future of primary school teachers. An approximate subject-sensitive plan is given.

# ***DAHİLƏR NİTQ MƏDƏNİYYƏTİ HAQQINDA***

- Ağıl əmr edəni dil bəyan edər. ***(Xaqani)***
- Ağıllı danışmaq çətindir, ağılla susmaq isə ondan da çətindir. ***(Kristian Bouvi)***

- Arif ol, söhbəti müxtəsər eylə,
  Uzun danışandan qaç, həzər eylə.
  Yüz əyri ox atsan, olmaz dəyəri,
  Bir ox at, hədəfdən getməsin əyri. (***Sədi Şirazi)***

- Az bilib çox danışan bədxərclik edən yoxsula oxşar. ***(N.Bonapart)***
- Başqalarının sözlərini təkrar etmək hələ onların mənasını bilmək deyil. ***(C.Rumi)***
- Başqasını anlamaq istəyirsənsə, onun nə dediyini yox, nə demədiyini eşit. ***(Ç.X.Çübran)***
- Bəzən sükut güclü haraydan daha təsirlidir. ***(Siseron)***
- Böyük fəlsəfələr ancaq böyük dillərin çanağında yoğrulub yapıla bilər. ***(Əbu Turxan)***
- Cəbhədə qılınca, məclisdə gözəl nitqə malik olanlar qəhrəmandır. ***(M.S.Ordubadi)***
- Çox danışana ancaq lal həsəd apara bilər. ***(Ç.X.Çübran)***
- Biz danışırıq, eyni zamanda dinləyirik. Biz dinləyirik, lakin bu, susmaq üçün deyil. ***(Mahatma Qandi)***

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN İNTELLEKTUAL İNKİŞAFI ÜÇÜN OYUNLAR

**Səlahət Musayeva,**
ARTİ-nin pedaqogika üzrə fəlsəfə doktoru
kursu üzrə dissertantı
Salaxat1955-@gmail.ru

***"Oyun əxlaq məktəbidir, amma sözdə deyil, əməldə əxlaq"***

***D.B.Elkonin***

**Açar sözlər:** **i**ntellektual inkişaf, əqli qabiliyyətlər, modelləşdirmə, sensor etalon, inkişafetdirici mühit, suallar, bilik və bacarıqlar, vərdişlər, dərketmə;

**Ключевые слова:** интеллектуальное развитие, умственные способности, сенсорный эталон, развивающоя среда, вопросы, знания, умения, навыки, осознание;

**Key words:** intellectual development, cognitive skills, knowledge, skills, and abilities, sensors, questions, standard atmosphere, observation, interview, knowledge, skills, understanding,abilities, intellectual, development processes, questions, the survey.



Təlim prosesinin oyun, əmək və məşğələ növlərində məktəbəqədər yaşlı uşaqlar intellektual inkişafa yiyələnirlər.Oyun uşaq həyatının əsas hissəsini təşkil edir. Oyun zamanı uşaqlar çox şən olur, düşünür, çox şey qavrayırlar. Oyun prosesində uşaqların maraq dairəsi genişlənir. Onlar yeni bir şey öyrənərkən çox sevinir, diqqətli olmağa çalışırlar. Oyun uşaqların sensor etalonları mənimsəmələrinə, modelləşdirmə qabiliyyətinin inkişafına şərait yaradır. İntellektual oyunlar inkişafetdirici mühitə istinad edir. Bu oyunlar aşağıdakı kimi təsnif olunur:

**Riyazi əyləncələr:**
- müstəvi üzərində oyunlar;
- başgicəlləndirən oyunlar;
- oyun-zarafatlar.

**Didaktik oyunlar:**
- sensor oyunlar;
- modelləşdirmə xarakterli oyunlar;
- uşaqlara nəyi isə öyrətmək üçün tərbiyəçi tərəfindən xüsusi hazırlanmış oyunlar.

**İnkişafetdirici oyunlar.** Bu oyunlar əqli qabiliyyətlərin və intellektual bacarıqların inkişafını həllini təmin edir, modelləşdirməyə, problemin həlli yollarının axtarılması prosesinə əsaslanır. Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafı müəllim və valideynlərin birgə səyi ilə həyata keçirilir. Onun mahiyyəti uşaqların dərin intellektual həyəcanlarının sevinclərinin hər birinin təkrarolunmaz şəxsiyyətinin tanınması ilə bağlıdır. Uşaq öyrənilmək üçün obyekt deyil, inkişaf edən, dərk edən şəxsiyyətdir. Onlar axtarışa meyilli olur, daxili intuitiv müdrikliyi, gizli şeylərə marağı, tədqiqatçılığı ilə seçilirlər.

**2–3 yaşlı uşaqlar üçün intellektual oyunlar ."Rəngləri fərqləndir".**

**Məqsəd:** Əsas rənglər haqqında anlayışları möhkəmləndirmək, uşaqları sarı, qırmızı rəngləri ilə tanış etmək, *sarı* və *qırmızı* sözlərini lüğətə daxil etmək, sensor bacarıqların və lüğət ehtiyatının inkişafına nail olmaq.

Tərbiyəçi eyni səbətə iki rəngdə – sarı və qırmızı plastmas şarlar qoyur. 2–3 metr kənarda isə şarların rənginə uyğun – sarı və qırmızı rəngdə səbətlər qoyur.Tərbiyəçi iki uşağı yanına çağırıb, onların birinə sarı şarları sarı səbətə, digərinə isə qırmızı şarları qırmızı səbətə yığmağı tapşırır. Tapşırığı düzgün və tez icra edən uşaq qalib hesab olunur, alqışlanır.

**"Bu rəngdə olan çalaya qoy"oyunu.**

**Məqsəd:** eyniləşdirmə və müqayisə etmə yolu ilə rəng anlayışını möhkəmləndirmək.

Bu oyun tərbiyəçi (və ya loqoped) tərəfindən xüsusi hazırlanmışdır. Tərbiyəçi yumurta üçün istifadə olunan karton qablaşdırmanın yuvalarını qırmızı, göy və sarı rənglərdə rəngləyir, üzərinə lak çəkir. O, şampan şüşəsinin qapaqlarını da qırmızı, göy və sarı rənglərdə rəngləyib üzərinə lak çəkir. Daha da maraqlı olması üçün şampan qapaqlarını göbələk formasında bəzəyir. O, uşaqlara müxtəlif rəngli göbələkləri öz rənglərinə uyğun yuvalara qoymağı təklif edir. Uşaqlar qırmızı göbələyi qırmızı, sarı göbələyi sarı, göy göbələyi isə göy yuvaya qoymaqla tapşırığı icra edirlər. Hər uşaq 3–4 göbələyi yuvaya qoyur. Tapşırığı düzgün və tez icra edən uşaq alqışlanır.

**3 – 4 yaşlı uşaqlar üçün intellektual oyunlar. "Balasını tap"oyunu.**

**Məqsəd: "**Böyük" və "kiçik" anlayışlarının möhkəmləndirilməsi.

Tərbiyəçi uşaqların stolu üzərinə 5–6 sayda heyvan və onların balalarının şəkillərini qoyur, onlara təklif edir ki, hər heyvanın balasının şəklini öz anasının şəkli üzərinə qoysunlar. Kim tapşırığı düzgün və tez icra etsə, oyunun qalibi hesab olunur. Oyun bir neçə dəfə təkrarlanır. Bu oyunu oyuncaq heyvanlarla da aparmaq mümkündür.

**"Ölçüsünə görə tap" oyunu.**

**Məqsəd:** Əşyaları ölçüsünə görə müqayisə etməyi öyrətmək.

Tərbiyəçi hər cütlüyün stolunun üzərinə biri böyük, digəri kiçik olmaqla iki plastmas boşqab qoyur. Qutularda isə böyük və kiçik dairələr qoyulur. Uşaqlara böyük dairələri böyük boşqaba, kiçik dairələri isə kiçik boşqaba yığmaq tapşırılır. Kim tapşırığı düzgün və tez icra etsə, oyunun qalibi hesab olunur.Oyun bir neçə dəfə təkrarlanır.

**4– 5 yaşlı uşaqlar üçün intellektual oyunlar.**

**1."Çobanyastığı". Məqsəd:** 4–5 yaşlı uşaqlara əşyaları və s. müqayisə etməyi öyrətməklə, onların lüğətini zənginləşdirmək, nitqini, diqqətini, təsəvvürünü inkişaf etdirmək.

Bu oyun tərbiyəçi (və ya loqoped) tərəfindən xüsusi hazırlanmışdır. Tərbiyəçi– müəllim (və yaxud loqoped) dörd dairə kəsir. İki dairəni sarı rəngdə rəngləyir. Sarı rəngli dairələri kəsdiyi ağ dairələrin üzərinə qoyaraq, şaquli xətlərlə elə tikir ki, onun üzərində 6 və ya 8 ləçək taxmaq üçün cibciklər əmələ gəlsin. Sonra cibciklərin sayı qədər hər iki dairəyə uyğun iri ölçülü ləçəklər kəsir. Kəsilmiş ləçəklərin üzərinə məşğələnin mövzusuna uyğun şəkillər yapışdırır.

Yazı taxtasınını qarşısına 2 uşaq cağırılır, onlardan birinə ev heyvanlarının, digərinə isə vəhşi heyvanların şəkilləri olan ləçəkləri seçib, dairənin ətrafındakı cibciklərə taxmaq tapşırılır. Tapşırığı cəld və düzgün icra edən uşaq oyunun qalibi kimi alqışlanır.

**5–6 yaşlı uşaqlar üçün intellektual oyunlar.**

**1. "Tap görüm kimdir?" Məqsəd:** Duyğu üzvlərini və diqqəti inkişaf etdirmək.

Tərbiyəçi-müəllim uşaqlardan birinin gözünü bağlayır. 5–6 uşaq isə gözü bağlanan uşağın yanına gələrək, dairə şəklində dayanır. Gözü bağlı olan uşaq əlləri ilə uşaqların saçına, başına, üzünə, bədəninə toxunaraq, hər birinin kimliyini müəyyən etməlidir. Əgər dairədəki bütün uşaqları düzgün müəyyən etsə, o, oyunun qalibi olur və hamı əl çalaraq onu alqışlayır. Əgər düz tapmasa, tərbiyəçi "yandın" deyərək, onun gözlərini açır və hansı uşağı düz müəyyən etməyibsə, həmin uşağın gözünü bağlayaraq, oyunu davam etdirir. Oyun bir neçə dəfə təkrar olunur.

**2.**"**Öz ananı müəyyən et." Məqsəd:** Duyğu üzvlərini inkişaf etdirmək.

Bu oyun 8 Mart – Beynəlxalq Qadınlar günü ərəfəsində tez-tez təkrarlanır.Tərbiyəçi üç qadına stulda oturmağı təklif edir. Bir uşağın isə gözü bağlanır. Tərbiyəçi gözü bağlanan uşağın qolundan tutub, qadınların yanına gətirir və onlardan hansının öz anası olduğunu tapmağı təklif

edir. Uşaq əlləri ilə toxunaraq hansı qadının öz anası olduğunu tapır. Oyunda məqsəd toxunmaqla müəyyən etmədir.

**Savad təlimi üçün intellektual oyunlar . "Kim daha diqqətlidir?"**

**Məqsəd:** 5–6 yaşlı uşaqlara səsləri müqayisə etməyi öyrətmək, lüğəti zənginləşdirmək, diqqəti, qavrayışı və təfəkkürün inkişafını yerinə yetirmək.

Bu oyun tərbiyəçi tərəfindən xüsusi hazırlanmışdır.Tərbiyəçi-müəllim dörd dairə kəsir. İki dairəni mavi rəngdə rəngləyir. Mavi rəngli dairələri kəsdiyi digər ağ dairələrin üzərinə qoyaraq, şaquli xətlərlə elə tikir ki, onun üzərində 6 və ya 8 ləçək taxmaq üçün cibciklər əmələ gəlir. Sonra hər iki dairəyə uyğun, cibciklərin sayı qədər böyük ölçülü ləçəklər kəsir. Kəsilmiş ləçəklərin üzərinə məşğələnin mövzusuna uyğun şəkillər yapışdırır. Mövzu "S" və "Ş"səslərinin müqayisə olunması ilə bağlıdırsa, bu zaman ləçəklərin üzərinə adının birinci səsi "S" və "Ş" olan əşyaların şəkilləri yapışdırılır. Dairənin ortasına isə həmin şəkillərin adının birinci hərfi yazılır.Tərbiyəçi-müəllim (və ya loqoped) bu vəsaitdən istifadə etməklə "Kim daha diqqətlidir?" oyununu təşkil edərsə, həmin oyundan mövzunun məqsədinin möhkəmləndirilməsindən məşğələnin bir hissəsi kimi istifadə edə bilər.

Qeyd: Tərbiyəçi tərəfindən hazırlanmış "Çobanyastığı" əyani vəsaitindən istifadə yolu ilə "Kim daha diqqətlidir"oyununu təşkil etməklə 5-6 yaşlı uşaqlara nəqliyyat növlərini, canlı, cansız təbiəti və s. müqayisəni öyrətmək, lüğəti zənginləşdirmək, diqqətin inkişafı imkanları yaranmış olar.

**Ətraf mühitlə tanışlıq üçün intellektual oyunlar. "Bu hansı ağacın yarpağı, hansı ağacın meyvəsidir?"**

**Məqsəd:**Meyvə ağaclarını tanımaq, adlarını möhkəmləndirmək, lüğəti zənginləşdirmək. Müşahidə, müqayisə bacarıqlarını inkişaf etdirmək.

Oyun 5–6 yaşlı uşaqlarla, bütün qrupla birlikdə, sual-cavab şəklində aparılır.Tərbiyəçi flaneloqrafa alma, armud, nar, heyva, əncir və üzüm ağaclarının şəkillərini qoyur. Ağac şəkillərinin arxasına özü yapışan material yapışdırır. Uşaqlara isə ağacların yarpaqlarına və meyvələrinə aid şəkillər verir. Həmin şəkillərin də arxasına özüyapışan material tikir. Tərbiyəçi göstərici cubuğu ağaclardan birinin üzərinə qoyaraq, uşaqlardan soruşur: "Kimdə bu ağacın yarpağı var?". Düz cavab verən uşaq yarpağı aparıb, həmin ağacın şəklinin üzərinə yapışdırır. "Bəs kimdə bu ağacın meyvəsi var?" Beləliklə, oyunda bütün uşaqlar iştirak edirlər. Onlar meyvəni və yarpağı yapışdırarkən tərbiyəçi həmin ağacın adını da soruşur, bilməyən uşağa özü kömək edir. Sonda tərbiyəçi şəkli göstərib deyir: "Baxın, nə gözəl meyvə bağımız oldu?!"

**Sadə riyazi təsəvvürlərin inkişaf etdirən intellektual oyunlar. "Bataqlıq" oyunu.**

**Məqsəd:**Uşaqlara 10 dairəsində düzünə və tərsinə saymağı öyrətmək, diqqəti və təfəkkürü inkişaf etdirmək, hərbi vətənpərvərlik hissini tərbiyə etmək.

Tərbiyəçi kartondan uşaqların iki ayağı yerləşən ölçüdə 20 ədəd hissə kəsir. Onları yaşıl rənglə rəngləyir və üzərinə 1-dən 10-dək olan rəqəmləri yazır. Məcazi mənada "bataqlıq" hesab olunan yerə rəqəmləri dağınıq şəkildə elə düzür ki, uşaqlar düşünərək rəqəmlərin ardıcıllığını tapa və ayaqlarını lazım olan rəqəmin üzərinə qoya bilsinlər. Oyun iki uşaqla aparılır. Uşaqların hər ikisi üçün 10 ədəd karton rənglənir və üzərinə 1-dən 10-dək ədədlər yazılır. Tərbiyəçi iki uşağı yanına çağırır və oyunun şərtini izah edir: "Qarşıda gördüyünüz bataqlıqdır. Yalnız rəqəmlər yazılmış hissə torpaqdır. Bataqlığın o biri tərəfində bizim hərbi hissəmiz var. Onlara təcili gizli məlumatı çatdırmaq lazımdır. Bu məlumatı tez çatdırsanız, əsgərlərimiz düşmənə qələbə çala bilərlər.

Ayağınızı rəqəmlər yazılan kartonun üzərinə elə qoymalısınız ki, rəqəmlərin sırası pozulmasın. Əks halda bataqlıqda boğular və məktubu çatdıra bilməzsiniz. Əgər rəqəmləri ardıcıl sayaraq, ayağınızı kartonun üzərinə qoysanız, bataqlığı ehtiyatla keçə və məktubu hərbi hissənin komandirinə verə bilərsiniz.

Oyun əvvəlcə düzünə, uşaqlar geri qayıdarkən isə geriyə saymaqla təkrarlanır.

**Tanqram oyunlar.** Bu zəka oyunundan məşğələnin bir hissəsində, yaxud uşaqların asudə vaxtlarının təşkili zamanı istifadə etmək məsləhət görülür. Tərbiyəçi uşaqları qruplara ayırıb, onlara ad verir. Müxtəlif formalı həndəsi fiqurlardan (üçbucaq, dairə, dördbucaq, oval, romb, düzbucaq və s.) insan, heyvan, ev, raket, təyyarə, balıq, ağac, rəqəm, hərf və s. kombinasiyalar qurmağı təklif edir. Uşaqlar verilən tapşırığı tez bir zamanda yerinə yetirməlidirlər. İşi daha tez və yaxşı kombinasiyalar quran yarımqrup qalib hesab olunur. Belə oyunlar uşaqların görmə, idarəetmə məntiqini, təfəkkürünü, təxəyyülünü, diqqətini, rəng, forma, ölçü anlayışlarını inkişaf etdirir.

**Müstəvi üzərində ştrixlə oyun.**

**Məqsəd:** Ştrixlə şəkil çəkməyi öyrətmək, əllərin kiçik motorikasını inkişaf etdirmək.

Tərbiyəçi uşaqlara sadə qələm və dama-dama dəftər vərəqi verərək deyir: "Qələmin ucunu vərəqin ortasındakı nöqtənin üzərinə qoyun. İndi 2 dama yuxarı xətt çəkin, sonra əlinizi götürmədən 2 dama sağa çəkin. İndi 1 dama yuxarı,1 dama sağa çəkin. 3 dama aşağı, 3 dama isə sağa çəkin, 1 dama yuxarı,1 dama sağa, 5 dama aşağı, 2 dama sola, 2 dama yuxarı,1 dama sola, 2 dama aşağı, 2 dama sola, 4 dama yuxarı, 2 dama sola tərəf xətt çəkin."

Tərbiyəçi deyir: "Uşaqlar, siz tapşırığı mənim dediyim kimi, düzgün icra etsəniz, sonda bir heyvan çəkli alınacaq. Kim bu heyvanın adını birinci söyləsə, oyunun qalibi olacaq".

Tərbiyəçi-müəllimlər məktəbəqədər yaşlı uşaqları intellektual cəhətdən inkişaf etdirmək məqsədilə bu oyunlardan məşğələnin bir hissəsi kimi, digər oyunlardan isə məşğələdə uşaqların diqqətinin dağılmaması üçün, onların yorğunluğunu aradan götürmək məqsədilə mümarisə kimi də istifadə edə bilərlər.

Oyun intellektual inkişafın vasitələrindən biri olmaqla, uşağın inkişafında xüsusi əhəmiyyətə malikdir. Məktəbəqədər yaşlı uşaqların idraki inkişafı və intellektual tərbiyəsi oyun fəaliyyətində daha da fəallaşır. Uşaqlar obyektiv aləmin həqiqətlərini öz oyunlarında əks etdirir, bu yolla biliklər qazanırlar. Bu, onların təfəkkür əməliyyatlarını sürətləndirir, əqli bacarıqlarını inkişaf etdirir.

Həm riyazi, didaktik, inkişafetdirici, həm də tanqram oyunlar zamanı uşaqlarda bədii düşüncə, təxəyyül və təsəvvür inkişaf edir. Təbii təhsil forması olan oyunda uşaq həyat təcrübəsi qazanır. Bu tip oyunlar uşağın maraq və ehtiyaclarını ödəyən bir vasitədir. Uşağın ehtiyaclarını nəzərə almaqla təşkil olunmuş oyunlar həm təlim, həm də tərbiyə fəaliyyətini əhatə edir. Uşaqlar oyun prosesində həm əylənir, həm də yoldaşları ilə ünsiyyətə girirlər. Bu, onların arasında qarşılıqlı əməkdaşlığın, xoş münasibətlərin yaranmasına səbəb olur. Uşaqlar real həyatda gördüklərini oyunlarda tətbiq edirlər. Oyun prosesində ünsiyyətə girmə bacarığı formalaşırsa, uşaq ətrafdakılardan daha çox məlumat toplaya bilir. Bu isə onun intellektual səviyyəsinin inkişafına imkan yaradır. Yaddaş, nitq, təfəkkür, qavrama bacarıqları oyun zamanı kifayət qədər formalaşır. Uşaq oyunda şəxsiyyət kimi inkişaf edir, onun daxili aləmi zənginləşir. Təfəkkürün inkişaf səviyyəsi uşağın intellektual səviyyəsini və onun fəaliyyətinin xarakterini müəyyən edir. Xüsusilə didaktik oyunlar uşaqlar üçün çox maraqlı təlim formasıdır.

Belə oyunlar uşaqların müqayisə, qruplaşdırma və fərqləndirmə bacarıqlarını inkişaf etdirir. Onların diqqəti, hissləri, təsəvvürləri, dərketmə qabiliyyətləri fəallaşır.

**Ədəbiyyat**


1.Məktəbəhazırlıq qruplarında işin təşkili metodikası (Məktəbəqədər Təhsil Kurikulumun təkmilləşdirilmiş layihəsi əsasında hazırlanmışdır), UNİCEF, Bakı, 2017.

2.Məktəbəqədər pedaqogika fənni üzrə Proqram. (Proqram Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş "Məktəbəqədər pedaqogika" dərs vəsaitinə uyğun hazırlanmışdır). (Azərbaycan Respublikası Təhsil Nazirliyi 11.07.2011-ci il tarixli 1395 nömrəli əmri) Bakı – 2013.


**ИНТЕЛЛЕКТУАЛЬНЫЕ ИГРЫ ДЛЯ РАЗВИТИЯ ДОШКОЛЬНИКОВ**

**резюме**


В статье рассказывается об интеллектуальных играх для развития дошкольников. Приводится примеры таких игр, как математические развлечения, дидактические и развивающие игры. Эти игры предназначаются как 3-4, так и 5-6 летних дошколят. Приводится в пример такие игры как «Игры-танграм», «Болота»,

«Ромашка», «Найди детеныша!», «Узнай свою маму!» и т.д. Отмечается, что такие игры развивают у детей способности сравнения, группировки, идентификации, активизируют внимания, воображения, осознания и т. д. Автор так же приводит в примеры игры, который создал сам.

**INTELLECTUAL GAMES FOR THE DEVELOPMENT OF PRESCHOOL CHILDREN**

**summary**

The article tells about intellectual games for the development of preschoolers. Examples of games such as mathematical entertainment, didactic and educational games are given. These games are intended as 3-4, and 5-6 summer preschool children. Examples include games like “Tangram Games”, “Swamps”, “Chamomile”, “Find a Cub!”, “Get to Know Your Mother!”, Etc. It is noted that such games develop in children the ability to compare, group, identify, activate attention, imagination, awareness, etc. The author also cites examples that he created himself.

# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ UŞAQLARIN MƏKTƏBƏ HAZIRLANMALARININ MÜASİR ASPEKTLƏRİ

**Şəhla Kazımbəyli,**
ADPU-nun “Yaş və pedaqoji psixologiya” kafedrasının əməkdaşı
KAZIMBEYLI84@inbox.ru



**Açar sözlər:** məktəbəqədər yaşlı uşaqlar, məktəbəqədər dövr, pedaqoji proses, əqli və intellektual inkişaf, şəxsiyyət, prinsiplər, vasitələr, keyfiyyətin yüksəldilməsi;

**Ключевые слова:** дети дошкольного возраста, дошкольный период, педагогический процесс, развитие разума и интеллекта, личность, принципы, средства, повышение качества;

**Key words:** preschool children, preschool period, the pedagogical process, the development of reason and intelligence, personality, principles, means, quality improvement.

Şəxsiyyətin formalaşmasında məktəbəqədər uşaqlıq dövrünün rolu böyükdür. Bu dövrdə uşaqların yaş xüsusiyyətləri inkişafın sonrakı mərhələlərindən fərqlənir. Hər hansı xüsusi bilik və vərdişlərin əldə olunması, müxtəlif növ fəaliyyətlərin mənimsənilməsinin əsası məhz bu dövrdə qoyulur, uşağın ümumi inkişafını təmin edir.

Müasir dövrdə məktəbəqədər təhsilin keyfiyyətinin yüksəldilməsi və onun modernləşdirilməsi ilə bağlı müəyyən işlərin görüldüyü prosesdə uşağın məktəbə hazırlanması problemi mühüm əhəmiyyət kəsb edir.

Müasir cəmiyyətin inkişafı məktəbəqədər sahənin, xüsusilə, məktəbə hazırlıq təhsilinin qarşısına yeni tələblər qoyur. Bunu nəzərə alaraq, məktəbə ilk addımlarını atmağa hazırlaşan uşaqların səviyyəsini yüksəltmək, onların gələcək təlim fəaliyyətinə yiyələnmələrini hərtərəfli təmin etmək məktəbəqədər təhsil müəssisələrinin qarşısında duran ən vacib vəzifələrdəndir.

Hazırda bu sahə “Təhsil haqqında”Azərbaycan Respublikasının Qanunu və bir sıra normativ-hüquqi aktlarla tənzimlənir. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən 2010-cu il, yanvarın 8-də “Məktəbəhazırlığın təşkili qaydaları”nın təsdiqi haqqında qərar qəbul olunmuşdur.

Məktəbə hazırlığın vəzifələri uşaqlarda oxumaq həvəsinin, onların məktəbə müsbət münasibətinin inkişaf etdirilməsi və möhkəmləndirilməsi, uşaqların məktəbə müvəffəqiyyətlə adaptasiya olunmaları üçün onlarda şəxsi-sosial xüsusiyyətlərin formalaşdırılmasıdır.

Uşağın tərbiyəsi uzun sürən bir proses olub, onun doğulduğu gündən başlanır. Uşaq bağçasında kiçik qrupdan başlayaraq əqli, fiziki, estetik, mənəvi tərbiyə üzrə iş aparılır. Uşağın hərtərəfli inkişaf etmək imkanı artdığı dövrdən məktəb təliminə başlanır. Məktəbəqədər təlim dedikdə, ilkin bilik, bacarıq və vərdişlərin verilməsi prosesi başa düşülür. İlkin bilik, bacarıq və

vərdişlər məqsəd deyil, şəxsiyyətin mükəmməl inkişafında bir vasitə hesab olunur. Uşaq hələ məktəbə getməzdən əvvəl lazımi bilikləri əldə etmək və ya təlimlə bağlı çətinliklərlə qarşılaşır.

Professor Y.Ş.Kərimov uşaq bağçasında məktəbə hazırlıqla əlaqədar göstərir ki, məktəbə qəbul olunmaq uşağın həyatında, onun şəxsiyyətinin formalaşmasında dönüş nöqtəsi olduğundan, ilk növbədə, ümumi inkişafı təmin edilməli, həmçinin oxuyacaqları təlim fənlərini mənimsəməyə hazır olmaları üçün tədbirlər görülməlidir. O qeyd edir ki, uşaqları müşahidə aparmaq, gördüklərini müqayisə, təhlil etmək, ümumiləşdirmək və əqli nəticə çıxarmaq kimi fikri fəaliyyətə alışdırmaq, onlara mühüm əxlaqi-iradi keyfiyyətlər aşılamaq lazımdır (3).

Uşaqların məktəb təliminə hazırlıq prosesinə müxtəlif amillər təsir göstərir. Belə amillər içərisində coğrafi və ictimai mühit əsas rol oynayır. Bu amillərin qarşılıqlı əlaqəsi nəticəsində uşaqlar məktəbə hazırlaşırlar. Uşaqların təfəkkürünün inkişafı onları araşdırmağa, müqayisə etməyə, fikir söyləməyə, münasibət bildirməyə, nəticə etibarilə biliklər toplamağa alışdırır. Yeni pedaqoji təfəkkür baxımından təlimin səmərəli təşkili üçün aşağıdakılar nəzərə alınmalıdır:

1.Yeni pedaqoji təfəkkür fəaliyyəti uşağın bu günün,yaşadığı uşaqlıq, yeniyetməlik, gənclik illərinin maraqlı və məzmunlu qurulmasına çalışmalıdır.

2.Yeni pedaqoji təfəkkür əsas diqqəti uşaqların intellektual, yaradıcı inkişafına, məntiqi və mücərrəd təfəkkürün formalaşmasına, təhliletmə, əqli nəticə çıxarma, ümumiləşdirmək bacarığı kimi pedaqoji-psixoloji aspektlərə yönəldilməsini tələb edir. Bir sözlə, uşağın informasiya aləmində düzgün istiqamətləndirilməsi, onlardan səmərəli faydalanması və bu kimi məsələlərin həlli yolları müəyyənləşdirilir.

3.Yeni pedaqoji təfəkkür təlim-tərbiyə prosesinin *öyrənməyi öyrətmək* texnologiyası əsasında qurulmasını, uşağın təfəkkür imkanlarının maksimum dərəcədə nəzərə alınmasını, pedaqoji prosesin onun üçün tədqiqatçılıq, araşdırmalar sahəsinə, təcrübə meydanına çevrilməsini tələb edir.

Məktəbəqədər təhsil müəssisələrində uşaqların məktəbə hazırlanmalarında aşağıdakı məsələlərə diqqət yetirilməlidir:

- uşağın fiziki cəhətdən sağlamlığı;
- nitqinin qüsursuz olması;
- məktəbə psixoloji cəhətdən hazırlığı;
- ətraf aləm haqqında təsəvvürlərə malik olması;
- uşağın sərbəst, müstəqil fikir yürütməsi və s.

5–6 yaşlı uşaqların psixoloji xüsusiyyətlərinin və şəxsiyyətinin inkişafı onların məktəb təliminə hazırlanmalarına əlverişli zəmin yaradır. Uşaq orqanizmi, psixikası böyük uyğunlaşma resurslarına malikdir və məhz onlara arxalanaraq məktəbəqədər yaşlı uşaqların məktəb təliminə adekvat hazırlıq sistemini yaratmağın mümkünlüyünü nəzərə almaq lazımdır .

Ə.Ə.Qədirov uşağın məktəbə hazırlanmasında məktəbəqədər müəssisədə savada yiyələnmə, saymaq, hesablamaq, məsələ həll etmək və s. təlim məşğələlərinin yer tutmasını yüksək qiymətləndirərək yazır: "Uşağın məktəb təliminə psixoloji baxımdan hazırlanması heç də o demək deyildir ki, məktəbə daxil olan müddətədək uşaqda müəyyən psixoloji keyfiyyətlər təzahür edir, sözsüz ki, bu keyfiyyətlər məktəb təlimi zamanı ona məxsus həyat və fəaliyyət şəraitinin təsiri altında formalaşır. Yalnız bunların sayəsində uşaq məktəb həyatına, müntəzəm təlim prosesinə uyğunlaşa bilir" (4).

Uşağın məktəb təliminə hazırlanması problemləri içərisində ilkin yerlərdən birini onun orqanizminin sistemli təlimlə əlaqədar tələblərin yerinə yetirilməsinə funksional hazırlığı tutur. Əgər uşaq fiziki cəhətdən möhkəm, sağlam olsa, inkişafdan qalmayacaq, müvəffəqiyyətlə oxuyacaq, proqram materialını mənimsəyəcək, kifayət qədər əqli yük onun əsəblərinə və fiziki yorğunluğuna səbəb olmayacaqdır. Əgər uşaq tez-tez xəstələnirsə, eşitmə, görmə qabiliyyəti zəifdirsə, rabitəli nitqi inkişaf etməyibsə, onu təhsil almaq üçün tələsdirmək lazım deyil. Belə hallarda uşağın əlavə bir il də hazırlanması onun fiziki, əqli və psixi inkişafına çox şey verir.

Apardığımız müşahidələrdən məlum olur ki, beşyaşlılarla təlimdə müsbət motivlərin inkişafı altıyaşlılara nisbətən daha müvəffəqiyyətlə gedir. İş düzgün aparıldıqda, şəxsi keyfiyyətlərdən asılı olaraq, motivasiya dairəsi dəyişikliklərə məruz qalır. Tərbiyəçi təlim üçün motiv, tələbat və marağın əhəmiyyətini nəzərə alaraq uşağın daxili, psixoloji aləmini öyrənməli, valideynlərə məsləhət verməlidir.

Məktəbəqədər dövrdə aparılan psixoloji hazırlıq uşaqlara məktəbə gedərkən yeni şəraitə uyğunlaşma, təlimə başlamaq bacarığı aşılamalıdır. Uşaqda, hər şeydən əvvəl, məktəbli olmaq, oxumaq kimi ciddi fəaliyyəti yerinə yetirmək arzusu olmalıdır.

Akademik Ş.A.Amonaşvili yazır: "Biz tez-tez altıyaşlı uşaqlardan eşidirik: "Məktəbə getmək, oxumaq istəyirəm!" Eyni zamanda məktəbəqədər yaşlı uşaqların öz "uşaq" həyatını dəyişmək cəhdləri hələ tədris fəaliyyətinin motivi deyil. Onları təlimin özü deyil, nəticəsi cəlb edir, onlar oxumaq, yazmaq bacarıq və vərdişlərinə yiyələnmək üçün necə qüvvə sərf etməyin lazım gəldiyini təsəvvür etmədən oxumağı, yazmağı öyrənmək istəyirlər" (5).

Uşağın məktəb təliminə psixoloji hazırlığı məktəbəqədər uşaqlıq dövründə psixi inkişafın mühüm nəticələrindən biridir. Beləliklə, məktəbə həm intellektual, həm də emosional münasibət uşaq məktəbə gedənədək yaradılmalıdır.

Uşaq məktəbə hazırlaşarkən biliklərə yiyələnmə prosesində təlimlə bağlı çətinliklərlə qarşılaşır. İlk illər ərzində gəzməyi, danışmağı, başqaları ilə ünsiyyətə girməyi, fikirləşməyi, gücünə müvafiq problemi həll etməyi öyrənir. Əgər bu idrak prosesləri düzgün təşkil olunmazsa, məktəbdə daha ciddi çətinliklər qarşıya çıxacaq. Bu səbəbdən məktəblinin proqram materialını mənimsəməsi təlimin ilk vaxtlarındakı müvəffəqiyyətindən asılı olur. Uşaq məktəbə gedənədək tərbiyəçilərin, valideynlərin diqqəti onun təlimi və inkişafına yönəldilərsə, ibtidai siniflərdə müvəffəqiyyətlə təlim almaq şansı yüksələr. Əgər uşaqla onun həyatının ilk illərində məşğul olunsa, təlimdə baş verəcək çətinlikləri yüngülləşdirmək, əqli inkişafda geridəqalma hallarını aradan qaldırmaq olar.

Valideynlərin, tərbiyəçilərin ümumi səyləri uşaq haqqında məlumatın paylaşmasına, təcrübə mübadiləsi, ən əsası – uşağın düzgün böyüməsi və inkişafı üçün daha əlverişli şəraitin təmin edilməsi üzrə əməkdaşlıq münasibətlərinin qurulmasına yönəldilməlidir.

Valideynlər öz uşaqlarının təlim fəaliyyətinə kömək göstərmək, həmin fəaliyyətdə iştirak etmək üçün çox iş görə bilərlər. Valideynlər uşaqlarının zehni qabiliyyətləri və tərbiyəçilərin müşahidələri barədə məlumat əldə etdikdən sonra övladlarının təlim nailiyyətlərinə verilən qiymətləri asanlıqla izah edə biləcəklər, habelə onların inkişafını sürətləndirmək və asanlaşdırmaq məqsədilə tərbiyəçi ilə əməkdaşlıq edəcəklər. Təlim prosesində valideynlərin tərbiyəçilərlə birgə əməkdaşlığı onların pedaqoji-psixoloji hazırlığını xeyli artırır, sonrakı fəaliyyətlərində öz nöqsanlarını aradan qaldırmağa imkan verir. Yeni təlim metod və texnologiyaları, pedaqoji təfəkkür bunu tələb edir.

Təlim prosesində metodların yenilənməsi pedaqogikanın ən aktual problemlərindəndir. Təlim metodları tərbiyəçi ilə uşaqların birgə fəaliyyətini sıx əlaqələndirir. Bu əlaqənin yüksək pedaqoji dəyəri isə təlim metodlarının yeniləşdirilməsindən, təkmilləşdirilməsindən və səmərəli tətbiqindən çox asılıdır.

Təlim metodları təhsilin məzmunu ilə birlikdə uşaqların təlim, tərbiyə və inkişafının vəhdətini təmin etməli, onları dərin, əsaslı bilik, bacarıq və vərdişlər sistemi ilə silahlandırmağa, şəxsiyyətin formalaşmasına xidmət göstərməli, uşaqların elmi, əməli təfəkkürünü, biliklərə müstəqil yiyələnmək, təcrübədə, həyatda onlardan istifadə bacarığını inkişaf etdirməlidir. Təlim metodu tərbiyəçi və uşaqların elə qarşılıqlı fəaliyyət qaydaları sistemidir ki, müxtəlif vasitələrdən istifadə təlim prosesində didaktik vəzifələrin həllinə xidmət edir.

Təlim metodları müasir tələblərə uygun qurulmalıdır. Yeni təlim metod və texnologiyalarının tətbiqi elmi-nəzəri əsaslara (prinsiplərə, pedaqoji-psixoloji, sosioloji, didaktik və s. tələblərə) söykənərək həyata keçirildikdə, nəzəri mahiyyət kəsb edir.

Təlim, hər şeydən əvvəl, uşaqları elmlərin əsasları ilə dərindən silahlandırmağa, onların əqli, praktik fəaliyyətləri üçün bilik, bacarıq və vərdişlərə yiyələnmələrinə xidmət edir.

Təlimin keyfiyyətinin yüksəldilməsi məqsədilə tədris prosesində uşaqlara daha çox müstəqillik verilir, onların öz fikirlərini sərbəst, çəkinmədən söyləmələrinə, arzu və istəklərinə müvafiq məşğuliyyət seçmələrinə şərait yaradır. Uşaqların təlim fəaliyyəti nə qədər mürəkkəb, çoxcəhətli və çətindirsə, onun idarə olunması da bir o qədər də məsuliyyət tələb edən işdir. Ona görə də uşaqların təlim fəaliyyəti həmişə elmi-pedaqoji əsaslara söykənən planlı, sistemli, məqsədyönlü, çevik, optimal, demokratik rəhbərlik və nəzarət tələb edir. Əgər belə olarsa, onda uşaqlarla aparılan təlim-tərbiyə işlərinin səmərəliliyindən danışmağa dəyər. Onu da qeyd etmək lazımdır ki, uşağın təlim prosesində biliklərə müvəffəqiyyətlə yiyələnməsi məktəbəqədər dövrdə onun bu fəaliyyətə necə hazırlanmasından asılıdır.

Pedaqoji cəhətdən məqsədəuyğun qarşılıqlı münasibətləri yaratmağın texnologiyası pedaqoji ünsiyyətlə sıx surətdə bağlıdır. Belə münasibətlərin yaradılmasında tərbiyəçi şəxsiyyəti mühüm amildir. Tərbiyəçilərlə uşaqların qarşılıqlı anlaşmaları yaranan münasibətlərin əsasıdır. Qarşılıqlı əməkdaşlıq, münasibət çoxsahəli olub, onun tərbiyəçi-uşaq, tərbiyəçi-pedaqoji kollektiv, tərbiyəçi-valideyn və s. sahələri mövcuddur. Təlim-tərbiyə prosesinin keyfiyyəti, səmərəliliyi bu münasibətlərin demokratikləşmənin, humanistləşmənin tələb və prinsiplərinə uyğun qurulmasından asılıdır.

Uşaqlara yalnız ümumi təsəvvürlər deyil, həm də yaşa müvafiq biliklər vermək, bununla əlaqədar onların əqli fəaliyyətinin ümumiləşdirmə qabiliyyətini formalaşdırmaq lazımdır. Bu, uşaqların məktəbə intellektual hazırlığında mühüm əhəmiyyətə malikdir. Məktəbəqədər yaşlı uşaqların intellektual imkanları tətbiq olunmaq üçün yeni, daha səmərəli forma və metodlar tələb edir. Beləliklə, məktəbə tam hazır gələn uşaqlar yeni şəraitə tezliklə alışır, proqram materiallarını çətinlik çəkmədən qavrayır, müəllim mövqeyini düzgün qəbul edir, iradəli, məsuliyyətli olurlar.

Deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, uşağın məktəb təliminə hazırlanması zamanı onun orqanizmi tam formalaşmadığı üçün pedaqoji prosesin təşkili, təlim-tərbiyə proqramının təkmilləşdirilməsi zamanı uşağın fiziki və psixi imkanları mütləq nəzərə alınmalıdır. Əks təqdirdə, hədsiz yorğunluq, çətinlik uşağın sağlamlığı, inkişafı üçün zərərli ola bilər. Məktəbəqədər yaşlı uşağın məktəb təliminə hazırlığı o zaman daha yaxşı səmərə verər ki, onun bilik və bacarıq qazanma qabiliyyəti psixo-fizioloji imkanları ilə üst-üstə düşsün. Uşağın məktəb təliminə hazırlığını onun arzu və istəkləri, tələbatı ilə uyğunlaşdırılmaqla yanaşı, əxlaqi normalarla da vəhdət təşkil etməlidir, yoxsa, bu prosesdə uşaq eqoizmi, neqativ hallarla üzləşirik. Bu eqoizm isə uşağın yaş xüsusiyyətləri ilə deyil, böyüklər tərəfindən tərbiyə işinin düz gün qurulmaması ilə əlaqədardır.

**Ədəbiyyat**


1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 5 sentyabr 2009-cu il.
2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Məktəbə hazırlığın təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında 08.01.2010-cu il tarixli, 4 №-li qərarı.
3. Kərimov Y. Uşaq məktəbə gedir. Bakı: "RS Poliqraf" MMC, 2009.
4. Qədirov Ə.Ə., Məmmədov İ.N. Yaş psixologiyası. Bakı: "Maarif", 1986.
5. Ш.А.Амонашвили. В школу с шести лет. Москва: «Педагогика», 1986.
6. Воспитание и обучение детей пятого года жизни. Москва: «Просвешение», 1986.


**СОВРЕМЕННЫЕ АСПЕКТЫ ПОДГОТОВКИ ДЕТЕЙ К ШКОЛЬНОМУ ОБРАЗОВАНИЮ В ДОШКОЛЬНЫХ ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЯХ**


**резюме**

В статье рассказывается о современных аспектах подготовки детей к школьному образованию в ДОУ. Постоянно увеличивающийся поток разноплановой информации требует особого внимания к развитию мыслительных способностей детей. Во многом это зависит от правильной подготовки ребенка к школьному обучению с учетом созревания всех функций организма, становления качественных новообразований во всех сферах: физической, мотивационной, эмоционально-волевой, интеллектуальной, коммуникативной.

**MODERN ASPECTS OF PREPARING CHILDREN FOR SCHOOL EDUCATION IN PRESCHOOL EDUCATIONAL INSTITUTIONS**

**summary**

The article tells about the modern aspects of preparing children for school education in pre-school. The ever-increasing flow of diverse information requires special attention to the development of children's mental abilities. This largely depends on the proper preparation of the child for school, taking into account the maturation of all body functions, the formation of quality tumors in all areas: physical, motivational, emotional-volitional, intellectual, communicative.

# "MİLLİ ORDU" MÖVZUSUNDA AÇIQ MƏŞĞƏLƏNİN İCMALI

**Rəfiqə Ağayeva,**
Abşeron rayonu, Xırdalan şəhəri,
23 nömrəli körpələr evi-uşaq
bağçasının tərbiyəçi-müəllimi



İnsanın təbiətdən və cəmiyyətdən təcrid olunmuş şəkildə yaşaması mümkün deyil. Belə olsaydı, insanda nə mənəvi inkişaf gedər, nə də onda ictimai şüur təşəkkül tapardı.Təbiətlə, cəmiyyət hadisələri ilə tanışlıq uşaqların mənəvi dünyasının, qavrayış və təsəvvürlərinin, təfəkkürlərinin, təxəyyüllərinin, nitqlərinin inkişafına böyük təkan verir.

Təbiətin və cəmiyyətin ayrılmaz bir hissəsi olan uşaq gözlərini dünyaya açdığı gündən ətraf aləmlə, cəmiyyətlə, onların qanunauyğunluqları ilə maraqlanır, hər an yeni şey öyrənir. Bu zaman onun- müşahidəçilik qabiliyyəti, təfəkkürü və rabitəli nitqi inkişaf edir. Ətraf aləmin təsiri güclüdür, lakin onu istiqamətləndirmək, lazım gəldikdə ona yeni məzmun vermək vacibdir.

Müasir tərbiyəçi-müəllimlər məktəbəqədər müəssisələrdə təlim-tərbiyə prosesini dövrün tələbləri səviyyəsində qurmalı, uşağın həyatının maraqlı və məzmunlu keçməsinə çalışmalıdırlar. Bu məqsədlə hazırladığımız və həyata keçirdiyimiz məşğələlərdən biri "Milli Ordumuz" adlanır.

**Məşğələ:** ətraf aləmlə tanışlıq;

**Qrup:** məktəbəhazırlıq qrupu;

**Mövzu:** Milli Ordumuz;

**Standartlar: 2.3.9.** Ailə və vətən haqqında sadə təqdimatlar (dövlət rəmzləri, milli ordu, qəhrəmanlar, sərvətlər, tarixi günlər, abidələr və bayramlar) edilir.

**Məqsəd:** Milli Orduda xidmət edən əsgərləri, dənizçiləri, təyyarəçiləri fərqləndirməyi bacarır, ordu haqqında sadə təqdimatlar hazırlayır.

**İnteqrasiya: 2.2.1.** Dinləyib, anladığı fikirlərə münasibət bildirir. **4.1.1.** Arzu və istəklərini özünəməxsus tərzdə ifadə edir.

**İş forması:** kollektiv, fərdi;

**İş metodu:** əqli hücum, sual-cavab, müzakirə;

**Resurslar:** mövzuya (Milli Orduya) aid şəkillər (tankçılar, topçular, dənizçilər, təyyarəçilər və s.).

**Məşğələnin gedişi**

**Motivasiya:** Tərbiyəçi-müəllim uşaqlara bir əsgər məktubu oxuyur və onun göndərdiyi şəkli uşaqlara göstərir. Uşaqların diqqətini əsgərin göndərdiyi şəklə və yazdığı məktuba cəlb edir. Uşaqlara məktubun kimdən gəldiyini, orada nədən bəhs olunduğunu danışmalarını, Azərbaycan əsgəri haqqında bildiklərini, fikirlərini söyləməyi təklif edir. Fikirlər dinləndikdən sonra iki uşaq Azərbaycan əsgəri haqqında şeir söyləyir:

Cəsur əsgəriyik biz,
Çiçəkli ana yurdun.
Sülhün keşiyindədir,
Vətən, basılmaz ordun!

Düşmənə göz dağıyıq,
Dostlara arxa, dayaq.
İstəyirik dünyada,
Olsun daim sülh, əmək!

Tərbiyəçi soruşur:

– Azərbaycan əsgəri harada xidmət edir?

Uşaqlar cavab verirlər:

– Milli Orduda.

Tərbiyəçi uşaqlara Milli Ordunun yaranması haqqında məlumat verir və Milli Ordu haqqında bildiklərini danışmalarını təklif edir. İki uşaq Mlli Ordunun yaranma tarixi haqqında danışır. Dörd uşaq isə "Milli Ordu" şerini söyləyir:

I

Ey ana yurdumun mərd oğulları!
Odlar ölkəsinin qəhrəmanları!
Eşidin bunları, bilin bunları:
Silahı bərk tutsa Milli Ordumuz,
Heç zaman basılmaz ana yurdumuz!



II

Sevirik vətəni gözümüz kimi,
Bir olsun işimiz sözümüz kimi.
Kim bizi qoruyar özümüz kimi?
Silahı bərk tutsa Milli Ordumuz,
Heç zaman basılmaz ana yurdumuz!

III

Var olsun dostumuz, arkadaşımız
Bizim etibarlı türk qardaşımız!
Səslənsin ucadan zəfər marşımız,
Silahı bərk tutsa Milli Ordumuz,
Heç zaman basılmaz ana yurdumuz!

IV

Xeyir-dua verin, analar, siz də
İftixar oyansın ürəyinizdə.
Elin qeyrəti var bu adi sözdə –
Silahı bərk tutsa Milli Ordumuz,
Heç zaman basılmaz ana yurdumuz!

Tərbiyəçi uşaqlardan Milli Ordunun qoşun hissələri haqqında soruşur. Onların cavabı dinlənildikdən sonra idman dəqiqəsi keçirilir. Tərbiyəçi "komandirin" göstərişi ilə "əsgərlər" marş tempində addımlayaraq, C.Quliyevin "Əsgər marşı" mahnısını oxuyur, əsgər salamı verirlər.

Tərbiyəçi uşaqlara əsgərlərin asudə vaxtı haqqında məlumat verir. Sonra isə onlara Azərbaycan əsgəri haqqında bildiklərini nümayiş etdirməyi məsləhət görür.

**I qrup.** Uşaqlara rəngli şəkillərin içərisindən dövlət atributlarından birini seçib yapışdırmaq və onun haqqında danışmaq təklif olunur. Uşaqlar dövlət bayrağını yapışdırır və onun haqqında şeir söyləyirlər.

**II qrup.** Qrup üzvləri Mlli Ordunun hərb tarixindən danışır, milli qəhrəmanlar haqqında fikirlərini bildirir və şeir deyirlər.

**III qrup.** Verilmiş qoşun hissələri növlərinin içərisindən Milli Ordunun üç qoşun növünü seçib ayırır. Hər uşaq bir qoşun növünə aid şeir söyləyir. Tərbiyəçi-müəllim:

–Uşaqlar, Milli Ordunun qoşun növlərindən biri Quru Qoşunlarıdır. Bu qoşun növünə məxsus tanklar, hərbi maşınlar, piyada qoşunları torpaqlarımızın sərhədlərini qoruyurlar.



Yaşasın deyə rahat
Ellərimiz, yurdumuz,
Keşikdədir hər saat
Bizim Milli Ordumuz,
Şanlı, igid ordumuz!

Tərbiyəçi-müəllim:

– Milli Ordunun qoşun növlərindən biri də Hərbi Hava Qüvvələridir. Hərbi Hava Qüvvələrinin əsgərləri təyyarələr, raketlər, vertolyotlarla vətənimizin sərhədlərini hava hücumlarından qoruyurlar.



Hədələmir heç kəsi,
Qoruyur dağı, düzü,
Sevimli ölkəmizi,
Bizim Milli Ordumuz,
Şanlı, igid ordumuz!

Tərbiyəçi-müəllim:

– Milli Ordunun qoşun növlərindən biri də Hərbi Dəniz Donanmasıdır. Hərbi Dəniz Donanmasının əsgərləri gəmilər, qayıqlar, sualtı qayıqlarda vətənimizin dəniz sərhədlərini qoruyurlar.

**IV qrup.** Uşaqlar Azərbaycan əsgərinin asudə vaxtını necə keçirdiyi haqqında fikirlərini söyləyirlər. Uşaqlardan biri əsgərin asudə vaxtda anasına məktub yazdığını, biri əsgərin musiqiyə qulaq asdığını, digəri əsgərin anasından gələn məktubu oxuduğunu, başqa bir uşaq əsgərin tank şəkli çəkdiyi bildirir. İki uşaq Milli Qəhrəman R.Əhmədov, onun şücaəti haqqında söhbət edir. Digər uşaqlar isə milli qəhrəmanlar haqqında şəkillərə baxıb danışırlar. Sonra uşaqlar "Biz qələbə çalmalıyıq!" şerini söyləyirlər.



I

Silahlanın, oğlum, qızım,
Biz qələbə çalmalıyıq!
Can evinə sığmır arzum,
Buna nail olmalıyıq,
Biz qələbə çalmalıyıq!

II

Şən Qarabağ mahalının,
Şuşamızın, Xocalının,
Riyadımın, Mübarizin
Qisasını almalıyıq,
Biz qələbə çalmalıyıq!

III

Düşmən bizi bilsə tək də,
Əl qalmasın yad ətəkdə.
Qaçmaq olmaz, lap ölsək də,
Yurdumuzda qalmalıyıq,
Biz qələbə çalmalıyıq!



IV

Bayrağı dalğalanır,
Ayıq-sayıq dayanır.
Sülh ordusu adlanır,
Bizim Milli Ordumuz,
Şanlı, igid ordumuz!

Tərbiyəçi:

–Uşaqlar, adlarını çəkdiyimiz qoşun növləri ordumuzun ayrılmaz hərbi hissələridir. İndi isə gəlin Azərbaycan əsgərinin göz bəbəyi kimi qoruduğu Vətən haqqında mahnı oxuyaq.

"Salam, Vətən!" mahnısını oxuyurlar. Tərbiyəçi vətən haqqında mahnını oxuduqdan sonra uşaqlara suallar verir.

–Vətən nədir?
–Anlayana ana deməkdir.
–Ana kimdir?
–Ana bizə vətəndir!
–Vətən nədir?
–Ümman, yeni ümid deməkdir.
–Ümid nədir?
–Bizi sabahlara aparan...
–Vətən nədir?
–Nurlu sabah deməkdir.
–Sabah nədir?
–Bir addım da irəli deməkdir.
–Vətən nədir?
–"Get irəli!" deməkdir.
– Qarabağa doğru!
–Qarabağa irəli!
– Vətən nədir?
– Qarabağdır, Təbrizdir.

– Yenə soruşsanız ki, vətən nədir? Bilin ki, Vətən–Azərbaycan deməkdir. Ey müstəqil Azərbaycan! Bayrağınla ucal! Müstəqilliyin əbədi olsun.

Uşaqların iştirakı ilə əsgərləri yola salma səhnəsi nümayiş etdirilir. Oğlanlar bayrağı öpüb yola düşürlər. Şəms şeir deyir:

Dayanıb dağların başının üstə,
Gözləri yoldadır, qulağı səsdə...
Qoyub bir əlini qaşının üstə
Baxır həsrət ilə düzə, yoxuşa...
Bizim yolumuzu gözləyir Şuşa...

Sonra xor oxuyur.

Oğlanlar "avtobusa" minirlər... Zeyn deyir: "Qarabağa, irəli!". "Avtobusda" oğlanlar "Ana, əsgər gedirəm!" mahnısını oxuyurlar. Sonda uşaqlar xorla "Şanlı Azərbaycan Ordusu, 100 yaşın mübarək!" deyirlər.

Ordumuzun 100 illiyi ilə bağlı foto–slaydlar təqdim olunur. Hərbi parad nümayiş etdirilir. Ulu öndərimiz H.Əliyevin ordu haqqında söylədikləri sözlər foto – slaydda göstərilir. Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin ordu haqqında söylədiyi fikirlər nümayiş etdirilir.

## ***Lao Tszıdan 8 məsləhət:***

**1. Həyatınızla bağlı sualların cavabları əslində əlinizdədir.**

Varlığınızın mərkəzində cavablarınız gizlidir. Kim olduğunuzu və nə istədiyinizi əslində bilirsiniz. Başqalarına hakim olmaq qüvvədir, özünüzə hakim olmaq isə həqiqi gücdür.

**2. Hər şeyi olacağına buraxdığın an azad olacaqsan.**

Bəzi şeyləri olacağına buraxdıqda hər şey qaydasına düşməyə başlayır. Hər şeyi olacağına buraxa bilən insanlar qazanırlar, ancaq daim şansınızı sınamağa davam etməlisiniz. Əgər hər şeyə sahib olmaq istəyirsənsə, hər şeydən əl çəkə bilməlisən. Palçıq çöküb su şəffaflaşanadək gözləməyə səbrin varmı?

**3. Eqonuz (eqoizm) sizə heç vaxt həqiqi həzzi verməz.**

Özlərini təsvir edənlər əslində kim olduqlarını bilməzlər. İnsanlar üzərində təsiri olan insan özünü gücləndirə bilməz. Parlamaq istəyən insan öz işığını qaraldar.

**4. Pislik yox sayıldıqda yox olar.**

Pisliyə qarşılıq vermədiyinizdə o, öz-özünə yox olar. Yaxşılıq daim qazanar, pislik isə həmişə uduzar. Yaxşı olanlara yaxşılıqla qarşılıq verin. Pis olanlara da yaxşılıqla qarşılıq verin. Beləcə, həmişə yaxşılıq qalib gələcək.

**5. Dürüst olanlara qarşı dürüst olun.**

Yalançılara qarşı da dürüst olun. Beləcə dürüstlük qalib gələr. Sözlərdəki incəlik inam, düşüncələrdəki incəlik dərinlik yaradır. Münasibətlərdə incəlik isə sevgi yaradar. Dərindən sevilmək güc, birini dərindən sevmək isə cəsarət verir.

**6. Özünüz olun.**

İnsanların sizi təsdiq etməsinə əhəmiyyət verdikdə onların köləsi olarsınız. Olduğunuz kimi göründükdə və özünüzü başqaları ilə müqayisə etməyib, onlarla yarışmadıqda hamı sizə hörmət edər.

**7. Təvazökarlıq müdriklikdən gəlir.**

Müdrik insan nəyi bilmədiyini fərq edən insandır. Bütün dərələr dənizə axır, çünki dəniz onlardan aşağıdadır, gücünü təvazökarlıqdan alır.

**8 . Dəyişiklik qaçılmazdır.**

Qəbul edin. Hər şeyin dəyişdiyinin fərqinə vardıqda başa düşürsünüz ki, bunu dayandırmaq üçün edə biləcəyiniz heç bir şey yoxdur. Yeni başlanğıclar çox vaxt acılı sonluqlarla başa çatır.

# КИЧИКЙАШЛЫ МЯКТЯБЛИЛЯРИН ФИЗИКИ ИНКИШАФ ХЦСУСИЙЙЯТЛЯРИНİN ТЯЛИМДЯ НЯЗЯРЯ АЛЫНМАСЫ

**Балоьлан Гулийев,**
АДПУ-нун досенти,
педагоэика цзря фялсяфя доктору



**Ачар сюзляр:** мцщит, фяал истиращят, ямяк фяалиййяти, бюйцмя, физики инкишаф, йаш мярщяляляри, йаш нормативляри, сычрайыш, иради фяалиййят, мцвазинятлилик;

**Ключевые слова:** среда, активный отдых, трудовая деятельность, рост, физическое развитие, возрастные периоды, возрастные нормативы, скачок, волевая деятельность, держать равновесие;

**Key words**: environment, leisure activities, work, growth, physical development, age periods, age standards, jump, volitional activity, leveling.

Uşaqların fiziki və mənəvi sağlamlığına böyük əhəmiyyət verən dahi çex pedaqoqu Y.A.Komenski "Yaxşı təşkil olunmuş məktəbin qanunları" adlı əsərində göstərirdi ki, məktəbin həqiqi məktəb, humanistlik emalatxanası, can sıxıntısından xilas olması üçün şagirdlərin fiziki tərbiyəsinin, maraqlı və məzmunlu təşkili zəruridir. Məktəblilərin zehni işdən, təlim fəaliyyətindən və qidalandıqdan sonra hərəkətli həyat tərzi keçirmələri, fəal istirahət etmələri, gəzintiyə çıxmaları, hərəkətli oyunlarla məşğul olmaları, əylənmələri çox vacibdir". O, yeməkdən sonra yatmaqdan çəkinməyi məsləhət görür, gəzintilər, ədəbi söhbətlər və oyunlarla özünə istirahət verməyi daha sərfəli hesab edirdi.

Görkəmli təbiətşünas alim H.B.Zərdabi insanın həyatda xoşbəxt və şən yaşaması üçün var-dövlətə deyil, möhkəm sağlamlığa malik olmasını zəruri şərt hesab etmiş, "Dünyada bədənin səlamətliyindən artıq dövlət yoxdur"– demişdir. Rus pedaqoq-anatomu P.F.Lesqaft müəyyən etmişdir ki, məktəblilərin cismani, mənəvi sağlamlığı üçün onların yaşlarına, güclərinə müvafiq fiziki təhsil və tərbiyə almaları zəruridir. Fiziki təhsil zamanı uşaqların icra edəcəkləri hər bir hərəkətin əhəmiyyəti, metodları şagirdlərə müəllim tərəfindən aydın izah edilməlidir. Belə olduqda, fiziki təhsilin mahiyyəti şüurlu dərk edilir, bu əsasda onda zehni, əxlaqi-mənəvi, estetik zövq və s. təşəkkül tapır. P.F.Lesqaft demişdir: "Bizim hərəkət və təsirlərimiz cavan bədənə yalnız o zaman şüurlu, düşüncəli təsir edə bilər ki, biz bədəndəki dəyişiklikləri bilək, onu başa düşək. Biz yalnız bundan sonra uşaqların fiziki və əqli inkişafına şüurlu, ciddi təsir göstərə bilərik. Əks halda bizim təsirlərimiz etibarsız, çox zaman zərərli ola bilər".

Deyilənlərdən aydın olur ki, fiziki tərbiyənin təşkilində hansı metod və prinsiplərdən istifadə olunacağı əvvəlcədən müəyyən edilməli, məzmun, təlim şəraiti, şagirdlərin sağlamlıq vəziyyəti nəzərə alınmalıdır. Bütün cəhətlər fiziki tərbiyə prosesinin optimal təşkilinə, şagirdlərdə yaradıcı təfəkkür vərdişlərinin inkişafına, onların hərəkəti müstəqil icraetmə bacarığına yiyələnmələrinə səbəb olur. Bu məqsədlə səmərəli təlim metod və priyomlarına, eləcə də milli fiziki tərbiyə vasitələrinə geniş yer verilməlidir. Eyni zamanda, yerli iqlim şəraiti nəzərə alınmalı, məktəbin idman bazası, onların alət və ləvazimatlarla təchizatı müasir səviyyədə olmalıdır. Bu amillər təlimə şüurlu münasibəti, həvəsi və marağı təmin etməklə, təhsilalanların hərəki fəallığını, dərketmə qabiliyyətini yüksəldir. Nəticə etibarilə təlimin intensiv təşkilinə zəmin yaranır.

N.M.Kazımov “Bu və ya digər təlim metodu, yaxud priyomunun nə dərəcədə səmərəli olub-olmadığını nəzəri cəhətdən söyləməyə əsas verən nədir?” sualını belə izah edir: “Belə bir əsas həmin metod və ya priyomun maddi aləmin başlıca fizioloji və psixoloji qanunauyğunluqlarına, məntiqi hadisələrinə uyğun gəlib-gəlməməsidir. Deməli, hər hansı təlim metodu və priyomunun nə dərəcədə səmərəli olduğunu nəzəri cəhətdən söyləmək üçün həmin metod və priyomun obyektiv varlığın qanunlarına, ali sinir sistemi fəaliyyətinə, eləcə də düzgün məntiqi təfəkkür qanunauyğunluqlarına uyğun gəlib-gəlmədiyini fəlsəfi, fizioloji, psixoloji və məntiqi nöqteyi-nəzərdən təhlil etmək lazımdır. Belə təhlil prosesində alınan nəticələr, yəni müvafiq fəlsəfi, fizioloji, psixoloji və məntiqi biliklər təlim metodları və priyomlarının elmi-nəzəri əsaslarına daxil olur”.

Söylənilənlər fiziki tərbiyə təliminə də aid edilir, çünki həmin prosesin cisim və hadisələrlə, ali sinir sistemi fəaliyyəti, habelə psixologiyası ilə sıx əlaqədə olduğu inkaredilməzdir. Buna görə də fiziki tərbiyənin məzmununu, eləcə də həmin prosesdə təbiətin, cəmiyyətin cisim və hadisələrinin məqsədəuyğun şəkildə şagirdlər tərəfindən dərk olunmasının təşkili ilə yanaşı, xüsusi psixoloji, morfo-funksional qanunauyğunluqların mövcudluğu da nəzərə alınmalıdır.

İnsan bioloji, ictimai varlıq kimi xarici mühitlə daim əlaqədə olduğundan, onun fəaliyyətini psixi prosesin qanunauyğunluqlarından ayrılıqda təsəvvür etmək mümkün deyildir. Deməli, morfo-funksional, psixoloji, ictimai və s. qanunauyğunluqlara aid ümumi biliklər fiziki tərbiyənin düzgün təşkilinin mühüm amili kimi qiymətləndirilməlidir.

Fiziki tərbiyə bu prosesdə iştirak edən şagirdin baş beyin yarımkürələri qabığı, ali sinir sisteminin qanunauyğunluqları ilə, həmçinin müvafiq psixi proseslərlə qarşılıqlı əlaqədə olur. Həmin sahədə qazanılmış konkret biliklər də (morfo-fizioloji, psixoloji) fiziki tərbiyənin səmərəli qurulmasının tərkib hissələrini təşkil edir. Xarici mühitin qanunauyğunluqları üzrə biliklər, fiziki tərbiyə prosesində qarşıya çıxan didaktik qanunauyğunluqlar, fiziki hərəkətlərin yerinə yetirilməsini təmin edən müvafiq fizioloji-psixoloji biliklər də təlimin lazımi səviyyədə təşkilinə şərait yaradır. Həmin fizioloji şərtlərdən biri də fiziki hərəkətlərin fəal istirahətlə sıx əlaqədə olmasıdır.

Görkəmli rus fizioloqu İ.M.Seçenov fəal istirahətin fiziki hərəkətlərlə bağlı olması ideyasını ilk dəfə elmi cəhətdən işləmiş və nəzəri əsaslarını müəyyənləşdirmişdir. O, sübut etmişdir ki, orqanizmin işdən sonra sakit vəziyyətdə olması iş qabiliyyətini tam mənası ilə bərpa edə bilmir. İşdən sonra orqanizmə təkcə sakitlik vermək deyil, xüsusi hərəkətlərlə onun fəaliyyət qabiliyyətini bərpa etmək lazımdır. İ.M.Seçenovun fikrincə, yorulmuş üzvə müvəqqəti olaraq istirahət verdikdən sonra digər üzvün işləməsi, bu üzvdə oyanmanın əmələ gəlməsinə, onun mərkəzi sinir sisteminə ötürülərək yorulmuş üzvün mərkəzini fəallaşdırılması həmin üzvün iş qabiliyyətinin daha tez bərpa edilməsinə səbəb olur, yəni fizioloji nöqteyi-nəzərdən istirahəti yalnız sakitlik kimi başa düşmək olmaz. Bir işin başqası ilə əvəz edilməsinə də istirahət forması kimi baxmaq lazımdır.

Zehni və fiziki iş qabiliyyətini saxlamaq, yaxud bərpa etməkdə işlə istirahət vaxtının səmərəli təşkili, yəni onların düzgün növbələşdirilməsi də çox böyük əhəmiyyətə malikdir. Tədqiqatçılar göstərirlər ki, beyin qabığının müəyyən nahiyəsinin uzunmüddətli fəaliyyəti, onun işgörmə qabiliyyətini azaldır, lakin bu zaman işin xarakteri dəyişdirilərsə, yəni beyin qabığının başqa hüceyrələri işləməyə məcbur edilərsə, əvvəlki nahiyənin fəalliyyəti tez bərpa olunar.

Deyilənlərdən aydın olur ki, hər hansı fiziki əmək fəaliyyətinin başqası ilə əvəz olunması uzun müddət işləyən beyin qabığı nahiyəsinin istirahətini təmin edir. Bütün bunlar şagirdlər üçün nəzərdə tutulmuş, onların gün ərzində icra edəcəkləri hərəkət rejiminə də aid edilir. Bura ev şəraitində keçirilən səhər gimnastikası, dərsəqədərki gigiyena gimnastikası, fənlərin tədrisi prosesində təşkil olunan bədən tərbiyəsi dəqiqələri, böyük tənəffüsdə keçirilən müxtəlif oyunlar, əyləncələr, yuxudan əvvəl gəzinti və s. daxildir.

Fiziki tərbiyəyə dair proqram materiallarının seçilməsi, onların siniflər üzrə bölgüsü, fiziki tərbiyə dərslərinin, sinifdənxaric və məktəbdənkənar tədbirlərin təşkili də bu fizioloji prinsiplər

üzərində qurulmuşdur. Bu dərslərin 4 hissədən ibarət olması onun elmi-nəzəri cəhətdən düzgün və səmərəli qurulmasına əyani sübutdur. Fiziki tərbiyə dərslərinin giriş hissəsində motivasiya, problem–situasiya yaradılırsa, hazırlıq hissəsinin başlıca vəzifəsi şagirdlərin orqanizminin anatomik–fizioloji fəaliyyətinin, zehni və fiziki işin növbələşdirilməsinə, yəni müxtəlif idman növləri üzrə fəndlərin texnikasına yiyələnməyə hazırlamaq, yaxud taktiki variantların mənimsənilməsinə yönəltməkdən, bu sahədə iş qabiliyyətini yüksəltməkdən ibarətdir. Əsas hissədə isə hərəkətlərin texnikası və oyunların keçirilməsi taktikası öyrədilir. Dərsin tamamlayıcı hissəsində, mühüm vəzifə kimi, orqanizmin fəaliyyətinin funksional gərginliyini azaltmaq, onu təxminən əvvəlki vəziyyətə gətirməkdir. Bu isə orqanizmi nisbətən sakitləşdirmək, fiziki gərginliyi sadə və maraqlı oyunlarla, diqqəti cəlb edən təmrinlərlə, tənəffüs hərəkətləri vasitəsilə azaltmaq, başqa sözlə – beyin qabığının müvafiq nahiyəsinin uzun müddət qıcıqlanaraq oyanmasının qarşısını almaqdır. Bundan əlavə, beyin qabığının digər hüceyrə qruplarını işləməyə məcbur etməklə, əvvəl nahiyənin iş qabiliyyətini bərpa etmək, onları növbəti növünə (zehni əmək tələb edən fənlərin öyrənilməsinə) hazırlamaqdan ibarətdir. Bütün bunlar məktəbyaşlı uşaqların yaş xüsusiyyətlərinin, morfo-funksional və psixoloji əlamətlərinin, cinsə məxsus fiziki inkişafının nəzərə alınmasından çox asılıdır.

Böyümə, fiziki inkişaf ətraf mühitin təsiri ilə sosial – iqtisadi, psixoloji, iqlim və ekoloji amillərlə, məktəbdəki mövcud təlim-tərbiyə şəraiti, tədris – idman texnikasının tətbiqi ilə sıx əlaqədardır. Böyümə və inkişaf ayrı-ayrı yaş mərhələlərində özünü müxtəlif formalarda büruzə verir. Hər hansı yaş mərhələsində orqanizmdə kəmiyyət və keyfiyyətcə inkişaf daha sürətlə, digər yaş mərhələsində isə ləng gedir. Orqanizmin sağlam və düzgün fiziki inkişafı bədən göstəricilərinin (boy, çəki və s.) yaş mərhələləri üçün müəyyən edilmiş normativlərə uyğun gəlməsi ilə əsaslandırılır. Fiziki inkişaf bədənin yaş normativlərinə müvafiq formada getmirsə, orqanizmin morfo-funksional vəziyyətinin qüsurlu olduğunu əks etdirir. Yaş normativləri ilə orqanizmin inkişaf göstəricilərinin uyğun gəlməməsi inkişafın normal getməməsinin əlamətidir. Bədən quruluşunu qiymətləndirməklə fiziki inkişafın normal gedib–getməməsi haqqında məlumatlanmaq olar. Bu qiymətləndirməni məktəb şəraitində sadə metodlarla, bədən üzvlərinin nisbətini müəyyən etməklə aparmaq olar. Bunun üçün bədən çəkisi və boyun uzunluğunu müəyyənləşdirməklə çəki-boy indeksini müəyyən etmək lazımdır. Anatomlar bədən quruluşunun hansı tipə aid olmasını belə hesablayırlar: Onlar bədənin çəkisini boy uzunluğunun üç mislinə bölürlər. Əgər bədən çəkisi 64 kq, boyu 1,76 metrdirsə, onda 64:(1,76 x 3)=11,7. Burada alınan cavab həmin uşağın çəki-boy indeksidir, yəni bədən quruluşu əzələ tipinə yaxındır.

Fiziki tərbiyə dərslərinin səmərəliliyini təmin edən mühüm pedaqoji-fizioloji istiqamətlərdən biri də məktəblilərin yaş dövrlərinin ikinci uşaqlıq mərhələsinin (8–12 oğlanlar, 8–11 qızlar) fiziki inkişaf göstəricilərini öyrənmək, təlim prosesində onları nəzərə almaqdır. Buna görə də məlum fiziki inkişaf göstəricilərinə əsaslanmaq lazımdır. Fiziki inkişaf göstəriciləri antropometrik ölçülər əsasında müəyyən edilir. Bunlara bədənin çəkisi, boyun uzunluğu, döş qəfəsinin çevrəsinin ölçüsü, bud, baldır, bazu və s. nahiyələrin ölçüləri daxildir. Bu ölçülərin tibb mütəxəssisləri tərəfindən aparılması daha məqsədəuyğundur, lakin ibtidai sinif və fiziki tərbiyə müəllimləri də məktəblilərin antropometrik ölçülərini götürə bilərlər. Onlar bunu öz müşahidələrinə istinad etməklə reallaşdırmaq imkanlarına malikdirlər. Müəllimlər uşaqlarla daim ünsiyyətdə olduqları üçün onların funksional vəziyyətlərini, tez-tez xəstələnmələrini, yorulmalarını, xarici görünüşlərindəki dəyişiklikləri müşahidə edərək daha tez başa düşürlər. Müəllim uşaqların görünüşündə və davranışında müşahidə etdiyi vəziyyətlə əlaqədar, ilk növbədə, məktəb həkiminə, yaxud tibb işçisinə, eləcə də valideynlərə məlumat verməli, qeyri-normal əlamətlərin aradan qaldırılması üçün müvafiq yardım göstərilməlidir.

Məktəbəqədər və kiçik məktəb yaşı mərhələlərində tay-tuşlarımızla məhəllə və çəmənliklərdə, bağlarda, çay kənarında hoppanıb-düşür, gücümüzü, sürətimizi müxtəlif yollarla sınayır, kimin daha çox hündürlüyə və ya uzunluğa tullanmasını müəyyənləşdirir, bununla yanaşı, yarışlar keçirirdik. Xüsusən, kimin əlləri üstə daha çox yeriməsini, müxtəlif halqalardan daha tez

keçməsini, ağaclara daha sürətlə dırmanmasını və oradan düşməsini təşkil edirdik. Anatomik–fizioloji mahiyyətini başa düşmədiyimiz əlini başın üzərindən keçirməklə əks tərəfdəki qulağa çatdırmaq (sağ əli sol qulağa və əksinə, sol əli sağ qulağa) yarışı da maraqlı keçirdi. Uşaqlardan bəziləri həmin hərəkəti icra edə bilir, bəziləri isə əlini digər qulağına çatdıra bilmirdi. Yarışın qaydalarına görə, hərəkəti yerinə yetirə bilməyənlər uduzmuş hesab edilir və qaliblər tərəfindən məzəmmət olunurdular. Fizioloqlara görə, bu, həmin yaşlarda uşaqların morfo-funksional inkişafında baş vermiş dəyişikliklərlə bağlıdır. Bu zaman ətraflar sürətlə uzununa inkişaf edir və "yarımboy sıçrayışı" adlanır.

M.A.Qarayev "Filippin testi"nə əsaslanaraq, bu münasibətlə yazır: "Əgər uşaq yarımboy sıçrayışı mərhələsini keçməyibsə, onda o, sağ əlini sol qulağına toxundura bilmir. Yarımboy sıçrayışı başa çatdıqda uşaq əlini əks tərəfdəki qulağın nəinki yuxarı hissəsinə, hətta orta hissəsinə də çatdıra bilir. Sıçrayışlı boy inkişafı mərhələsini 5-6 yaşlarda keçirən uşaqlarda fiziki inkişaf qismən normal gedir. Müəllim, bu göstəriciyə əsasən, uşağın fiziki inkişafı haqqında müəyyən məlumat əldə edə bilər".

"Yarımboy sıçrayışı" prosesi təbii proses olmaqla, 5–7 yaş mərhələsində məktəblilərdə anatomik-fizioloji baxımdan baş vermiş çox müsbət dəyişiklikdir. Həmin sıçrayışın mükəmməl olması, vaxtında baş verməsi, xarici mühitin təsirlərinə məruz qalmaması məqsədilə yaşauyğun fiziki hərəkətlərdən, mütəhərrik və əyləncəli oyunlardan, xüsusən ev şəraitində, gəzinti, səyahətlər dövründə mümkün olan milli oyunlardan istifadə faydalıdır. Bu vaxt gövdə hərəkətlərinə (onurğanın fəqərəarası oynaqlarında soldan-sağa və əksinə dövr etdirilməsi), əyilmələrə (dizləri bükmədən irəli, arxaya, sağa, sola), qamətin formalaşması üçün hərəkətlərə, hoppanmalara və digər hərəkətlərə yer ayrılmalıdır.

Azərbaycanda məktəblilərin fiziki inkişafı 1929-cu ildə B.M.Daşevski, 1959–1960-cı illərdə 7 yaşından 15 yaşınadək uşaqların fiziki inkişaf əlamətləri isə K.J.Fərəcovanın rəhbərliyi ilə Uşaq və Anaları Mühafizə Elmi-Tədqiqat İnstitutunun əməkdaşları tərəfindən öyrənilmişdir.

Azərbaycan məktəblilərinin fiziki inkişaf göstəriciləri bunlardır:
7–10 yaşlı oğlanların boyu orta hesabla 117 sm-dən 131 sm-ə, çəkisi 21 kq-dan 28 kq-a, döş qəfəsinin dairəsinin ölçüsü 59 sm-dən 64 sm-ə qədər olur. Qızlarda isə, müvafiq olaraq, 117 sm-lə 130 sm arasında, çəkiləri 21 kq-dan 27 kq-a çatır, döş qəfəsinin çevrəsinin ölçüsü isə 58 sm-lə 62 sm arasında dəyişir. Bu göstəriciləri (1959–1960), digərləri ilə (1927–1928) tutuşdurduqda məlum olur ki, məktəblilərin fiziki inkişaf göstəriciləri əvvəlkilərdən (B.M.Daşevski) xeyli üstün olmuş və bütün yaş qruplarında məktəblilərdə boy 4,0–7,0 %, çəki 7,0–18,0%, döş qəfəsi çevrəsinin ölçüsü 2,0–9,5% artmışdır.

7–9 yaşlı azərbaycanlı oğlanların boyu qızlarınkından uzun olmuş, lakin 10 yaşında eyniləşmişdir. 11–13 yaşlı qızlarda boy oğlanların boyundan artıq olmuş, 14 yaşda qızlar boy artımında oğlanlardan xeyli geri qalmış, 15 yaşda isə həmin fərq 5,16 santimetrə çatmışdır.

Ə.Ə.Qədirov və İ.N.Məmmədov, əvvəlki tədqiqatçılardan fərqli olaraq, kiçikyaşlı məktəblilərin təlim fəaliyyətini şərtləndirən fiziki inkişaf xüsusiyyətlərini ümumiləşdirərək, hər bir yaş üçün ayrıca göstəricilər müəyyən etmişlər.

Fiziki inkişaf göstəricilərinə əsasən, 7–10 yaşlı qızlarda boy 122,2 sm-dən 136 sm-dək uzanır, çəki 23,8 kq-dan 30,8 kq-dək artır, başın çevrəsi 57,4 sm-dən 62,6 sm-dək böyüyür. Oğlanların fiziki hazırlıq göstəriciləri isə, müvafiq olaraq 123 sm-dən 136,1 sm-dək uzanır, bədən çəkisi 24 kq-dan 30,4 kq-dək, başın çevrəsi 58,8 sm-dən 64 sm-dək artır.

Tədqiqatçılar bütün bunları, xüsusilə, beyin kütləsinin artmasını, onun fəaliyyətinin mürəkkəbləşməsini, kiçikyaşlı məktəblilərin məqsədyönlü fəaliyyətində oyanma və ləngimə proseslərinin bir-birini əvəz etməsini nəzərə çarpacaq dəyişikliklərlə müşayiət olunması ilə əlaqələndirirlər. Eyni zamanda, insanın şüurlu iradi fəaliyyətini tənzim edən bu proseslərin davamlılıq səviyyəsinin artması, ləngimə reaksiyalarını şüurlu surətdə həyata keçirmək imkanının getgedə çoxalması, şərtsiz reflektor fəaliyyətdən digərinə keçmə prosesinin sürətlənməsi sayəsində uşaqlarda böyüklərə məxsus fizioloji xüsusiyyətlərin yaranması ilə əlaqələndirirlər.

**Ədəbiyyat**

1.Ümumtəhsil məktəbləri üçün Fiziki tərbiyə və Musiqi fənni üzrə təhsil proqramı (kurikulumu) (I-IV siniflər) (STANDARTLAR)
**2.** Quliyev B. Fiziki tərbiyənin nəzəri-metodik və praktik işlərinin əsasları. Bakı:ADPU–nun nəşriyyatı, 2010.

**ОСОБЕННОСТИ ФИЗИЧЕСКОГО РАЗВИТИЯ МЛАДЩЕШКОЛЬНИКОВ И СУТЬ ИХ ПРИМЕНЕНИЯ В ПРОЦЕССЕ ФИЗИЧЕСКОГО ВОСПИТАНИЯ**

**резюме**

В статье рассказывается об особенностьях физического развития младщешкольников и об их применения в процессе физического воспитания. Так же рассказывается о показателях физического развития. Приводиться в пример показатели физического развития у мальчиков и у девочек разных возрастов. Отмечается, что ускорения перехода от безусловной рефлекторной деятельности к условной у детей связана с появлением у них физиологических особенностей пренадлежащих взрослым.

**FEATURES OF PHYSICAL DEVELOPMENT OF YOUNGER SCHOOLS AND THEIR ESSENCE OF THEIR APPLICATION IN THE PROCESS OF PHYSICAL EDUCATION**

**summary**

The article describes the features of the physical development of young schoolchildren and their use in the process of physical education. It also tells about the indicators of physical development. To cite as an example the indicators of physical development in boys and girls of different ages. It is noted that the acceleration of the transition from unconditioned reflex activity to the conditioned one in children is associated with the appearance of physiological features in them belonging to adults.

# İBTİDAİ SİNİFLƏRDƏ YAZI BACARIQLARININ İNKİŞAF ETDİRİLMƏSİ

**Bibixanım İbadova,**
ARTİ-nin şöbə müdiri,
pedaqogika üzrə fəlsəfə doktoru,dosent



**Açar sözlər:** yazı, yazılı nitq, esse, əməli yazılar, bacarıq, təlim nəticəsi, strategiya;
**Ключевые слова**: письмо, письменная речь, эссе, практическое письмо, умение, результат обучения, стратегия;
**Key words:** writing, writing speech, essay, practical writing, skill, learning result, strategy.

Oxu və yazı savadı təhsilin ilkin göstəriciləri olsa da, bu gün onlara yanaşmalar dəyişmişdir. Oxu və yazının fikrin ifadə forması olan şifahi və yazılı nitqə, nəticədə həyati bacarıqlara çevrilməsi bu gün aktuallıq kəsb edir.

Məktəb illərində şagirdlər, adətən, müəyyən bilik və bacarıqlara yiyələnir, ancaq bu bacarıqların həyatda onlara gərəkliliyini lazımınca dərk etmədikləri üçün fənnə maraqları azalır. Azərbaycan dili fənnindən qrammatik, orfoqrafik və s. qaydaları öyrənir, dərslikdə verilən tapşırıqlara tətbiq edirlər. Dil qaydalarına dair aldıqları biliklər yazarkən, danışarkən vasitəyə çevrilir.

Müşahidələrə əsasən deyə bilərik ki, bu bilik və bacarıqlar şagirdlərin verdikləri cavablara görə aldıqları qiymətə çevrilir. Həyatda isə qiymət tələb olunmur. Sadəcə kağız-qələm (elektron vasitələr də ola bilər) verilir və deyilir: yaz. Məktəb kursunu bitirmiş, müstəqil həyata qədəm qoymuş gənc “Necə yazım?”, “Haradan başlayım?”, “Ardıcıllığı necə verim?” suallarına cavab axtarır.

Araşdırmalar göstərir ki, Azərbaycan dilində danışan uşaq məktəbdə 9 və ya 11 il təhsil aldıqdan sonra (nəzərə alsaq ki, şagird Azərbaycan mühitində böyüyür, formalaşır) fikrini yazılı və şifahi şəkildə ifadə etməkdə çətinlik çəkir. Artıq 11-ci ildir ki, respublikada tədris şəxsiyyətyönümlü təhsil proqramları üzrə həyata keçirilir və müəllimlərin əksəriyyəti onların əsasında

tərtib olunmuş dərsliklərdəki məzmunu mənimsətməyə çalışır. Bununla belə, hələ də dərsliklərdə dil qaydalarının az olmasından şikayətlənən, orada olmayan dil qaydalarını əlavə vəsaitlərdən öyrənməyi tövsiyə edən müəllimlər var. Deməli, ümumtəhsil məktəblərində Azərbaycan dili fənninin məqsədi dil qaydalarını öyrətməkdir.

Tədris planına əsasən, Azərbaycan dili ibtidai siniflərdə təxminən 1326 saat, V–XI siniflərdə isə 816 saat tədris edilir.

Mövcud "Azərbaycan dili" fənn proqramında (kurikulumunda) göstərilir ki, "Ana dili ümumtəhsil məktəblərində tədris olunmaqla şagirdlərdə **nitq mədəniyyətinin** formalaşması na xidmət edir. "Nitq mədəniyyəti cəmiyyətin müəyyən dövrlərində danışıq qaydalarını öyrənən və insanlar arasında əsas ünsiyyət vasitəsi kimi fikri formalaşdıran ifadə qaydalarının elmi əsaslarını müəyyənləşdirən dilçilik sahəsidir"(5). "Nitq mədəniyyəti nitqin müxtəlif şəraitində məzmun və məqsədə uyğun olaraq ədəbi dilin yazılı, şifahi formalarından, ifadəlilik vasitələrindən istifadə edə bilmə bacarığıdır (4, səh.32).

Bu məqsəddən çıxış edərək, "İbtidai təhsil səviyyəsi (I–IV siniflər)" üzrə gözlənilən təlim nəticələrində aşağıdakı bacarıqlar verilmişdir.

- Danışanın fikrinə münasibət bildirir, öz fikirlərini sərbəst və ardıcıl ifadə edir.
- Düzgün, sürətli, şüurlu, ifadəli oxuyur, mətnlərə münasibət bildirir.
- Kiçik həcmli rabitəli mətnlər qurur.
- Lüğətlərdən, məlumat kitablarından istifadə edir.
- Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi dəyərləri, incəsənəti, adət-ənənələri haqqında öyrəndiyi məlumatları sadə formada təqdim edir.
- Yazılı və şifahi nitqində fonetik, leksik, qrammatik qaydalara yiyələndiyini nümayiş etdirir.

Göründüyü kimi, təlim nəticələrində "şagird danışanın fikrinə, oxuduğu mətnlərə münasibət bildirir", "fikrini yazılı və şifahi şəkildə, qrammatik qaydalara uyğun olaraq sərbəst, ardıcıl ifadə edir" həyati bacarıqları əksini tapmışdır. Təlim nəticələri siniflər üzrə məzmun standartlarında ifadə olunarkən bir az da konkretləşir.

**Yazılı nitq.** Yazı dedikdə, fikrin yazılı şəkildə ifadə olunması nəzərdə tutulur. "Yazılı nitq – səs və danışıqları şərti şəkildə ifadə edən işarələr sistemindən ibarətdir" (10). "Yazılı nitq – xüsusi qrafik işarələr vasitəsilə kağız, kətan, taxta, daş və s. üzərində təsvirdir "(11). Şifahi nitqdən fərqlənən yazılı nitq zəngin lüğət ehtiyatına yiyələnməyi, müvafiq normalara ciddi şəkildə əməl olunmasını, dəqiqliyi, dil vasitələrinin zənginliyini, müxtəlifliyini tələb edir.Yazılı nitqin əsas xüsusiyyətlərindən biri onun məzmunlu, oxunaqlı olmasıdır. İnsan yazacağı və ya danışacağı məsələ barədə tam məlumatlılığı ilə onun həm özünə, həm də dinləyicisinə maraqlı, faydalı olur. Bu isə o zaman baş verir ki, müəllif nitqini elmi faktlar, müşahidələr əsasında qursun və onu təbii hisslərlə ötürə bilsin (14).

Yazı mürəkkəb nitq bacarığı olub, insanların qrafik işarələr vasitəsilə ünsiyyətini təmin edir. Yazı məhsuldar nitq fəaliyyətidir. Onun vasitəsilə nitqi yazıb, digərinə ötürmək mümkün olur. Nitq "insanların fəaliyyətində ünsiyyət üçün istifadə olunan proses"dir (5). Nitq fəaliyyətinin dörd növü (dinləmə, danışma, oxu və yazı) məlumdur. Odur ki, "Azərbaycan dili" fənn proqramında (kurikulumunda) məzmun göstərilən fəaliyyətlər əsasında müəyyən edilmişdir:

1.dinləyib-anlama və danışma; 2. oxu; 3. yazı; 4. dil qaydaları.

İbtidai siniflərdə Azərbaycan dili inteqrativ fənn olduğundan bu məzmun xətləri arasında əlaqə mövcuddur .

"Yazı" məzmun xətti ilə bağlı ümumi təlim nəticələrində göstərilir:

- Şagird kiçik və böyük hərfləri, sözləri və cümlələri aydın yazır.
- Müşahidə etdiyi əşya və hadisələr haqqında təsviri xarakterli kiçik həcmli mətnlər yazır.
- Əməli yazılar (məktub, ərizə, elan, divar qəzetinə məqalə, tərcümeyi-hal) tərtib edə bildiyini nümayiş etdirir.
- Yazıda kalliqrafiya, orfoqrafiya və durğu işarələri qaydalarına əməl edir (1,səh.20).

Təlim nəticələrində əməli yazılardan *məktub, ərizə, elan, divar qəzetinə məqalə, tərcümeyi-hal* göstərilsə də, məzmun standartlarında *açıqca, dəvətnamə, məlumat* əlavə edilmiş, *divar qəzetinə məqalə, tərcümeyi-hal* çıxarılmışdır. 2013-cü ildə Azərbaycan dili fənni üzrə təhsil proqramında müəyyən təkmilləşmə aparılmış, əməli yazılara *anket,* rabitəli nitqlə bağlı yazı növünə *esse, plan tutmaq* kimi fəaliyyətlər əlavə edilmişdir.

**Yazı texnologiyadır.** *Texnologiya* – yunan sözü olub, "*techne*" –*bacarıq* və "*logos*"– *elm, öyrənmə* sözlərindən yaranmışdır. "Azərbaycan dili" fənn proqramında "Yazı" məzmun xəttində əsas standart da məhz belə adlanır: "Şagird yazı bacarıqlarına yiyələndiyini nümayiş etdirir". Yazı bacarıqlarına yiyələnmə əksər hallarda *yazı texnologiyası* kimi də ifadə olunur.

Yazı texnologiyası dedikdə, yazı texnikası və məhsuldar bacarıqlara yiyələnmə, tapşırıq xarakterli yazılar nəzərdə tutulur. *Yazı texnikası bacarıqlarına* şagirdlərin əlifba, qrafik işarələr, orfoqrafiya, durğu işarələri, sözləri cümlədə düzgün yerləşdirmə, mətni köçürmə, imla; *məhsuldar bacarıqlara* isə müəyyən edilmiş məqsədə uyğun mətn yazma, müvafiq metodlardan istifadə, hərtərəfli əhatəolunma, müxtəlif leksik və qrammatik vasitələrdən istifadə, mətnin həcm və quruluşunun uyğunluğu, tapşırıq xarakterli işlərdə buraxılmış boşluqları doldurma, əlavələr, cümlələrin ardıcıllığını gözləmə, açar sözlər əsasında cümləni genişləndirmə aid edilir.

Azərbaycan dili fənn kurikulumunun məzmun standartlarında yazı texnikası bacarıqlarından əlifba, qrafik işarələr, mətni köçürmə, imla yazma; məhsuldar bacarıqlardan isə müəyyən edilmiş məqsədə uyğun mətnin, planın tərtibi və s. öz əksini tapmışdır. Tapşırıq xarakterli yazılar (buraxılmış boşluqları doldurma, əlavələr etmə, cümlələri düzgün sıralama, açar sözlər əsasında cümləni genişləndirmə) isə dərslik komplektində, eləcə də təlim prosesində reallaşdırılır.

"Mövcud məktəb təcrübəsi göstərir ki, ibtidai siniflərdə rabitəli yazı bacarıqlarının inkişafı istiqamətində sistemli və ardıcıl iş aparılmır. Bu ondan irəli gəlir ki, sinif müəllimləri yazı bacarıqları adı altında, ilk növbədə, orfoqrafik bacarıqların formalaşdırılmasını nəzərdə tuturlar. Odur ki, üzündən köçürmə, buraxılmış orfoqrafik səhvlərin təshihi, müxtəlif növlü imla yazıların aparılması ilə müqayisədə ifadə, inşa, hekayə, esse kimi yaradıcılıq tələb edən işlərə az yer verilir"(6, səh.51). Eyni zamanda inşa, esse və s. yazıların yazılması ilə bağlı şagirdlərə əvvəlcədən prosedural biliklər verilmir. İnşa və ya essenin yazılması ilə bağlı aşağıdakı ardıcıllığı tövsiyə etmək olar:

- yazının planını tutmaq;
- yazacağı cümləlləri şifahi şəkildə səsləndirmək;
- qaralama yazmaq;
- yazını redaktə etmək;
- redaktə zamanı, tələb olunduqda yazıya əlavə sözlər artırmaq;
- bir daha nəzərdən keçirib,düzəlişlər aparmaq;
- mətni təqdim etmək.

Təlim prosesində göstərilən hər bir bənd üzrə şagirdlərlə müntəzəm iş aparılmalı, onlara istiqamət verilməlidir. Plan tərtib etmək üçün şagird əvvəlcə mövzunu seçməli, məqsədi müəyyən etməli, ona uyğun material toplamalı və sistemləşdirməlidir. Yazacağı məzmun artıq aydın olduqda, onu şifahi şəkildə səsləndirir. Beləliklə, bir daha özünə əminlik yaranır. Qaralamada yazmaq mətni redaktə etməyə imkan verir. Redaktə etmək üçün şagird orfoqrafik, qrammatik və durğu işarələrindən istifadə qaydalarını bilməlidir.

II sinif üçün "Azərbaycan dili" dərsliyində "Elan" adlı mətn verilib (7, səh.76). Elanın yazılması ilə bağlı bilikləri şagird mətndəki nümunəyə əsasən əldə edir. Müəllim üçün metodik vəsaitdə dərsin nəticə hissəsində elanın yazılma ardıcıllığı haqqında məlumat verilir:

1.Məlumatın adı. 2. Məlumatın vaxtı. 3. Əlavə məlumat. 4.Təşkilatçının adı (8, səh.99). Bizə elə gəlir ki, elanın yazılma ardıcıllığının, eləcə də digər yazı növlərinə dair prosedural biliklərin dərslikdə verilməsi daha məqsədəuyğundur, çünki şagird dərsliklə işləyir.

**Yazı strategiyadır.** "Dünyanın pedaqoji mənbələrində "oxu strategiyası", "yazı strategiyası", "danışıq strategiyası" və s. anlayışlar işlənməkdədir. Onlar daha çox metodikanı ehtiva

edərək, fənlərin tədrisi ilə bağlı məsələlərin şərhində istifadə olunmaqdadır" (2). Şagirdlərdə yazıya maraq oyatmaq, düzgün yazı vərdişləri formalaşdırmaq baxımından yazı strategiyaları mühüm əhəmiyyətə malikdir. Adətən, şagirdlər daha çox oxuya meyilli olur, yazmağa o qədər də həvəs göstərmirlər. Yazı strategiyalarından düzgün, səmərəli istifadə bu problemlərin aradan qalxmasına yardımçı olur. Yazı strategiyalarından bir necəsini təqdim edirik.

**"Arzular məktubu".** Şagirdlərdə yazılı nitqi inkişaf etdirməyin metodlarından biri də məktubdur. Məktub dedikdə, adətən, əməli yazı növü nəzərdə tutulur, lakin ibtidai siniflərdə bundan bir metod kimi istifadə etmək məqsədəuyğundur. Şagirdlərə hər gün arzu və istəkləri ifadə edən məktub yazmaq tövsiyə olunur. Bu məktublar əsərin qəhrəmanlarına, ailə üzvlərinə, dostlara və s. ünvanlana bilər. Şagirdlər bu yazı növü vasitəsilə öz hiss-həyəcanlarını ifadə edərkən, onlarda bədii-publisistik üslub formalaşacaqdır.

**Motivasiya yaratmaq.** Şagirdlərdə yazıya maraq yaratmaq üçün müəllim motivləşdirici metodlardan istifadə edə bilər. "Azərbaycan – vətənim mənim!" mövzusunda şagirdlərə 2 həftəlik layihə xarakterli yazı işi verilir. Layihə cütlərlə, qruplarla aparıla bilər. 2 həftə müddətində şagirdlər plan tərtib edir, araşdırma aparır, Azərbaycan haqqında materiallar toplayır, ümumiləşdirir və yazını ərsəyə gətirirlər. Bu iki həftə müddətində hər dərsdə qrup rəhbərləri və ya cütlər, təxminən 2–3 dəqiqə ərzində layihənin gedişatı ilə bağlı qısa şəkildə informasiya verirlər. Hər dərsdə 1–2 şagird dinlənilir. 2 həftədən sonra dəyirmi masa təşkil edilir. Şagirdlər öz yazılarını oxuyur və hər yazıdakı maraqlı fikirlər qeyd olunur. Müəllim sözlərin düzgün seçilməsinə, məqamında işlənməsinə, yazının üslubuna, tərtibinə diqqət yetirir. Həmçinin digər şagirdlər də münasibət bildirirlər. Sonda bu tədbirə bayram əhvali-ruhiyyəsi verilir. Şagirdlər layihənin uğurla başa çatmasını bir fincan meyvə şirəsi ilə qeyd edirlər. Bu, şagirdlərin növbəti layihələri həvəslə işləmələrinə stimul vermiş olur.

Layihə kimi başlamış bu yazılar sonra fərdi işə çevrilir. Hər şagird onu maraqlandıran mövzu ilə bağlı yazı hazırlayır. Bütün sinfin yazıları dəyirmi masa arxasında dinlənilir. Bu yazılar xarakterinə görə müxtəlif ola bilər: hekayə, esse və s. Nəticədə "Gənc yazarlar" klubunun təməli qoyulmuş olur. Şagirdərin uğurlu yazıları məktəb divar qəzetində, eləcə də mətbuatda dərc oluna bilər. Bu metodun ən önəmli cəhəti odur ki, yazı təkcə müəllim tərəfindən deyil, ictimaiyyət tərəfindən də dəyərləndirilir.

**"Mənim haqqımda hər şey".** Bu metoddan I–II siniflərdə istifadə etmək məqsədəuyğundur. Şagirdlər özlərinin və ailə üzvlərinin şəkillərindən plakat hazırlayır, burada yaşayış yeri, sevdikləri rəng, kitab, yeməklər barədə yazırlar.

III–IV sinifərdə isə bu iş **"Mənə özün haqqında danış."** başlığı altında davam etdirilir. Burada artıq onlar məktəb, dostlar, xoşladıqları fənlər və s. haqqında öz fikirlərini ifadə edirlər.

**Rəngli kodlardan istifadə.** Bu metoddan inşa yazının planının tərtibində, redaktə işinin aparılmasında, rəylərin hazırlanmasında istifadə edilir. Yazı zamanı müxtəlif rənglərdən istifadə etməklə şagird yazıdakı ardıcıllığı gözləyərək, fikirlərini sistemli şəkildə ifadə etmiş olur. Yazının hər bir hissəsi üçün fərqli rənglər müəyyən edilir. Rəy hazırlayanda təsdiq qırmızı, birinci səbəb yaşıl, ikinci bənövşəyi, sonluq isə göy rəngdə ola bilər.

Bu metod imkan yaradır ki, şagirdlər tapşırığı yerinə yetirərkən heç nəyi nəzərdən qaçırmasınlar, müəllim isə yazıları qaydalara uyğun olaraq, partalar arasında gəzərkən müşahidə etsin, yazını asan yoxlasın. Şagirdlər öz işlərini nümayiş etdirdikdə, hər bir bölməyə uyğun rəngli cümlələr vurğulanır .

**Gündə bir yeni söz.** Lüğət ehtiyatının zənginləşdirilməsi istiqamətində danışıq dilində işlək olmayan, fənlərə aid termin və ya sözlərdən hər gün bir söz barədə məlumat verilir və şagirdlər onu lüğət dəftərində qeyd edirlər. Beləliklə, tədricən hər gün şagirdlərin leksikonuna bir yeni söz daxil olur. Şagird şifahi və ya yazılı şəkildə fikrini ifadə edərkən nitqinin dolğun və məzmunlu olması üçün həmin sözlərdən istifadə edir.

**"Söz yarat.("Sözləri tap.")".** Bu metoddan məktəbəhazırlıq qrupunda və I siniflərdə istifadə edilməsi məqsədəuyğundur.Sait və samit hərflər cədvəldə göstərildiyi kimi yazılır (cədvəl 1).

Xanalara hər saitə aid birləşmələr yerləşdirilir. Bu cədvələ istinadən hər bir saitlə başlayan birləşmələrə bütün samitləri tətbiq etməklə 9 cədvəl tərtib olunur. Şagirdlər verilmiş cədvəllərdən sözləri tapırlar (cədvəl 2). Oyun xarakterli bu cədvəllər şagirdlərin lüğət ehtiyatının zənginləşməsinə, sözlərin düzgün yazılışına kömək edir. Bu cədvəllərdən müxtəlif məqsədlər üçün istifadə etmək olar:

1. Tapdığın sözləri cümlədə işlət.
2. Tapdığın sözləri mətndən seç.
3. Ad, əlamət, hərəkət bildirən sözləri qruplaşdır.

**cədvəl 1.**

| **sait** | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | **a** | **o** | **u** | **ö** | **ü** | **e** | **ə** | **i** | **ı** |
| **samit** | | | | | | | | | |
| **b** | **ab** | **ob** | **ub** | **öb** | **üb** | **eb** | **əb** | **ib** | **ıb** |
| **c** | **ac** | **oc** | **uc** | **öc** | **üc** | **ec** | **əc** | **ic** | **ıc** |
| **ç** | **aç** | **oç** | **uç** | **öç** | **üç** | **eç** | **əç** | **iç** | **ıç** |
| **d** | **ad** | **od** | **ud** | **öd** | **üd** | **ed** | **əd** | **id** | **ıd** |
| **f** | **af** | **of** | **uf** | **öf** | **üf** | **ef** | **əf** | **if** | **ıf** |
| **g** | **aq** | **og** | **ug** | **ög** | **üg** | **eg** | **əg** | **ig** | **ıg** |
| **ğ** | **ağ** | **oğ** | **uğ** | **öğ** | **üğ** | **eğ** | **əğ** | **iğ** | **ığ** |
| **h** | **ah** | **oh** | **uh** | **öh** | **üh** | **eh** | **əh** | **ih** | **ıh** |
| **x** | **ax** | **ox** | **ux** | **öx** | **üx** | **ex** | **əx** | **ix** | **ıx** |
| **j** | **aj** | **oj** | **uj** | **öj** | **üj** | **ej** | **əj** | **ij** | **ıj** |
| **k** | **ak** | **ok** | **uk** | **ök** | **ük** | **ek** | **ək** | **ik** | **ık** |
| **q** | **aq** | **oq** | **uq** | **öq** | **üq** | **eq** | **əq** | **iq** | **ıq** |
| **l** | **al** | **ol** | **ul** | **öl** | **ül** | **el** | **əl** | **il** | **ıl** |
| **m** | **am** | **om** | **um** | **öm** | **üm** | **em** | **əm** | **im** | **ım** |
| **n** | **an** | **on** | **un** | **ön** | **ün** | **en** | **ən** | **in** | **ın** |
| **p** | **ap** | **op** | **up** | **öp** | **üp** | **ep** | **əp** | **ip** | **ıp** |
| **r** | **ar** | **or** | **ur** | **ör** | **ür** | **er** | **ər** | **ir** | **ır** |
| **s** | **as** | **os** | **us** | **ös** | **üs** | **es** | **əs** | **is** | **ıs** |
| **ş** | **aş** | **oş** | **uş** | **öş** | **üş** | **eş** | **əş** | **iş** | **ış** |
| **t** | **at** | **ot** | **ut** | **öt** | **üt** | **et** | **ət** | **it** | **ıt** |
| **v** | **av** | **ov** | **uv** | **öv** | **üv** | **ev** | **əv** | **iv** | **ıv** |
| **y** | **ay** | **oy** | **uy** | **öy** | **üy** | **ey** | **əy** | **iy** | **ıy** |
| **z** | **az** | **oz** | **uz** | **öz** | **üz** | **ez** | **əz** | **iz** | **ız** |

**cədvəl 2. E saiti ilə başlayan birləşmələrin samitlərə tətbiqi**

| | | **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** | **10** | **11** | **12** | **13** | **14** | **15** | **16** | **17** | **18** | **19** | **20** | **21** | **22** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **1** | **b** | **eb** | **ec** | **eç** | **ed** | **ef** | **eg** | **eğ** | **eh** | **ex** | **ej** | **ek** | **eq** | **el** | **em** | **en** | **ep** | **er** | **es** | **eş** | **et** | **ev** | **ey** |
| **2** | **c** | **eb** | **ec** | **eç** | **ed** | **ef** | **eg** | **eğ** | **eh** | **ex** | **ej** | **ek** | **eq** | **el** | **em** | **en** | **ep** | **er** | **es** | **eş** | **et** | **ev** | **ey** |
| **3** | **ç** | **eb** | **ec** | **eç** | **ed** | **ef** | **eg** | **eğ** | **eh** | **ex** | **ej** | **ek** | **eq** | **el** | **em** | **en** | **ep** | **er** | **es** | **eş** | **et** | **ev** | **ey** |
| **4** | **d** | **eb** | **ec** | **eç** | **ed** | **ef** | **eg** | **eğ** | **eh** | **ex** | **ej** | **ek** | **eq** | **el** | **em** | **en** | **ep** | **er** | **es** | **eş** | **et** | **ev** | **ey** |
| **5** | **f** | **eb** | **ec** | **eç** | **ed** | **ef** | **eg** | **eğ** | **eh** | **ex** | **ej** | **ek** | **eq** | **el** | **em** | **en** | **ep** | **er** | **es** | **eş** | **et** | **ev** | **ey** |
| **6** | **g** | **eb** | **ec** | **eç** | **ed** | **ef** | **eg** | **eğ** | **eh** | **ex** | **ej** | **ek** | **eq** | **el** | **em** | **en** | **ep** | **er** | **es** | **eş** | **et** | **ev** | **ey** |
| **7** | **ğ** | **eb** | **ec** | **eç** | **ed** | **ef** | **eg** | **eğ** | **eh** | **ex** | **ej** | **ek** | **eq** | **el** | **em** | **en** | **ep** | **er** | **es** | **eş** | **et** | **ev** | **ey** |
| **8** | **h** | **eb** | **ec** | **eç** | **ed** | **ef** | **eg** | **eğ** | **eh** | **ex** | **ej** | **ek** | **eq** | **el** | **em** | **en** | **ep** | **er** | **es** | **eş** | **et** | **ev** | **ey** |
| **9** | **x** | **eb** | **ec** | **eç** | **ed** | **ef** | **eg** | **eğ** | **eh** | **ex** | **ej** | **ek** | **eq** | **el** | **em** | **en** | **ep** | **er** | **es** | **eş** | **et** | **ev** | **ey** |
| **10** | **j** | **eb** | **ec** | **eç** | **ed** | **ef** | **eg** | **eğ** | **eh** | **ex** | **ej** | **ek** | **eq** | **el** | **em** | **en** | **ep** | **er** | **es** | **eş** | **et** | **ev** | **ey** |
| **11** | **k** | **eb** | **ec** | **eç** | **ed** | **ef** | **eg** | **eğ** | **eh** | **ex** | **ej** | **ek** | **eq** | **el** | **em** | **en** | **ep** | **er** | **es** | **eş** | **et** | **ev** | **ey** |
| **12** | **q** | **eb** | **ec** | **eç** | **ed** | **ef** | **eg** | **eğ** | **eh** | **ex** | **ej** | **ek** | **eq** | **el** | **em** | **en** | **ep** | **er** | **es** | **eş** | **et** | **ev** | **ey** |
| **13** | **l** | **eb** | **ec** | **eç** | **ed** | **ef** | **eg** | **eğ** | **eh** | **ex** | **ej** | **ek** | **eq** | **el** | **em** | **en** | **ep** | **er** | **es** | **eş** | **et** | **ev** | **ey** |
| **14** | **m** | **eb** | **ec** | **eç** | **ed** | **ef** | **eg** | **eğ** | **eh** | **ex** | **ej** | **ek** | **eq** | **el** | **em** | **en** | **ep** | **er** | **es** | **eş** | **et** | **ev** | **ey** |
| **15** | **n** | **eb** | **ec** | **eç** | **ed** | **ef** | **eg** | **eğ** | **eh** | **ex** | **ej** | **ek** | **eq** | **el** | **em** | **en** | **ep** | **er** | **es** | **eş** | **et** | **ev** | **ey** |
| **16** | **p** | **eb** | **ec** | **eç** | **ed** | **ef** | **eg** | **eğ** | **eh** | **ex** | **ej** | **ek** | **eq** | **el** | **em** | **en** | **ep** | **er** | **es** | **eş** | **et** | **ev** | **ey** |
| **17** | **r** | **eb** | **ec** | **eç** | **ed** | **ef** | **eg** | **eğ** | **eh** | **ex** | **ej** | **ek** | **eq** | **el** | **em** | **en** | **ep** | **er** | **es** | **eş** | **et** | **ev** | **ey** |
| **18** | **s** | **eb** | **ec** | **eç** | **ed** | **ef** | **eg** | **eğ** | **eh** | **ex** | **ej** | **ek** | **eq** | **el** | **em** | **en** | **ep** | **er** | **es** | **eş** | **et** | **ev** | **ey** |
| **19** | **ş** | **eb** | **ec** | **eç** | **ed** | **ef** | **eg** | **eğ** | **eh** | **ex** | **ej** | **ek** | **eq** | **el** | **em** | **en** | **ep** | **er** | **es** | **eş** | **et** | **ev** | **ey** |

| | | | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **20** | **t** | **eb** | **ec** | **eç** | **ed** | **ef** | **eg** | **eğ** | **eh** | **ex** | **ej** | **ek** | **eq** | **el** | **em** | **en** | **ep** | **er** | **es** | **eş** | **et** | **ev** | **ey** |
| **21** | **v** | **eb** | **ec** | **eç** | **ed** | **ef** | **eg** | **eğ** | **eh** | **ex** | **ej** | **ek** | **eq** | **el** | **em** | **en** | **ep** | **er** | **es** | **eş** | **et** | **ev** | **ey** |
| **22** | **y** | **eb** | **ec** | **eç** | **ed** | **ef** | **eg** | **eğ** | **eh** | **ex** | **ej** | **ek** | **eq** | **el** | **em** | **en** | **ep** | **er** | **es** | **eş** | **et** | **ev** | **ey** |
| **23** | **z** | **eb** | **ec** | **eç** | **ed** | **ef** | **eg** | **eğ** | **eh** | **ex** | **ej** | **ek** | **eq** | **el** | **em** | **en** | **ep** | **er** | **es** | **eş** | **et** | **ev** | **ey** |

Deyilənlərdən bu qənaətə gəlmək olar ki, ibtidai siniflərdə təlim prosesində bu istiqamətdə müntəzəm iş aparılarsa, şagirdlərdə ilkin yazılı nitqin, yazı mədəniyyətinin formalaşmasına nail olmaq mümkündür.

**Ədəbiyyat**


**1.** Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı: "Təhsil", 2008.

**2.** Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları).2010.http://edu. gov.az/ upload/-file/tehsil-pillesinin-dovlet-strandartlari-ve-proqramlari.pdf

3. Abbasov Ə. M. Ümumi təhsilin bəzi pedaqoji məsələlərinə dair. Ümumtəhsil fənlərinin tədrisinə dair tədqiqlər kitabı, Bakı: "Vahid-M" MMC, 2017.

4. Abdullayev N.Ə.. Nitq mədəniyyətinin əsasları. Dərs vəsaiti. Bakı, 2013.

**5.** Adilov M.İ., Verdiyeva Z.N., Ağayeva F.M. İzahlı dilçilik terminləri. Bakı, 1989.

6. Hacıyev A. X. Azərbaycan dili dərslərində şagirdlərin yazı bacarıqlarının formalaşdırılması üzrə işin sistemi. Bakı: "Kurikulum", 2017, № 4.

**7.** İsmayılov R., Orucova G,, Xəlilov Z., Cəfərova D.Azərbaycan dili – 2. (dərslik) Bakı, 2014.

8. Orucova G., Qaragözova N., İsmayılov R., Xəlilov Z.. Azərbaycan dili – 2. (müəllim üçün metodik vəsait). Bakı, 2014.

9. Леонтьев А.А. Язык, речь, речевая деятельность. Москва: «Просвещение», 1969.

10. Словарь Л.С. Выготского (*Авторский коллектив: Е.Н. Высоцкая, А.А. Леонтьев, Ю.В. Новожилова, А.В.Степаносова,Ю.А.Стороженко,Л.Требунская, И.С.Уточкин, С.Г.Чернацкий, В.Ю.Шевяхова,В.Ю. Штратникова* ). Москва, 2007.

11. Стилистический энциклопедический словарь русского языка /под ред. М.Н. Кожиной) (члены редколлегии: Е.А. Баженова, М.П. Котюрова, А.П. Сковородников. 2-е изд., испр. и доп. Москва: «Флинта»: Наука, 2006.

12. www.edu.gov.qa/Ar/SECInstitutes/EducationInstitute/CS/English/.../13.pdf


**О РАЗВИТИИ ПИСЬМЕННЫХ НАВЫКОВ В НАЧАЛЬНЫХ КЛАССАХ**

**резюме**


В статье подчеркивается, значимость письменной речи как жизненного навыка. Отмечается, что, несмотря на то, что преподаванию азербайджанского языка в начальных классах уделяется много часов, ученики затрудняются излагать свое мнение в письменной форме. В статье исследуются причины, создающие данные проблемы и способы их преодоления. Автор приходит к выводу, что при использовании соответствующих стратегий письма в процессе обучения можно развить письменную речь учеников.


**ON THE DEVELOPMENT OF WRITTEN SKILLS IN THE INITIAL CLASSES**

**summary**


The article emphasizes that writing speech is important as a vital skill. It is noted that, despite the fact that there are many hours devoted to the teaching of Azerbaijani in elementary grades, the students have difficulty expressing their views in writing. The reasons for these problems and ways to eliminate them are reflected in the article. The author concludes that if the writing strategies are used in the learning process, it is possible to develop the pupils' written speech.

# IV SİNİFDƏ DİNLƏMƏ MƏTNLƏRİ, TƏLİM MƏQSƏDLƏRİ, MƏZMUN VƏ METODLARI

**Vaqif Qurbanov,**
ADPU-nun dosenti, pedaqogika üzrə elmlər doktoru;
**Nərgiz Ramizzadə,**
ADPU-nun doktorantı



**Açar sözlər:** dinləmə mətnləri, təlimin məzmunu, məqsəd və vəzifələr, iş üsulları, vasitələr, gözlənilən nəticə, son nəticə;

**Ключевые слова:** тексты слушания, содержание обучения, цели и задачи, способы, ожидаемые результаты, окончательные результаты;

**Key words:** listening texts, learning content, objectives, ways, expected results, final results.

Linqvometodistlər vaxtilə demişlər: «Dinləməsən, anlamaz, anlamasan danışa bilməzsən». Çox ibrətamiz fikirdir.

IV sinif müəllimi üçün vəsaitdə dinləmə mətnlərinin təlim məqsədləri, standartları, habelə həcmi, məzmunu və mətnlərin metodikası haqqında nə demək olar?

İlk öncə onu qeyd etməliyik ki, dinləmə mətnlərindən istifadə standartlarda "Dinləmə-anlama və danışma" məzmun xəttində nəzərdə tutulmuşdur. Belə məsələlərin dərsliklərdə deyil, metodik vəsaitlərdə verilməsi onların dərsliyə əlavə mətn kimi nəzərdə tutulması ilə əlaqədardır.

Dinləmə mətnləri əsas mətnlə ideya, məzmun və mündəricə etibarilə bağlı olub, gücləndirici, maraqyaradıcı, təlqinedici rol oynayır. Əsas mətn üzərində gedən işdə ondan katalizator kimi istifadə olunur ( reaksiyaya girmir, lakin onun gedişini sürətləndirir).

IV sinifdə belə mətnlərin mövzularından ən nümunəvi hesab etdiklərimizi göstərməklə təhlilini verək:

«İdman terminləri» (əsas mətn: «Futbol topu»), («Qocalar və uşaqlar»), «Hörümçək adam» (əsas mətn: «Hörümçək adam»), «Alim və cahil» («Ruminin məsləhəti»), «Bu gün» («Bağışlayın, uşaqlar, gecikmişəm»), (əsas mətn: «Bu gün»), «Bir ovuc torpaq» (əsas mətn: «Nehrə»), («Kiçik summativ qiymətləndirmə»), «Eybəcər şəkillər», «Sözün yeri» (əsas mətn: «Az danışmağın gözəlliyi»), «Dərviş və yolçu» ( «Sözün qüdrəti»), «Qanadlı sözlər» (əsas mətn: «Heydər Əliyevin kəlamları»), «Həsən paşa ilə keçəl Həmzənin dialoqu» («Çünki oldun dəyirmançı»), «Qırat gedib, Dürat durur.» (əsas mətn: «Çünki oldun dəyirmançı»), «Söz dəyirmandakıdır» (əsas mətn: «Söz dəyirmandakıdır»), «Qədim yunan alimləri» (əsas mətn: «Qədim yunan sözləri»), «Qədim vahidlər» (Əsas mətn: «Öz arşınınla ölçmə»), «Ayağını yorğanına görə uzat.» (əsas mətn: «Hər şey sənin əlindədir.»), «Timsahın göz yaşları» (əsas mətn: «Kiçik summativ qiymətləndirmə»), «Atanın üç məsləhəti» (əsas mətn: «Atanın üç məsləhəti»), «Şair və əkinçi» (əsas mətn: «Qurucu»), «Dinləmə» (əsas mətn: «Bir boşqab», «Bir tikə çörək» (əsas mətn: «İlk dərs»), «Sevda» (əsas mətn: «Hazır yuva»), «Quşların xatirinə» (əsas mətn: «Kiçik summativ qiymətləndirmə»), «Cücə və xoruz» (əsas mətn: «Niyə?»), «Üzüm» (əsas mətn: «Meynə niyə ağlayır?»), «Ağacların yarpaqları niyə tökülür?» (əsas mətn: «Üşümürmü görəsən?»), «Qış günü» (əsas mətn: «Üşümürmü görəsən?»), «Yarasa» (əsas mətn: «Yarasa nə üçün gecə ova çıxır?»), «İlan zəhəri» (əsas mətn: «İlanlar niyə rəqs edirlər?»), «Oksigen» (əsas mətn: «Dünyagörmüş baba»), «Dünyanın möcüzələri» (əsas mətn: «Dünyanın möcüzələri»), «Doğrudanmı herostat?» (əsas mətn: «Möcüzələr niyə yox olur?»), «İman və sədaqət» (əsas mətn: «Zəmzəm

suyu»), «Çini qablar» (əsas mətn: «Güzgünün tarixi»), «Sincab» (əsas mətn: «Bağban sincab»), «Quduzluq nədir?» (əsas mətn: «Qan qardaşlığı»), «Tək ağac» (əsas mətn: «Qonur ayı»), «İlanlar» (əsas mətn: «Mauqlinin dostları»), «Dinləmə» (əsas mətn: «Kiçik summativ qiymətləndirmə»), «Soyuq gündə» (əsas mətn: «Suallar, cavablar»), «Pişiyin qohumları» (əsas mətn: «Çil toyuq»), «Badam» (əsas mətn: «Gülgəz»), «Tağı» (əsas mətn: «Papaq»), «Akvarium balıqları» (əsas mətn: «Qızıl balıq»), «Sağsağan yumurtası» (əsas mətn: «Sağsağan nə axtarırdı?»), «Tap görüm» (əsas mətn: «Yaz»), «Vicdan» (əsas mətn: «Məni itirməyin»), «İki qardaş» (əsas mətn: «Buz»), «Kudu və çinar» (əsas mətn: «Çinar ağacı»), «Qütblər» (əsas mətn: «Çiçək–yeddi rəng ləçək»), «Təmənnasız yaxşılıq» (əsas mətn: «Yaxşılığın əvəzi»), «Dinləmə» (əsas mətn: «Dəvə və fil»), «İki kotan» (əsas mətn: «Zəhmət və zinət»), «Qoca və səyyah» (əsas mətn: «Kiçik summativ qiymətləndirmə»), «Kainat» (əsas mətn: «Qəza»), «Atmosfer nədir?» (əsas mətn: «Kainatın sözləri»), «Dinləmə» (əsas mətn: «Məktəbdə»), «Azərbaycanla bağlı rekordlar» (əsas mətn: «Məktəbdə»), «İnternet» (əsas mətn: «Virtual əlaqə»), «Bürclər» (əsas mətn: «Həftə sonu»), «Çin horoskopu» (əsas mətn: «Həftə sonu»), «Kosmonavtikanın tarixi» (əsas mətn: «Vida»), «Günəş və Ay» (əsas mətn: «Kiçik summativ qiymətləndirmə») [Bax:2, 17-240]. Bunlar «Ailə və məktəb», «Niyə belə deyirik?», «Zəhmətsevərlik»,«Yüz min niyə»,«Dostluq»,«Ana təbiət», «Əxlaqi dəyərlər», «Kainatın sirləri» bölmələri üzrə olan mətnlərdir.

8 qiymətli anlayışı əhatə edən bu mətnlərin ümumtəhsil, tərbiyə və inkişafetdiricilik əmsalları çox yüksəkdir.

Biz dərslikdə oxu materialı kimi nəzərdə tutulan mətnlərdən 85-90 faizinin dinləmə mətni olduğunu sübut etmək üçün bunları bir-bir sadalamalı olduq. Həmin dinləmə materialları dərslikdə deyil, müəllim üçün metodik vəsaitdə (MMV-də) göstərilmişdir. Bunlar metodistin (tərtibçinin) yaradıcılığına bir sübutdur. III sinif üzrə müəllim üçün metodik vəsaitdə isə bunlar yoxdur.

Metodist dinləmə materialı kimi oxu, yazı, dil qaydaları, eyni zamanda motivasiya, müzakirə, debat, nəqletmə, söz ehtiyatı, özünüifadə, qiymətləndirmə, müəllimin nəzərinə və s. metodik strateji vasitələrlə dilin ictimai və digər funksiyalarını həyata keçirən, o cümlədən, informativ, linqvistik tənzimləmə tapşırıqlarıdır.

Bizim tədqiqat mövzumuz dinləmə materialları olduğundan, hesab edirik ki, dil təlimində dinləmə əsas və aparıcı strateji istiqamətdir, çünki onsuz anlama və danışma, sual-cavab, yazı bacarıqlarının aşkarlanması mümkün deyil. Təhlillərimizdən bu nəticəyə gəlirik ki, IV sinifdə dinləmə materiallarının həcmindən şikayət etmək olmaz. Dinləmə mətnləri əsas mətnlərlə ideya və məzmunca səsləşir. İkincisi, dinləmə mətnləri lazımi elmi informasiya mənbəyi kimi səciyyələnir.Üçüncüsü, bunlar dinləmə standartları ilə ahəngdar olub, onları reallaşdırmağa xidmət göstərir. Standartlara fikir versək, onların da həcmi kifayət qədərdir.

Məsələn: şagird:

1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.

1.1.1. Dinlədiyi eyni məsələ barədə müxtəlif fikirləri ümumiləşdirməklə yekun rəy bildirir.

**Təlim məqsədləri:**

• Dinlədiyi mətnlərdəki eyni faktlara aid müxtəlif fikirləri ümumiləşdirir.

• Dinlədiyi əsərdəki obraz və hadisələr haqqında müxtəlif fikirləri ümumiləşdirərək, yekun nəticəyə gəlir.

• Dinlədiyi elmi məlumatları ümumiləşdirərək, qrafik informasiya şəklində təqdim edir.

• Dinlədiyi eyni mövzuda müxtəlif elmi məlumatları ümumiləşdirərək məruzə edir.

• Dinlədiyi mətnlər arasında ideya yaxınlığını müəyyən edir.

• Dinlədiyi nəticələrdən məlumatları müqayisə edir və ümumiləşdirir.

• Dinlədiyi fikirləri həyatda gördükləri ilə əlaqələndirərək, mühakimə xarakterli fikirlər irəli sürür.

• Debat zamanı qarşı tərəfin fikirlərini ümumiləşdirərək əks arqumentlər gətirir.

• Eyni məsələ barədə müxtəlif fikirlərdən düzgün olanını göstərir və əsaslandırır.
• Dinlədiyi nəticələrdəki məlumatları sistemləşdirir (təsnifatını aparır).
• Dinlədiyi fikirlə bağlı dəlilləri müqayisə etməklə yekun rəy bildirir.

1.1.2. Dinlədiyi fikirləri inkişaf etdirir.

**Təlim məqsədləri**:

• Dinlədiyi elmi-kütləvi mətni topladığı məlumatlarla zənginləşdirir.
• Dinlədiyi mətnə ixtisar və əlavələr etməklə məzmununu yaradıcı şəkildə şərh edir.
• Dinlədiyi mətnə öz fikirlərini əlavə etməklə onu genişləndirir.
• Dinlədiyi mətni məntiqi sonluqla bitirir.
• Dinlədiyi mətndəki fikirləri genişləndirərək şərh edir.
• Dinlədiyi mətnə öz düşüncələrini əlavə etməklə araşdırma xarakterli təqdimatlar edir.
• Dinlədiyi mətndə natamam qalmış məlumatı öz versiyası ilə tamamlayır.
• Dinlədiyi şeri nəsrə çevirərək, öz əlavələri ilə davam etdirir.

Məzmun standartları dinləmənin nə qədər zəruri strateji məqsədlər üçün nəzərdə tutulduğundan xəbər verir, lakin qarşıya suallar çıxır. Görəsən, bunlar yalnız dinləmə mətnləri ilə iş görərkən həyata keçirilməli olan tədbirlərdir, ya əsas mətnlərə də bilavasitə aiddir?! Bizim qənaətimizə görə, dinləmə ilə bağlı standartlar, ümumiyyətlə, mətn üzrə işə aiddir. Xüsusi olan, əlavə mətn kimi adlandırılanlara da aid olmaq şərti ilə qəbul edilməlidir. Elə isə əsas mətni dinləmə hesab etməməyə heç bir əsas qalmır. Deməli, «dinləmə mətni» əvəzinə «əlavə mətn» desək, daha düzgün olar. Biz bu fikrimizi metodist alimlərlə belə bölüşdük:

Sual: – Sizcə, «dinləmə mətni» adı düzgündürmü?

Cavab: – MMV-də iş növlərinin adlarından biri belədir.

Sual: – Siz hesab edirsinizmi ki, bu mətnlərin məqsədi ilə adlandırılması arasında uyğunsuzluq yoxdur?

Cavab: – Uyğunsuzluq var. O mənada uyğunsuzluq var ki, dinləmə standartları yalnız onlara deyil, əsas mətnə də aiddir.

Sual: – Elə isə «dinləmə» termini əvəzinə, «əlavə» sözünü işlətmək daha məntiqli olmazdımı?

Cavab:– Əlbəttə. Dinləmə mətni əsas mətnə əlavədir. Hesab edirik ki, əlavə çalışmalar inkişafetdirici xarakter daşımalıdır, çünki onlar mətn xarakterlidir.

Belə çalışmalar ya biliyin möhkəmləndirilməsi, ya dərinləşdirilməsi, ya da sistemə salınması məqsədi daşımalıdır. Metodist həmkarlarımızın sözləri ilə nəinki razıyıq, hətta həmrəyik, çünki biz də bu fikirdəyik. Məsələ orasındadır ki,*dinləmə mətni* əvəzinə MMV-də *əlavə dinləmə mətni* işarə olunmalı idi. Belə ki, dinləmə standartları içərisindən bir çoxu real obyektiv gerçəkləşmə xarakteri daşımır. Eyni zamanda onu da deyək ki, «1.1.2.–Dinlədiyi fikirləri əlavələri ilə inkişaf etdirir» standartını dinləməyə aid etmək o qədər də inandırıcı deyil, çünki həmin standartlar belədir: «Dinlədiyi mətnləri məntiqi sonluqla bitirir». Məgər məzmunca elə mətn var ki, orada süjetsizlik və ya rabitəsizlik hiss olunsun? Axı bizim qeyd etdiyimiz dinləmə mətnlərinin hər biri əsas mətn qədər informativ məna yükünə malikdir. Onları başqa bir sonluğa çatdırmağa nə ehtiyac var?

Nəzərə alsaq ki, dinləmə mətnlərinin əksəriyyəti elmi üslubdadır («Dünyanın möcüzələri», «İlanlar», «Akvarium», «Atmosfer nədir?», «Kainat», «Kosmonavtikanın tarixi», «İnternet», «Virtual əlaqə», «Günəş və Ay», «Dünyanın horoskopu», «İman və Sədaqət» və s. mətnlərin özü əlavədir), deməli, onlara əlavələri məntiqi tələb hesab etmək düzgün deyil. Əlbəttə, burada versiya ilə qurulmalı məqamlar da yox deyildir. Bədii üslubda olan «Alim və cahil», «Səyyah və bələdçi», «Dərviş və yolçu», digər dinləmə mətnləri üzrə debatları istisna etmirik. Həmin mətnləri əsl debata, yəni məzmunun istiqamətini dəyişib, mətni inşaya çevirməyə ehtiyac var və belə də etmək lazımdır. Belə hallar inkişafetdirici-tərbiyəedici məqsədlər daşıyır. Biz onların üstünlüklərini eksperimentlərimizlə yoxlamağı, sınaqlardan keçirməyi nəzərdə tutmuşuq. Odur ki, həmkarlarımıza bu fərziyyələri nəzərə almağı məsləhət bilirik:

1. Dinləmə mətnlərinin üzərində inkişafetdirici məqsədlə əməliyyatlar aparılarsa, şagirdlər yeni variantları mövcud olanlarla müqayisə etsələr, bu bacarıqlar onlarda yaradıcı təfəkkürü inkişaf etdirər.

2. Dinləmə mətnləri üzərində aparılan rekonstruksiya əməliyyatları şagirdlərin yazılı nitqinin inkişafına səbəb olar.

3. Dinləmə materialı ilə əsas mətnin ümumi və fərqli cəhətlərinin müqayisə obyektinə çevrilməsi şagirdlərin məntiqi təfəkkürünün inkişafına şərait yaradır.

4. Dinləmə mətnləri üzərində sadə quruluşlu təfəkkür əməliyyatları şagirdlərin nitqini və təfəkkürünü inkişaf etdirir, dünyagörüşünün genişləndirilməsinə güclü təsir göstərir.

5. Müəllimlərə tövsiyəmiz budur: şagirdlərin dərslikdəki dinləmə mətnlərini yadda saxlamaları üçün müxtəlif forma və vasitələrdən istifadə olunmalıdır. Bunlar atalar sözləri, məsəllər, müdrik kəlamlar, poetik nümunələr, yəni nəzm, nəsr parçaları ola bilər. Ənənəvi təhsildə bunlar var idi və tələb olunurdu. Müasir standartlarda isə "əzbər söyləmə" standartı olmadığına görə, «Azərbaycan–Türkiyə», «Alim və cahil», «Tək ağac», «Azərbaycanla bağlı rekordlar» və s. mətnlərin yadda saxlanılmasına biganə qalmaq olmaz.

6. Müəllimlərimiz standartlara yaradıcı yanaşmalı, onların əsiri olmamalıdırlar. Həmişə yaradıcı düşünməlidirlər. Unutmayaq ki, Azərbaycan dili kurikulumu nitq yönümlüdür.

Beləliklə, biz fərziyyələrimizi qabaqcıl sinif müəllimləri ilə bölüşdüyümüzdən geniş planda tətbiq olunmasını məsləhət bilirik.

**Nəticə**: Nitq danışmaq və yazmaq deməkdir. İnkişaf isə mövcud səviyyədən daha yüksəyə qalxmağı tələb edən mərhələdir.«Nitq inkişafı» ifadəsi müasir dövrdə daha aktual səslənir. Dərsliklərimiz nitq materialı ilə başlanır və davam edir. Dil materialları isə ədəbi dilin normalarına uyğun nitqə yiyələnmək məqsədi ilə öyrənilir.

Azərbaycan dilindən öyrənilən materialların hər biri istər ünsiyyət, istərsə də linqvistik funksiyaya məxsus məzmun olsun, dil və təfəkkürün qarşılıqlı vəhdəti, mübarizəsi zəminində baş verir, çünki hər bir sözün mənası və formasına fikir verilməlidir. Deyilən sözün mənası dərin, ifadə forması aydın, səlis olmalıdır. Təfəkkürün inkişafı olmadan nitq inkişaf edə bilməz. Danışıq şifahi nitqin ədəbi tələffüz normaları ilə, yazılı nitq orfoqrafik normalarla tənzimlənməlidir. Buna müəllim də, tələbə də, şagird də əməl etməlidir. Onu da yadda saxlamaq lazımdır ki, mədəni nitq müasir insanın ən yaxşı göstəricisidir. Mədəni insan nitqini inkişaf etdirməyə, yəni zənginləşdirməyə daim diqqət yetirməlidir, çünki *söz nitqin əsasıdır.*

Nitqi zənginləşdirmək üçün dərsliklərimizdə atalar sözləri, məsəllər, müdrik kəlamlar, tapmaca, bayatı, laylalar və s. geniş miqyasda istifadə olunur. Şagirdlərin nitqini bədii, elmi, kütləvi, məişət və s. üslublarda olan sözlərlə zənginləşdirmək lazımdır. Əlifba təlimindən başlayaraq, uşaq ədəbiyyatı nümunələrinin nitqə daxil edilməsi bununla əlaqədardır.

Nitqlərinin zəngin olmasını istəyən insanlar klassik Azərbaycan ədəbiyyatı, tarixi, coğrafiyası, musiqisi və s. nümunələrlə, bir sözlə, nadir incilərlə öz nitq ehtiyatlarını artırmaq qayğısına qalmalıdırlar, çünki bu, təfəkkürü dərinləşdirir, dünyagörüşünü genişləndirir.

**Ədəbiyyat**

1. Azərbaycan dili. IV sinif. (dərslik). Bakı: "Altun kitab", 2018.
2. Azərbaycan dili. IV sinif. (müəllim üçün metodik vəsait). Bakı: "Altun kitab", 2018.

**ТЕКСТЫ ПРОСЛУШИВАНИЯ В IV КЛАССЕ ЦЕЛИ ОБУЧЕНИЯ, СОДЕРЖАНИЕ И МЕТОДЫ**

**резюме**

В статье речь идет о текстах прослушивания в IV классе. Прослушивание текстов является одной из наиболее предусмотренных задач в методических пособиях для учителей (МПУ) по азербайджанскому языку. Стандарты находят свое выражение по-разному, наряду с целями обучения. В целом, учебный план по азербайджанскому языку считается целевым выслушиванием.

По нашему мнению, стандарты прослушивания контента в МПУ напрямую связаны как с основным текстом, так и с текстом аудита. Слушание – это очень широкое понятие. Здесь результат сравнивается со сравнением, и цель состоит в том, чтобы расширить кругозор студента путем развития мышления и речи студента.

**LISTENING TEXTS IN CLASS IV LEARNING OBJECTIVES, CONTENT AND METHODS**

**summary**

Listening to texts in class IV: learning objectives, content and methods Listening to texts IV class is one of the most foreseen tasks in the methodological manuals for teachers (MPU) in the Azerbaijani language. Standards are expressed in different ways, along with learning objectives. In general, the curriculum for the Azerbaijani language is considered to be heard.

In our opinion, standards for listening to content in MPU are directly related to both the main text and the text of the audit. Hearing is a very broad concept. Here the result is compared with the comparison, and the goal is to broaden the student's mind by developing the student's thinking and speech.

# ŞAGİRDLƏRDƏ MUSİQİ DUYUMUNUN İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

**Sevda Alxasova,**
Azərbaycan Respublikası Təhsil İnstitutunun
aparıcı mütəxəssisi
sevda.alxsv@mail.ru



**Açar sözlər:** musiqi, musiqi duyumu, xor ifası, yaradıcı mühit;
**Ключевые слова:** музыка, музыкальный слух, хоровое пение, творческая сфера;
**Key words:** music, music sensation, xorus played, creative environment.

Musiqi bədii düşüncənin xüsusi bir formasıdır.Hər bir insan dünyaya göz açdığı ilk günlərdən etibarən musiqi ilə təmasda olub, onun sədaları altında böyüyərək kamilləşir. Musiqi – gerçək aləmi xoşa gələn səslər vasitəsilə əks etdirən incəsənət növüdür.Digər incəsənət növləri ilə yanaşı, musiqi də böyük bədii ifadə gücünə malik olub, insanın mənəvi aləmini – onun sevincini, kədərini, arzu və düşüncələrini, həyat uğrunda mübarizəsini bədii obrazlarla əks etdirir. İnsanın mənəviyyatına müsbət təsir göstərən ifadə vasitələrindən ən əhəmiyyətlisi musiqidir. Musiqiyə əbəs yerə "ruhun qidası" demirlər. Sadə dillə desək, musiqi insanların əsəblərini sakitləşdirməkdə, onların agrı-acılarını unutdurmaqda əvəzsiz vasitədir. Eyni zamanda, insanın bədii təfəkkürünün inkişafında, musiqi zövqünün formalaşmasında, dünyagörüşünün artmasında onun rolu boyükdür.

Musiqi haqqında bu və ya digər dəyərli fikirləri öyrəndikdə belə qənaətə gəlmək olar ki, hər bir insanın həyatında musiqi mühüm yer tutur. Yaşından, cinsindən, milliyyətindən asılı olmayaraq hər kəs musiqini əvvəl dinləyir, duyur və sonra onu sevib-sevmədiyi barədə fikir yürüdür. Bu baxımdan insanın musiqini sevməsi, onun haqqında müəyyən fikir yürütməsi üçün mütləq müəyyən bacarıqları olmalıdır. Bunlardan biri və demək olar ki, ən əsası musiqi duyumudur.

İnsanda musiqi duyumu lap uşaqlıqdan formalaşır. Musiqi duyumu ilk olaraq beşikdə, ana laylasının sədaları altında uyuyan körpədə yaranmağa başlayır. Sonralar uşaq böyüyür, məktəb yaşına çatır və musiqi duyumu daha geniş şəkildə formalaşır. Ümumiyyətlə, hər bir insanda yaranışdan müəyyən qədər musiqi duyumu olur, lakin bu, özünü kimdəsə tam, yaxud qismən büruzə verir. Musiqi duyumu zəif olan uşaqlarda onu inkişaf etdirmək zaman və səbr tələb edir. Musiqi duyumu güclü olan uşaqlara isə müəyyən istiqamət verərək, daha yaxşı nəticələr əldə etmək mümkündür. Ona görə də ibtidai siniflərdən başlayaraq uşaqlarda musiqi duyumunu inkişaf etdirmək müəllimin üzərinə düşən ən mühüm vəzifələrdən biridir.

Musiqi duyumunu inkişaf etdirməyin müxtəlif yolları vardır. Bunlardan ibtidai sinif şagirdləri üçün mühüm və əlverişli olan yollar aşağıdakılardır:

• repertuarın düzgün seçilməsinin musiqi duyumunun inkişafına təsiri;
• xor şəklində oxunun musiqi duyumunun inkişafına təsiri;
• musiqi dərslərinin xoş və yaradıcı mühitdə təşkilinin musiqi duyumunun inkişafına təsiri.

**1. Musiqi dərslərində repertuarın düzgün seçilməsinin musiqi duyumunun inkişafına təsiri.** Antik dövrün filosofları musiqinin bədii təsir gücünü yüksək qiymətləndirmişlər. Aristotel gənclərə musiqi alətində çalmağı, oxumağı öyrətməklə onların mənəvi kamilliyə çatmalarında, cəmiyyətin nəcib, saf üzvlərinə çevrilmələrində müvafiq tərbiyənin rolunu xüsusi qeyd etmişdir.

Musiqi tərbiyəsi estetik tərbiyənin əsas tərkib hissələrindən biri olub, insanda yüksək bədii-estetik zövqün, zəngin düşüncə tərzinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Musiqini dinləmək, hiss etmək, duymaq, onun haqqında öz fikirlərini söyləmək bacarığını uşaqlara erkən yaşlardan aşılamaq estetik tərbiyənin vacib şərtlərindən biridir. Musiqi tədrisi prosesində şagirdlərdə yüksək bədii-estetik zövq formalaşdırılmalıdır ki, onlar eşitdikləri mövcud musiqi "bolluğu" axınında insanı mənən zənginləşdirən yüksək bədii keyfiyyətli sənət nümunələrini düzgün seçə bilsinlər.

Mahnının dərsdə öyrədilməsi prosesində müəllim çalışmalıdır ki, melodiya ifadəli səslənsin və müəllifin bədii fikri məktəblilərə aydın olsun. Mahnını uşaqlara təqdim etməzdən əvvəl müəllim onun üzərində işləməlidir.Yəni onun melodiyası və sözləri öyrənilməli, əsər üzərində işin planı müəyyənləşdirilməli, melodiyanın xüsusiyyətləri və çətin ifa olunan yerləri aydınlaşdırılmalıdır. Mahnı səsləndirilərkən uşaqlar həmin əsərin obrazını təsəvvürlərində yarada bilməlidirlər. Ona görə də mahnı ilk dəfədən professional səsləndirilməlidir. Əgər mahnını müəllim ifa edirsə, onun səsi və ifası təmiz olmalıdır. Mahnı səsləndirildikdən sonra müəllim ona məktəblilərin münasibətini öyrənməlidir. Məktəblilər eşitdikləri mahnı haqqında, adətən, belə deyirlər: "yaxşıdır", "pisdir", "xoşumuza gəldi" və ya "xoşumuza gəlmədi". Əgər mahnı səsləndirilərkən uşaqlar sakit oturur, diqqətlə qulaq asır və simaları ifadəli olursa, bu, mahnıya xoş münasibəti göstərir. İlk dəfədən mahnının uşaqların xoşuna gəlməməsi həmin mahnını öyrənmək lazım olmadığı demək deyidir. Çox zaman belə mahnıları uşaqlar dərs prosesində tədricən bəyənirlər və sonradan onlarin sevimli mahnılarına çevrilir. Mahnı səsləndirildikdən sonra müəllimin söhbəti həmin əsərin mənimsənilməsinə kömək edir. Söhbət zamanı uşaqların mahnıya münasibəti formalaşır və onlarda melodiyanı öyrənmək, ifa etmək istəyi yaranır. Əgər ifa ediləcək mahnı məktəblilərin xoşlarına gəlirsə, onlar həmin mahnı üzərində uzun müddət, həvəslə işləyirlər. Bu, mahnının tez mənimsənilməsinə səbəb olur. Əksinə, əgər mahnı uşaqların xoşuna gəlmirsə, onlar mahnının öyrənilməsində qeyri-fəal iştirak edir və çox zaman xaric oxuyurlar. Bu zaman məktəblilərin əhvali-ruhiyyəsi də aşağı olur. Mahnını ilk dəfədən sevmək və qavramaq uşaqlar üçün çətindir. Onu dəfələrlə, təkrar-təkrar ifa etməklə uşaqların beyninə yeritmək və sevdirmək olar.Təbii ki, əgər bu, düşünülmüş və maraqlı repertuardırsa.

Mahnının uşaqlar tərəfindən sevilib xoş qarşılanması onların musiqi duyumunun inkişafına müsbət təsir göstərir. Repertuar düzgün seçildikdə, "qulağa xoş gəldikdə" uşaqlar avtomatik olaraq musiqini yaxşı duyur və tez qavrayırlar.

Böyüdükcə onlar bu gün geniş yayılmış bayağı mahnılardan uzaq olur və daha çox professional və klassik musiqiyə, muğamlara, bəstəkar mahnılarına, keçmiş kinofilmlərə yazılmış musiqilərə maraq göstərirlər. Belə musiqi nümunələrini dinləməyin musiqi duyumunun inkişafında əvəzsiz rolu vardır. Uşaqlarda musiqi zövqünün formalaşması onların eyni zamanda fərqli duşuncə, fərqli dünyagörüşünə malik fərd kimi yetişmələrində mühüm rol oynayır.

**Xorla oxumanın musiqi duyumunun inkişafına təsiri.** Yaxşı xor səslənməsinin ən vacıb şərtlərindən biri oxunun təmizliyidir. Düzgün və təmiz intonasiya ilə oxumaq, yəni səs tonunu yüksəkliyinə görə düzgün səsləndirmək vokal-oxu prosesinin əsasını təşkil edir. Həqiqətən, əgər xor gözəl səslə, mətni ifadəli surətdə çatdırmaqla, bütün xırdalıqları yerinə yetirməklə, lakin xaric oxuyursa, belə oxumaq heç kimə lazım deyildir. Buna görə də müəllimə verilən birinci tələb təmiz və xaric ifanı bir-birindən ayırmaqdır. Əgər müəllim uşaq xor kollektivinin xaric oxuma-

sına göz yumursa, əslində, o, musiqi tərbiyəsinə böyük zərər vurur. Təmiz intonasiya ilə ifa vərdişlərinin inkişafı musiqi qavrama qabiliyyətinin tərbiyəsi ilə sıx əlaqədardır.

Dəqiq intonasiya bir neçə amillərlə müəyyən edilir. O, oxuyanın fiziki sağlamlığından, tez və ya gec yorulmasından, səs tellərinin, boğazının xəstə olub-olmamasından asılıdır. Təmiz oxumanın ən əsas şərtlərindən biri elementar vokal vərdişlərinə yiyələnməkdən ibarətdir. Əgər uşaqlar oxu prosesində düzgün əyləşə, düzgün tənəffüs edə bilmirlərsə, səsi pis formalaşdırır, səhv artikulyasiya edirlərsə, bu, mütləq intonasiyaya öz təsirini göstərəcəkdir. Təcrübə göstərir ki, mahnının melodiyasında böyük intervallarla sıçrayışlar düzgün intonasiya əldə etmək işini olduqca çətinləşdirir. Onu da qeyd edək ki, Azərbaycan bəstəkarlarının uşaq mahnılarında xromatik hərəkətlərə, böyük interval sıçrayışlarına tez-tez rast gəlmək olur. Belə mahnıların melodiyalarını öyrəndikdən sonra sözləri ilə birlikdə oxuduqda intonasiyada dəqiqlik və təmizlik əldə etmək olur. Həmin mahnıları başqa tonallıqlara keçirməklə də intonasiyada təmizlik yaratmaq mümkündür. Təcrübə göstərir ki, çətin intonasiyalı və sürətli melodiyanı tələsmədən oxuduqda uşaqlar onun səslənməsini özləri eşidə bilir, lazım gəldikdə xaric intonasiyaları düzəldirlər.

Xorda oxuyan uşaqlarda mütləq musiqi duyumu olmalıdır. Əgər uşaqda musiqi duyumu zəifdirsə, o, xor kollektivinin ifasına çətinlik törədir və balansı pozur. Nəticə etibarilə, xorun işinə əngəl törətmiş olur. Burada əsas iş yenə də müəllimin üzərinə düşür. Yaxşı olardı ki, müəllim həmin uşaqla fərdi iş aparsın və müxtəlif vasitələrlə şagirddə musiqi duyumunun inkişafina nail olsun. Yalnız bundan sonra həmin şagirdi xor kollektivinə daxil etmək olar. Əgər xor bütövlükdə təmiz ifa nümayiş etdirirsə, onun köməyi ilə şagirdlərdə musiqi duyumunu inkişaf etdirmək işi asanlaşır. Uşaqlar xor oxuyarkən istər-istəməz bir-birinə qulaq asmaq məcburiyyətində qalırlar. Əgər uşaqda musiqi duyumu yaxşı inkişaf edibsə, o, dərhal xaric səsi duyur və tez ona reaksiya verərək düzəldir. Ola bilər ki, uşaqda musiqi duyumu yaxşıdır, ancaq səsini idarə etməkdə çətinlik çəkir və "səsqaçma" problemi yaşayır. Bu zaman o, xorun səslənməsi pozulmasın deyə, ifanı dayandırmalı, yaxud sakit səslə oxumalıdır ki, digərlərinə maneçilik törətməsin. Əsas odur ki, musiqi duyumu yerində olsun, ancaq qismən zəif musiqi duyumu olan şagirdlər digər uşaqların, yəni xorun ifasini dinləyərək düzgün ifaya nail ola bilərlər. Xor təmiz və aydın oxunduqda musiqi duyumu zəif uşaqlar da təmiz səslənməni eşidir və avtomatik düzgün oxumağa başlayırlar. Yəni bir növ təmiz oxuya adaptasiya olunurlar.

**3.Musiqi dərslərinin xoş və yaradıcı mühitdə təşkilinin mahnı duyumunun inkişafına təsiri.** Musiqi dərslərində müəllimin qarşısında duran əsas vəzifələrdən biri həmin əsərləri diqqətlə və maraqla dinləməyi məktəblilərə öyrətməkdir. Musiqi dərslərində müəllim yeni mahnını oxuyur, məktəblilər təkrar edirlər, kiçik musiqi pyesləri çalır və ya texniki vəsaitdən istifadə etməklə səsləndirir, musiqi əsərlərinin xarakterini araşdırmagı və müəllifin adını yadda saxlamagı öyrədir. Musiqi dərslərində məktəblilər yalnız mahnı oxumaqla və ya musiqi savadı almaqla məşğul olmurlar. Onlar eyni zamanda müəllimin ifasında və ya texniki vəsaitdən istifadə etməklə musiqi də dinləyirlər. Dinlənilən musiqi gözəl və harmonik olmalıdır, əks təqdirdə məktəblilərdə bədii zövq tərbiyə etmək mümkün deyil. Dıgər tərəfdən, dinlənilən musiqi əsəri məktəblilərin yaş xüsusiyyətlərinə uygun olmalıdır. Məktəblilər canlı, təntənəli, şən və qəmli musiqi nümunələrini böyük məmnuniyyətlə dinləyirlər.

Uşaqlarda musiqiyə qarşı maraq oyatmaqdan ötrü onlar dinlədikləri musiqini sevməlidirlər.Yalnız belə olduqda dinlənilən musiqi əsərinin tərbiyəvi əhəmiyyəti ola bilər. Gözəl musiqi əsərlərindən qazanılmış təəssürat böyüdükdən sonra kiçikyaşlı məktəbliyə musiqi əsərlərinə düzgün qiymət verməkdə kömək göstərə bilər. Bəs bunun əldə olunması üçün müəllim nə etməlidir? İlk növbədə o, əsəri yaxşı ifa etməli və onun haqqında uşaqların yaş xüsusiyyətlərinə uygun, maraqlı məlumat verməlidir. Ona görə də müəllim dərsə yaxşı hazırlaşmalıdır. Əgər müəllim musiqi əsərini könülsüz ifa edirsə, onda məktəblilər də ona etinasız olurlar. Bu isə dərsin maraqsız keçməsinə səbəb olur. Əksinə, məktəblilərdə həvəslə, şövqlə ifa edilmiş musiqi əsərinə qarşı böyük maraq yaranır. Vacib deyil ki, müəllimin gözəl səsi olsun, lakin o, musiqi

əsərini düzgün və ifadəli oxumalıdır. Musiqi əsərini dinləmədən əvvəl sinifdə sakitlik yaradılmalıdır. Musiqi dinlənilərkən sakitliyə riayət etmək ən vacib və mədəni vərdişlərdən biridir. Qeyd etmək lazımdır ki, qulaqcıqlardan istifadə çox yaxşı səmərə verir. Bu, musiqini olduğu kimi dinləyib qavramağa və ən əsası, xoş, inkişafetdirici mühit yaratmağa kömək edir.

Musiqi müəllimi dinlənilən əsərlərin məzmununa uyğun oyunlar da təşkil edə bilər. Təcrübə göstərir ki, belə dinləmə musiqi əsərlərinin mənimsənilməsini asanlaşdırır, eyni zamanda məktəblilərdə yaradıcılıq vərdişlərinin möhkəmləndirilməsinə səbəb olur, musiqi dərslərinin xoş və yaradıcı mühitdə keçməsinə müsbət təsir göstərir. Nəticədə məktəblinin musiqi dərslərinə həvəsi çoxalır və musiqi əsərini tez qavrayır. Ümumiyyətlə, musiqi incə sənət olduğu üçün orada hisslərin təzahürü öz əksini tapır.Yəni musiqi dərsində bir növ şablon xarakterli tədris prosesindən kənara çıxıb, uşaqları əyləndirməyə, xoş əhvali-ruhiyyə yaratmağa nail olmaq lazımdır. İstər-istəməz uşaq, bir neçə dəqiqəlik də olsa, özünü ciddi dərs rejimində deyil, sanki əyləncəli məkanda hiss etmiş olur. Bu təcrübələr göstərir ki, musiqi dərslərinin xoş və yaradıcı mühitdə keçməsi uşaqlarda musiqi duyumunun inkişafına zəmin yaradır.

Bəzən musiqi müəllimləri mahnı oxuyarkən xaric ifa olunan yeri bütün sinfə bir neçə dəfə təkrar etdirirlər. Bu zaman təmiz intonasiya ilə oxuyan uşaqların mahnıya marağı azalır. Bu da musiqi dərsinin nəinki xoş keçməsinə, hətta maraqsız və şagirdlər tərəfindən lazımsız bir fənn kimi qəbul olunması qənaətinə gətirib çıxarır. Aydındır ki, artıq burada musiqi duyumunun inkişafından söhbət gedə bilməz. Belə hallarda yaxşı olar ki, müəllim xaric oxuyan uşaqlara melodiyanın səhv oxuduqları hissəsini bir neçə dəfə, fərdi şəkildə təkrar etdirsin. Onları mükəmməl öyrətdikdən sonra isə düzgün ifa edən uşaqların sıralarına qoşsun və böyük ruh yüksəkliyi ilə mahnının öyrənilməsi prosesinə davam etsin. Beləliklə, uşaqlarda ruh düşkünlüyünün qarşısını almaq və musiqi duyumunu xoş mühitdə inkişaf etdirmək olar.

Şagirdlərdə musiqi duyumunu inkişaf etdirmək birbaşa musiqi müəlliminin üzərinə düşən mühüm vəzifədir. Müəllim I–IV siniflərdə bu işi məsuliyyətlə və həvəslə yerinə yetirərsə, yuxarı siniflərdə şagirdlər artıq təkmilləşmiş musiqi duyumuna malik olacaqlar. Beləliklə, müəllimlərimiz çalışmalıdırlar ki, uşaqlarda musiqi duyumunun inkişaf etdirilməsi üçün dərs prosesində müxtəlif yollarla maraqlı tədris mühiti yaratsınlar.

**Ədəbiyyat**

1. Rəcəbov O. Ümumtəhsil məktəblərində musiqi tədrisi metodikası. Metodik tövsiyələr. Bakı: "Şirvanşəhr", 2005.

2. Rəcəbov O., Məmmədova G.Ə. Pedaqoji təmayüllü orta ixtisas və ali məktəblərdə musiqi tədrisinin metodikası. Bakı: "Şirvanşəhr", 2009.

3.Ümumtəhsil məktəblərinin I–IV sinifləri üçün fənn kurikulumları, Bakı: "Təhsil", 2008.

**ПУТИ УЛУЧШЕНИЯ МУЗЫКАЛЬНОГО ВОСПРИЯТИЯ У УЧЕНИКОВ НАЧАЛЬНОЙ ШКОЛЫ**

**резюме**

Статья посвящена тому, как у учеников начальных классов развивается музыкальные восприятия. Отмечено, что музыкальный смысл является одним из важнейших принципов восприятия музыки. У каждого есть определенные музыкальные чувства. Самая важная задача учителя – найти и раскрыть это музыкальное восприятие у детей и развивать его различными способами.

**WAYS OF IMPROVING MUSICAL PERCEPTION IN DISCIPLES OF ELEMENTARY SCHOOL**

**summary**

The article is devoted to how primary school students develop musical perceptions. It is noted that the musical meaning is one of the most important principles of music perception. Everyone has certain musical feelings. The most important task of the teacher is to find and discover this musical perception in children and develop it in various ways.

# UŞAQLARDA NİTQ MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASINA DAİR

**Məhəbbət Əliyeva,**
"Məktəbəqədər və ibtidai təhsil" jurnalının əməkdaşı
maxabbat.aliyeva@mail.ru



**Açar sözlər:** mədəni və kamil nitq, özünütərbiyənin düzgün yolları, uşaqların nitq mədəniyyətinin inkişaf etdirilməsində müəllimin rolu;

**Ключевые слова**: культурная и совершенная речь, правильные способы самообразования, роль учителя в развитии детской речевой культуры;

**Key words:** cultural and perfect speech, the right ways of self-education, the role of the teacher in the development of children's speech culture.

*Sadə və gözəl danışığı bacarmaq özü bir elmdir və onun xüsusi qanunları var.*
***K.S.Stanislavski***

Nitq mədəniyyəti – gözəl, düzgün, səlis və aydın danışmaq qabiliyyəti insanın ümumi mədəniyyətini, onun dogma dilin incəliklərinə bələd olduğunu, bilik, məlumat dairəsinin genişliyini göstərir. Öz düşüncələrini düzgün danışıq və yazı ilə ifadə edərək, kamil nitqə malik olmaq mədəni nitqin əsas əlamətidir. Nitq mədəniyyəti geniş mənada fikir, düşüncə mədəniyyətidir. Bu anlayışın yüksək səviyyədə, hərtərəfli inkişafı, yetkin ağılın, kamilliyin təzahürüdür. Buradan da aydın olur ki, nitq mədəniyyəti təfəkkür mədəniyyəti ilə sıx bağlıdır.

Nitq mədəniyyəti ümumi mədəniyyətin tərkib hissələrindən biridir. Bu anlayışa danışıq mədəniyyəti ilə yanaşı, yazı mədəniyyəti də daxildir. Belə keyfiyyətə yiyələnən şəxs cəmiyyətin ictimai həyatında, onun hər hansı bir sahəsində fəal və məhsuldar iştirak etmək imkanına malik olur. Xüsusən, ziyalıların nitq mədəniyyətinə yiyələnməsi vacib hesab edilir.

Azərbaycan dili dünyanın inkişaf etmiş və zəngin dillərindən biridir. Bu baxımdan, istər şifahi, istərsə də yazılı ədəbiyyatımız xalqımızın gözəl və zəngin nitq mədəniyyətinin olduğunu sübut edir. Xalqımızın N.Gəncəvi, İ.Nəsimi, M.Füzuli, M.P.Vaqif, M.F.Axundzadə, C.Məmmədquluzadə, M.Ə.Sabir, C.Cabbarlı, S.Vurğun kimi dahi şəxsiyyətləri, görkəmli söz ustaları doğma ana dilini ürəkdən sevmiş, onu qorumuş, inkişafı uğrunda böyük xidmətlər göstərmişlər.

Pedaqoqlar, yazıçılar, şairlər, jurnalistlər və b. ziyalılarımız nitqinin təsirliliyi, ifadəliliyi, məntiqiliyi, zənginliyi ilə fərqlənməli, onların danışıqlarından, yazdıqlarından gənc nəsil nümunə götürülməlidir. XVIII əsr Fransa maarifçilərinin görkəmli nümayəndəsi Volter demişdir: "Yaxşı danışmağı yaxşı yazan müəllifləri oxumaqla öyrənmək olar".

Nitq mədəniyyətinə malik olmaq danışıq və yazı prosesində orfoqrafik, orfoepik, qrammatik qayda-qanunlara, üslub normalarına əməl etməkdir.

Nitq mədəniyyəti qrammatika ilə üslubiyyatın vəhdətidir.Hər bir dilin fonetik, leksik, qrammatik, eləcə də orfoqrafik və orfoepik qayda-qanunları vardır. Onları öyrənmədən, bilmədən nitq mədəniyyətinə yiyələnmək mümkün deyil. Bu qayda-qanunlar müəyyən tarixi təkamülün məhsuludur. O, cəmiyyətin normal ünsiyyətinə xidmət edir.

Gözəl nitq hər bir xalqın milli mədəniyyətinin göstəricilərindən biridir. Milli mədəniyyətin, o cümlədən, nitq mədəniyyətinin qoruyucusu, daşıyıcısı bütövlükdə xalqdır. Xalqın hər bir ziyalı nümayəndəsi nitq mədəniyyətinə dərindən yiyələnməli və onu layiqli şəkildə qorumalıdır.

Mədəni nitqə yiyələnmək üçün dilin yalnız leksik-qrammatik normalarına əməl etməklə kifayətlənmək olmaz. Bunun üçün nitq üslubi cəhətdən də düzgün qurulmalıdır. Gözəl nitq üçün, əsasən, dilin ifadə imkanlarının genişliyi, yəni hər hansı bir fikri ifadə etmək imkanı olmalıdır. Yəni danışarkən elə sözlər seçilməli, cümlələr elə qurulmalıdır ki, fikir dəqiq, aydın, ifadəli olsun.

Nitq mədəniyyəti nitqin məzmununa, məqsədinə uyğun olaraq, ədəbi dilin yazılı və şifahi formalarından, ifadə vasitələrindən istifadə bacarığıdır. Başqa sözlə, bu anlayışı aşagıdakı kimi də izah etmək olar:

- Düzgün nitq – yazan və danışanın nitq normalarını riayət etməsidir.
- Nitq məharəti – mövcud variantlardan məzmun baxımından dəqiq, üslub və situativlik cəhətdən daha münasib dil vahidini seçib, işlətmək bacarığıdır.

İnsanın daxili dünyasını aşkarlayan ən başlıca vasitə onun nitqidir. Buna görə də insanı tanımaq və bələd olmaq üçün onunla ünsiyyətə girmək, təmasda olmaq lazımdır. Antik dövrün böyük filosofu Sokrat demişdir: “Ey insan, danış, səni tanıyım”. Məhəmməd peyğəmbər (s.ə.s.) demişdir: “Dil insanı dəyərləndirmək üçün vasitədir”.

Tarixi inkişafın bütün dövrlərində nitqə, onun gözəlliyinə xüsusi diqqət yetirilmiş, qiymət verilmişdir. “Qabusnamə”də yazılmışdır: “Sözü ən gözəl tərzdə söyləmək lazımdır ki, həm söz anlayan olasan, həm də onu anladasan”. A.P.Çexov demişdir: “Gözəl danışığa etinasız yanaşan adamlar özlərini insana layiq ola biləcək ən ali, nəcib bir zövqdən məhrum edirlər”.

Antik dövrün ən məşhur yazıçı, şair, natiq və siyasi xadimi olan M.T.Siseron demişdir: “Şairlər anadan şair doğulurlar, natiqlər isə həyatda, tədricən yetişirlər”. Buradan aydın şəkildə məlum olur ki, gözəl nitqə yiyələnmək həyatda qazanılır. Yəni valideyn və müəllimlər uşaqlara kiçik yaş dövrlərindən başlayaraq, düzgün, aydın, səlis nitqə yiyələnmələri üçün düzgün istiqamət verməlidirlər. Buna nümunə olaraq, bir hadisəni nəzərə çatdırıram:

Şagird çox sevdiyi çografiya fənnindən verilmiş mövzunu öyrənir və mükəmməl danışacağına inanır. Dərs vaxtı o, mövzunu danışmaq istədiyini müəllimə bildirir, yazı taxtasının qarşısına keçərək, cəsarətlə öyrəndiyi mövzunu danışmağa başlayır:

– Afrika, deməli, Avrasiyadan sonra, ikinci, olduqca böyük materik olub, sahəsi 30,3mln $km^2$-dir. Deməli, Afrika, olduqca isti materikdir. Orada, deməli, Nil, Seneqal, Niger və s. kimi olduqca iri çaylar axır. Afrikada, deməli, olduqca nəhəng fillərin, dərisi olduqca qalın begemotların, olduqca qorxunc şirlərin gəzib dolaşdıqları keçilməz meşələr var... Şagird dərsi danışıb qurtardıqdan sonra müəllim deyir:

– Görürəm ki, mövzunu öyrənibsən, amma öz nitqinə ehtinasız yanaşırsan. Hər cümlədə “deməli”, “olduqca” sözlərini işlədirsən. Sənə elə gəlir ki, materikə “olduqca böyük”, nəhəng filə “olduqca nəhəng” və ya begemota “dərisi olduqca qalın” deməklə onlar haqqında daha aydın təsəvvür yaradırsan. Bu, əsla belə deyil. Nitqinə diqqət eləsən, artıq sözlər işlətməsən, daha yaxşı olar. Düzgün nitqə yiyələnmək üçün dərsliklərdən əlavə kitablar oxumalı, mütaliə etməli, yazıçı, şair və b. ziyalıların danışıqlarını dinləməli, lüğətdən, xüsusən də, “Azərbaycan dilinin izahlı lüğəti”ndən istifadə etməlisən. Mütaliə zamanı yeni sözlərlə tanış olur, hər hansı bir sözün məna çalarlarını, işlənmə yerini öyrənirsən.

Beləliklə, müəllim şagirdə nitq mədəniyyətinin gərəkliliyini, vacibliyini izah edir.

Nitq mədəniyyəti geniş anlayışdır. Gözəl, səlis, aydın və düzgün danışmağın, yəni nitq mədəniyyətinə yiyələnməyin bütün tələblərini bir neçə sözlə ifadə etmək çətindir. Əlbəttə, ilk növbədə vulqar sözlərə qarşı mübarizə aparmaq lazımdır. Nitqi cilalamaq, kobud, loru sözlərdən, ifadələrdən qorumaq hamının vətəndaşlıq borcudur.

Təəssüf ki, dərsliklərdə bayağı, vulqar sözlərin işlədilməsi hallarına da rast gəlirik. Təbii ki, bu da şagirdlərin lüğətinin korlanmasına gətirib çıxarır. Belə halların qarşısını almaq üçün müəllim şagirdlərə başa salmalıdır ki, bu sözlərin cəmiyyətdə işlədilməsi məqbul hesab edilmir, dərslikdə belə sözlərin işlədilməsində məqsəd həmin sözləri aşılamaq, təbliğ etmək deyil, düzgün, mədəni nitqlə onların fərqini göstərməkdir.

Ədəbi dilə yiyələnmək nitq mədəniyyətinə yiyələnmək deməkdir. Nitqin mədəniliyi bütövlükdə millətin ümumi mədəniyyətinin tərkib hissəsidir. Mədəni nitqə yiyələnmək üçün hər kəsin özünü tərbiyə etməsi də əsas şərtdir. Söz ehtiyatı zəngin olan, sözlərin məna çalarlarını nitqində düzgün əlaqələndirməyi bacaran insan öz fikrini çətinlik çəkmədən məntiqi cəhətdən ifadə edə bilmək qabiliyyətində olur. *Zənginlik, məzmunluluq, məntiqi ardıcıllıq, düzgünlük, ay-*

*dınlıq, dəqiqlik, ifadəlilik, təmizlik* və s. mədəni nitqin göstəriciləridir. Yazılı nitq mədəniyyətinə yiyələnmək üçün, eyni zamanda, orfoqrafiya və durğu işarələrinə əməl edilməsi də vacibdir.

Nitq, danışıq fərdidir, hər bir şəxsin özünə məxsusdur, lakin hər bir fərdə məxsus olan nitq, danışıq da meyar deyildir. Nitq mədəniyyətindən kənarda qalan nitq kamil nitq deyildir. Belə nitq dolğun, məntiqli, aydın, səlis nitq deyil, sadəcə olaraq danışıq, yaxud yazıdır.

Nitq vasitəsilə insanlar həm öz mədəni səviyyələrini, peşəkarlıqlarını, həm də bütün üstün cəhətlərini göstərə bilirlər.

Bildiyimiz kimi, müasir dövrdə insan həyatı informasiyadan kənarda deyildir. İnsanların informasiya cəmiyyətində formalaşmalarında televiziya, sosial şəbəkələr, teatr, kino və s. mühüm rol oynayır.

Nitq mədəniyyətinin formalaşmasında teatr tamaşaları xüsusi rol oynayır. Teatr zəngin dil mühitini yaşadan, qoruyub saxlayan bir məkandır. Teatrın bütün dövrlərdə dilin öyrədilməsində, nitq mədəniyyətinin aşılanmasında və inkişafında mühüm xidmətləri olmuşdur.

Uşaqların dil və nitq mədəniyyəti, eyni zamanda onların bədii zövqləri və zehninin inkişaf etdirilməsi istiqamətində teatr tamaşalarına aparılması vacib amillərdən hesab edilir. Zehnin inkişafı isə uşaqların təfəkkürünün, düşüncəsinin inkişafına şərait yaradır. Teatr tamaşalarına gedərkən onların həm də dinləmə, eşitmə mədəniyyəti, ünsiyyət qurmaq, duyğu və düşüncələrini ifadə etmək qabiliyyətləri inkişaf edir. Təbii ki, ünsiyyət qurmaq, duyğu və düşüncələri ifadə etməkdə dil və nitq vacib rol oynayır. Kinofilmlərin də uşaqların nitq mədəniyyətinin inkişafında rolu danılmazdır. Bir sözlə, biz eşitdiklərimiz vasitəsilə həm məlumatlanır, həm də dil və nitq normalarını öyrənirik.

K.D.Uşinski demişdir: "Ana dili hər cür əqli inkişafın əsasını təşkil edir və bütün biliklərin xəzinəsidir. Uşaqda nitq öz-özünə yaranmır. O, tədricən inkişaf edir, hətta böyüklərin cidd-cəhdi nəticəsində də xeyli çətinliklərlə qarşılaşır".

Gözəl və mədəni danışıq üçün zəngin söz ehtiyatına malik olmaq, dilin qrammatik qaydalarını kamil bilmək, ondan düzgün istifadə etmək lazımdır. Odur ki, ədəbi dilin incəliklərindən düzgün istifadə edib sözü, ifadəni, cümləni öz məqamına görə işlətmək əsas şərtdir.

**ədəbiyyat**

1. Abdullayev N.Ə. Nitq mədəniyyətinin əsasları. (dərs vəsaiti). Bakı, 2013
2. Hüseynov S.S. Nitq mədəniyyəti (dərs vəsaiti). Bakı: "Yazıçı", 2010.

**О ФОРМИРОВАНИИ РЕЧЕВОЙ КУЛЬТУРЫ У ДЕТЕЙ**

**резюме**

В статье излагаются мысли о тонкости и богатой культуре азербайджанского языка, который является одним из наиболее развитых языков мира. Исходя из этой позиции, подчеркивается плавность и гармония азербайджанского языка на уровне устной и письменной речи. В статье также рассматриваются факторы, влияющие на развитие четкого, ясного произнесения слов и выражений азербайджанского языка. Отмечается связь культурной и совершенственной речи с мышлением и указываются пути их развития.

**ABOUT THE FORMATION OF VERBAL CULTURE IN CHILDREN**

**summary**

The article presents thoughts about the subtleties and rich culture of the Azerbaijani language, which is one of the most developed languages in the world. Proceeding from this position, the smoothness and harmony of the Azerbaijani language is emphasized at the level of oral and written speech. The article also discusses the factors influencing the development of a clear, clear pronunciation of the words and expressions of the Azerbaijani language. It is also noted that cultural and advanced speech is connected with thinking and the ways of their development are indicated.

# ТАКТИЛЬНЫЕ КНИГИ В ОБУЧЕНИИ ШКОЛЬНИКОВ С НАРУШЕНИЕМ ЗРЕНИЯ

**Комарова Татьяна Петровна,**
учитель-логопед;
**Кулешова Татьяна Анатольевна,**
учитель-логопед, учитель начальных классов
ОГБОУ «Школа-интернат № 26», г. Рязань.



**Ключевые слова:** развитие сенсорных и умственных способностей, тактильные рукодельные книги, ребенок с нарушением зрения, осязания обеими руками (активное бимануальное обследование), индивидуальное пособие, расширение представлений;

**Açar sözlər:** sensor və zehni qabiliyyətlərin inkişafı, əl ilə hazırlanmış taktil kitablar, görmə pozulmaları olan uşaq, hər iki əllə əlaqəli toxunma (fərdi bimanual tədqiqat), fərdi vəsait, təsəvvürlərin genişləndirilməsi;

**Key words:** development of sensory and mental abilities, tactile handmade books, a child with visual impairment, touch with both hands (active bimanual examination), individual allowance, extension of ideas;

Тактильные рукодельные книги способствуют развитию сенсорных и умственных способностей ребенка, его абстрактного мышления, что ценно для формирования компенсаторных навыков познания окружающего мира. Кроме того, хорошо выполненная тактильная книга способствует формированию у ребенка с нарушением зрения интереса к книге и при соответствующим обучении «общению» с такой книгой становится для него «своей». Это обретение позволяет ему быть равным зрячим сверстникам, не чувствовать ущемления. Зрячие дети с раннего возраста знакомятся с книгой. К школе они умеют воспринимать иллюстрации, а многие уже читают. Для детей со зрительной депривацией (недостаточностью) обычная книга зачастую всего лишь предмет с гладкими страницами, который взрослые берут в руки и листают, когда рассказывают сказки. Тексты книг, не подкрепленные наглядным материалом, воспринимаемым с помощью сохранных анализаторов, не способствуют пониманию их содержания, и даже ребенок понял содержание прочитанного в целом, то без опоры на наглядность многие слова остаются для него непонятными. Таким образом, вербальное восприятие книг, особенно в дошкольном и младшем школьном возрасте, когда у ребенка интенсивно накапливается чувственный опыт, не обогащает и не способствует расширению представлений об окружающем мире.

Однако процессом восприятия незрячими детьми иллюстративного материала тактильной книги можно и нужно управлять. Зрячих детей тоже учат рассматривать картинки и понимать иллюстрации к книгам. Незрячие дети для восприятия иллюстраций используют осязание и остаточное зрение, если оно имеется, и надо научить их делать это правильно. При этом необходимо применять специальные методические приемы.

Например, надо обязательно учить ребенка активно использовать для осязания обе руки (активное бимануальное обследование). В ходе первичного общего ознакомления с иллюстрацией следует приучать ребенка к симметричным движениям обеих рук, чтобы потом выделить контур, форму и детали изображения для более тщательного обследования. У детей, имеющих форменное остаточное зрение, слабовидение или страдающих косоглазием и амблиопией, с помощью тактильных рукодельных книг формируется единая

система взаимодействия «глаз–рука». При этом осязательная чувствительность дополняет неполноценную зрительную информацию.

На сегодняшний день в России созданием рукодельных тактильных книг для детей с нарушением зрения в основном занимаются библиотеки для слепых. Их специалисты широко обсуждают комплекс проблем, связанных с разработкой рекомендаций к изготовлению этих книг, методического обеспечения развивающих занятий с их применением, поиском форм использования и т.д.

**Тактильная книга «Буквоград»**

Тактильная книга «Буквоград»– дидактическое пособие, помогающее при обучении грамоте детей с нарушениями зрения. Страницы книги выполнены из ткани. Они служат контрастным фоном для предметов и изображений, выполненных в виде аппликаций и миниатюрных копий натуральных предметов с использованием материалов, различных по фактуре и текстуре, с учетом требований к наглядному материалу для детей с нарушением зрения. Предметы закреплены, частично крепятся текстильной липучей лентой, а частично пришиты. На каждой странице приклеена объемная деревянная буква алфавита, продублированная на специальной карточке шрифтом Брайля. Страницы собраны, закреплены зажимом типа скоросшиватель.

Страницы с буквами расположены в порядке верхнего ряда гласных. Каждая страница может быть использована как индивидуальное пособие для работы по изучению конкретной буквы. Данное пособие позволяет учить детей познавать окружающий мир при помощи сохранных анализаторов.

Тактильная книга «Буквоград» способствует решению следующих *задач:*

– расширять словарный запас и общую осведомленность ребенка с нарушениями зрения;

–развивать фонематический слух (умение различать и выделять отдельные в слове, устанавливать их последовательность):

–формировать четкую, грамотную речь;

– развивать мелкую моторику:

– формировать навык обследования предмета и манипуляций с ним;

–развивать произвольное внимание.

Тактильная книга ориентирована на детей с ОВЗ младшего школьного возраста. Заниматься с книгой дети могут как под руководством взрослого, так и самостоятельно. Рекомендуется учителям-логопедам, учителям начальных классов, тифлопедагогам, учителям-дефектологам, воспитателям специальных школ, интегрированных классов общеобразовательных школ, родителям.

**Тактильная «Книга чисел»**

Тактильная «Книга чисел» –дидактическое пособие, помогающее в обучении математике детей с нарушениями зрения.

Страницы книги выполнены из плотной ткани. Они служат контрастным фоном и идеальным материалом для крепления изображений, выполненных в виде аппликаций с использованием материалов, различных по фактуре и текстуре, с учетом требований к наглядному материалу для детей с нарушением зрения. Аппликации при помощи текстильной липучей лентой крепятся к странице, на которой приклеена объемная деревянная цифра, продублированная рельефным шрифтом Брайля на специальной бумаге. Страницы собраны, закреплены зажимом типа скоросшиватель.

Такая книга имеет широкое функциональное назначение. Все аппликации и страницы мобильны, по мере необходимости могут быть использованы в виде независимого индивидуального дидактического пособия при изучении тем: «Знакомство с цифрой», «Состав числа», «Сложение и вычитание».

Данное пособие можно использовать при проведения уроков математики, занятий коррекционного цикла в начальной школе: «Пространственное ориентирование и мобильность», «Развитие зрительного восприятия», «Развитие познавательной деятельности».

Тактильная «Книга чисел» способствует решению следующих *задач:*

–первично осваивать количественное отношения и пространственные формы окружающего мира;

– формировать понятия числа и его состава;

– оперировать конечными множествами предметов;

– вводить операции сложения и вычитания чисел.

Дидактическое пособие ориентировано на детей с ОПФР дошкольного и младшего дошкольного возраста. Заниматься с книгой дети могут как под руководством взрослого, так и самостоятельно. Рекомендуется учителям начальных классов, воспитателям, учителям-дефектологам специальных школ, интегрированных классов общеобразовательных школ, детских садов, ЦКРОиР, родителям.

**Тактильная книга «Русская народная сказка “Репка”»**

Данная тактильная книга – дидактическое пособие, помогающее при обучении грамоте и развитии связной речи с нарушениями зрения.

Страницы книг выполнены из плотной ткани. На светлом фоне прикреплены иллюстрации, выполненные в виде аппликаций с использованием материалов, различных по фактуре и текстуре.

Фоновой пейзаж –объемный, надежно закреплен на основной ткани. Все герои сказки выполнены в виде аппликаций, которые при помощи текстильной липучей ленты крепятся к странице. При чтении или пересказе сказки изображение сказочного персонажа крепят на страницу, только когда о нем идет речь.

Слева на внутренней стороне книжной обложки находится карман, в котором хранится текст сказки, продублированный рельефным шрифтом Брайля на специальной бумаге. Справа на обложке карман, в котором хранятся изображения героев сказки.

Это тактильная книга имеет широкое функциональное назначение. Все аппликации и страницы мобильны, по мере необходимости могут быть использованы в виде независимого индивидуального дидактического пособия.

Данное пособие можно использовать при проведении уроков обучения грамоте, чтения, занятий коррекционного цикла в начальной школе; «Пространственное ориентирование и мобильность», «Развитие зрительного восприятия», «Развитие познавательной деятельности».

Тактильная книга «Русская народная сказка “Репка”» способствует решению следующих *задач*:

– первично осваивать количественные отношения и пространственные формы окружающего мира;

–формировать навыки последовательного пересказа;

– развивать связную речь.

Заниматься с книгой дети могут как под руководством взрослого, так и самостоятельно. Рекомендуется учителям начальных классов, воспитателям, учителям-дефектологам специальных школ, интегрированных классов общеобразовательных школ, детских садов, родителям.

**Литература**

1. Крогнус А.А. Психология слепых и её значение для общей психологии и педагогики. Ленинград, 1926 г.
2. «Обучение и воспитание ребёнка с нарушением зрения», Москва, 1978 г.
3. «Психология особенности слепых и слабовидящих школьников», РГПУ им. А.И. Герцена, сборник научных трудов, Ленинград, 1981 г.
4. «Психология особенности слепых и слабовидящих школьников», РГПУ им. А.И. Герцена, сборник научных трудов, Ленинград, 1980 г.

**GÖRMƏ QÜSURLARI OLAN MƏKTƏBLİLƏRİN TƏLİMİNDƏ TAKTİL KİTABLARDAN İSTİFADƏ**

**xülasə**

Məqalədə görmə qüsurları olan məktəblilərin təlimində taktil kitablardan istifadə metodikasından söhbət gedir. «Буквоград», «Книга чисел», «Русская народная сказка “Репка”» kitablarından söhbət açılır, onların hazırlanma metodikası və materialları haqqında məlumat verilir. Qeyd olunur ki, uşaqlar kitabla həm böyüklərin rəhbərliyi altında, həm də müstəqil məşğul ola bilərlər. Bu taktil kitablar ibtidai məktəb müəllimləri, müəllimlər, xüsusi məktəblərin defektologiya müəllimləri, orta məktəblərin inteqrasiya olunmuş sinifləri, uşaq bağçaları, həmçinin valideynlər üçün tövsiyə olunur.

**NSTRUCTIONS FOR VISUALLY BACKGROUNDS USING TACTICAL BOOKS**

**summary**

The article highlights the use of tactile books in the practice of schoolchildren with visual impairments. "Bukvograd", "Book Knight", "Russian Narodnaya Tale "Repka", about the methods and materials of their preparation. It is noted that children can engage with the book under the guidance of adults and independently. These tactile guides are recommended for elementary school teachers, teachers, defectologists in private schools, integrated classrooms for secondary schools, kindergartens, and parents.

# МЫСЛИТЕЛЬНЫЕ ПРОЦЕССЫ РАЗВИТИЯ ЭКСПЕРТНО-ЛОГИЧЕСКОГО МЫШЛЕНИЯ МЛАДШИХ ШКОЛЬНИКОВ

**Нигяр Мурадова,**
доктор философии по педагогике, доцент,
ведущий научный сотрудник ИОАР
Email: rita-nigar@mail.ru



**Ключевые слова:** экспертно-логическое мышление, развитие, мыслительные процессы, младшие школьники, модель;

**Açar sözlər**: ekspert-məntiqi düşüncə, inkişaf, düşüncə prosesi, kiçikyaşlı məktəblilər, model;

**Key words:** expert logical thinking, development, thought processes, younger students, model.

*Способность теоретического мышления есть*
*не готовый «дар природы», а искусство, которому*
*надо учиться, как столярному ремеслу или игре на скрипке.*
***Бронштейн Л.Д.***

Сегодня в системе нового отечественного образования возрастают требования к начальной школе в развитии аналитической личности младших школьников, которые должны обладать знаниями экспертной логики, то есть гибким продуктивным мышлением, развитым активным воображением для решения ситуационно-проблемных задач. В соответствии с этим вопрос развития экспертно-логического мышления у учащихся начальных классов, являющегося базой поисковой интеллектуальной активности становится актуальной. И поэтому стандарт отечественного образования ориентирован на становление таких личностных характеристик выпускника начальной школы, как: любознательный, быстро познающий мир, владеющий основами умения учиться, способный к организации собственной деятельности. Безусловно, реализация данных характеристик в определенной степени будет зависеть от уровня сформированности и развития качеств экспертно-логического мышления младших школьников.

Возникает вопрос: *Какие качества содержит экспертно-логическое мышление младших школьников?*

Ответ на данный вопрос отображается в таблице № 1:

***Таблица № 1.* Качества экспертно-логического мышления**

| № | **Краткая характеристика основных качеств экспертно-логического мышления младшего школьника (по М.В. Гомезо и др.) [1]** |
|---|---|
| *1* | - *Глубина мышления* проявляется в степени проникновения школьника в сущность какого-либо мышления. |
| *2* | - *Самостоятельность мышления* проявляется в умении школьника видеть проблему, ставить к этой проблеме новый вопрос и только после этого решить эту проблему своими силами. |
| *3* | - *Гибкость мышления* выражается в умении школьника изменять намеченный план действий, если этот план не соответствует поставленным условиям, которые обнаруживаются в ходе решения поставленной задачи; |
| *4* | - *Критичность мышления* - способность школьника правильно оценивать как объективные условия, так и собственную активность и при необходимости поменять способ действия на наиболее отвечающий поставленным условиям. |
| *5* | - *Быстрота мышления* - способность школьника находить обоснованно правильные решения и реализовывать их в ограниченный отрезок времени. |

Заметим, что вышеуказанные качества у младших школьников проявляются в момент выполнения определенных мыслительных процессов, где они используют логические понятия и конструкций для обнаружения правильного ответа (вывода) из имеющихся других выводов.

Подчеркнем, что мыслительный процесс развития экспертно-логического мышления младших школьников происходит в период изучения всех учебных предметов начальной школы. И поэтому практически вся ее учебная программа построена таким образом, чтобы актизировать данный процесс. Потому что развитое логическое мышление ученика существенно облегчает его обучение: легче дается поиск и решение поставленных перед ним задач, нахождение связи между предметами и их свойствами и т. д..

Наряду с качествами логического мышления младших школьников М.В. Гомезо выделяет три формы логического мышления, при помощи которых осуществляются мыслительные процессы по развитию экспертно-логического мышления младших школьников. Эти формы отображаются в нижеследующей таблице № 2:

***Таблица № 2.* Формы логического мышления младших школьников**

| **Формы** | **Характеристика мыслительных процессов (по М.В. Гомезо и др.) [1]** |
|---|---|
| ***Понятие*** | - Это форма мышления, отражающая общие свойства явлений и предметов. Эти свойства делятся на существенные и несущественные. Также понятия могут быть эмпирическими или теоретическими, общими или единичными, абстрактными или конкретными. Значит, мысль – это единичное понятие, содержащее в себе свойственные только одному предмету и явлению признаки. Понятие обозначается только словом, и не имеет наглядного характера. Понятие формируется в результате общественно-исторического опыта, проживая который, школьник овладевает системой понятий в процессе всей своей школьной жизни. Из этого следует, что ученик овладевает системой понятий, формирующиеся в результате опыта, который набирается им в процессе всей его школьной жизни. |
| ***Суждение*** | - Это такая форма мышления, в результате которой отрицаются или утверждаются связи между предметами и явлениями или свойствами и признаками. Суждения бывают ложными, истинными, частными, единичными, общими и др. Ложные суждения далеки от субъ- |

| | |
|---|---|
| | ективной реальности. Истинные суждения являются единственно верными. Общие суждения утверждают или отрицают все предметы какой-либо группы. Тогда как единичные суждения утверждают, или отрицают какой-либо один или несколько признаков или предметов из представленной группы. Например, задание: Какие высказывания о данных фигурах верны?<br><br>1. Все фигуры многоугольники.<br>2. Ни одна фигура на чертеже не является треугольником.<br>3. Некоторые фигуры на чертеже - круги.<br>4. На чертеже нет квадрата.<br>5. На чертеже все фигуры разные. |
| ***Умозаключение*** | - Это форма мышления, в процессе которой при анализе и сопоставлении различных суждений выводится новое суждение. Выделяют следующие типы умозаключений:дедуктивное, индуктивное и по аналогии. При дедуктивном умозаключение происходит от общих фактов к единичному выводу. При индуктивном – от единичных фактов к общему выводу. Аналогией называют такое умозаключение, при котором вывод осуществляется на основе только некоторого сходства между явлениями. |

Из научно-психолого-педагогической литературы становится ясно, что у младших школьников значительно складываются и развиваются дедуктивные и индуктивные умозаключения. И поэтому ученик в начальной школе овладевает систему определенных теоретических знаний, его мышление готовится к последующему осознанию и освоению понятий и их свойств в целом. В соответствии с этим необходимы выбор и разработка адекватных средств в этом направлении.

Возникает вопрос: *Как и каким образом?*

Ответ на этот вопрос поясняется при помощи метода моделирования, сущность которого отображается в нижеследующей таблице № 3:

***Таблица № 3.*** **Сущность метода моделирования**

| **Краткая характеристика метода моделирования** | |
|---|---|
| ***Специфическачя особенность*** | Одной из *специфической особенностью* данного метода является его модельный характер (все явления, объекты или процессы изучаются с помощью моделей, опираясь на которую можно определить их значимость). |
| ***Ведущий принцип*** | *Принцип замещения*:<br>- Изучая какой-либо предмет, объект или явление школьник может заменить его каким-либо другим похожим объектом, предметом или явлением и посмотреть, что из этого получится. В начальной школе ученик рано учится пользоваться принципом замещения: в игровой, изобразительной деятельности. |
| ***Главные цель и задачи*** | *Цель*:<br>- Основные отношения объекта связать с наглядно-образной формой мышления, которые входят в познавательную деятельность младшего школьника. |

| | |
|---|---|
| | Задачи:<br>- формирование учебных знаний, умений и навыков;<br>- решение определенных поставленных задач;<br>- систематизация и обобщения новой полученной информации;<br>- для лучшего запоминания учениками выданного учебного материала. |

Отметим, что учителя начальных классов часто используют метод моделирования в качестве наглядно-образного средства. Почему? Потому что применяя его, каждый учитель начальной школы ставит перед собой обусловленные цели и задачи, которые способствуют повышению интереса у младших школьников к развитию экспертно-логических умений: сравнивать, выделять главное, анализировать, обобщать. И тем самым учитель предусматривает для себя решение следующих педагогических задач в этом направлении:

а) изучение сущности всеобще экспертно-логических умений, специфики основных компонентов каждого отдельного умения;

б) определение места и роли экспертно-логических умений в процессе обучения;

в) первоначальное овладение учениками способностью формировать у них экспертно-логических умения;

г) совершенствование экспертно-логических умений в период прохождения педагогических практик.

Подчеркнем, что вопросом развития логического мышления младших школьников занимались многие исследователи и психологи (Андреев В.И., Асмолов А.Г., Давыдов В.В., Занков Л.В., Леонтович А.В., Обухов А.С., Федосова Н.А., Эльконин Д.Б. и др.). А также вопрос по использованию моделей при обучении младших школьников акцентрировано во многих психолого-педагогических и научно-методических исследованиях (Бантова М.А., Баранов С.П.,Истомина Н.Б.,Савенков А.И.,Талызина Н.Ф.,Фридман Л.М. и др.).

В ходе изучения психолого-педагогической и методической литературы по моделям в этом направлении выявлены мысленные модели по М.Н. Скаткину, разделяющиеся на образно-иконические (рисунки, чертежи) и знаковые модели (формулы). Почему именно мысленные модели? Потому что эти модели формируются в воображении младшего школьника как раз в результате раздумий, умозаключений, а иногда и в виде некоторого образа.

Основание всего изложенного дает возможность составить образец по использованию метода моделирования в сфере развития экспертно-логического мышления младших школьников на уроках окружающего мира, который отображается в таблице № 4:

***Таблица № 4.*** **Образец использования метода моделирования**

| **Педагогические задачи мысленной модели в сфере развития экспертно-логического мышления младших школьников (по М.Н. Скаткину) [2]** | |
|---|---|
| ***Главные задачи учителя:*** | 1. Определить уровень развития экспертно-логического мышления младших школьников.<br>2. Разработать и реализовать комплекс заданий по развитию экспертно-логического мышления младших школьников посредством моделирования природных процессов и явлений на уроках окружающего мира.<br>3. Обобщить и проанализировать результаты опытной работы. |
| **Моделирование уроков окружающего мира: примерное тематическое планирование по изучению темы (по А.А. Плешакова) [3]** | |

| *Темы* / *Классы* | ***Педагогические задания*** |
|---|---|
| ***«Как зимой помочь птицам» (1-ые классы)*** | Учащимся предлагается сделать кормушку для птиц из картона, используя для этого схему-инструкцию, напечатанную в рабочей тетради. После изготовления кормушки ученикам разрешается ее продемонстрировать и рассказать, для чего она нужна и как ее использовать. |
| ***«Природные явления» (2-ые классы)*** | Учащимся предлагается при помощи миски с водой понаблюдать явление преломления света в воде и схематические зарисовать его. Для этого в миску с водой необходимо опустить монету и расположившись так, чтобы монета была закрыта краем миски, понаблюдать, как с помощью преломления света в воде можно увидеть монету на дне. |
| ***«Охрана растений» (3-ьи классы)*** | Учащимся дается задание на дом: с помощью взрослых из картона или альбомных листов сделать и оформить книжку-малышку для дошкольников «Береги природу!», в которой на первой странице нужно написать, что сказали бы растения людям, если бы могли говорить. |
| ***«Планеты Солнечной системы» (4-ые классы)*** | Учащимся предлагается коллективно построить живую модель Солнечной системы. Для этого им необходимо каждому выбрать себе название одной из планет, а кому-то одному назваться Солнцем. Распределив названия планет и Солнце, им следует приготовить таблички с этими названиями. Суть задания заключается в следующем: взяв в руки выбранные таблички, ученики должны встать вокруг солнца в правильной последовательности планет. Затем им необходимо двигаться вокруг Солнца так, чтоб не нарушалось движение планет по орбите. Тот, кто собьется с «орбиты», выходит из игры. Выигрывает тот, кто дольше всех останется на «орбите». Поучаствовав в этом задании, школьники повторяют и закрепляют как название планет, так и их расположение, и движение в Солнечной системе. |

Таким образом, применение метода моделирования в начальной школе является целесообразным и целенаправленным, плодотворно содействует разработке мысленных моделей, содержащих систему мыслительных процессов, которые играют существенную роль в развитии экспертно-логического мышления младших школников.

Резюмируя содержание всего изложенного в рамках данной статьи, можно сформулировать нижеследующие научно-теоретические выводы:

- метод моделирования является одним из важнейших условий построения обучения в начальной школе, в процессе которого учитель при помощи разработанных мыслительных моделей решает теоретические и практические задачи в сфере развития экспертно-логического мышления младших школников;

- мыслительные процессы развития экспертно-логического мышления младших школьников способствуют пробуждению самостоятельной мысли младшего школьника, побуждению его к поиску решения вопросов, возникающих перед ним на уроке и на любом предмете;

- продуктивное развитие экспертно-логического мышления младших школьников осуществляется как движение от незнания к знанию, от непонятного к понятному: уме-

ние анализировать и синтезировать, сравнивать, упорядочивать, классифицировать предметы и понятия, давать определение понятий, подводить итог под понятие, логически правильно рассуждать, делать умозаключения.

**Литература**


1. Гамезо М.В., Герасимова В.С., Машурцева Д.А., Орлова Л.М. Г 182 Общая психология: Учебно-методическое пособие. Москва: «Ось-89», 2007.
2. Скаткин М.Н.. Дидактика средней школы: Некоторые проблемы современной дидактики. Учеб. пособие для слуш. ФПК директоров общеобразоват. школ и в качестве учеб. пособия по спецкурсу для студ. пед. ин-тов / 2-е изд., перераб. и доп. Москва: «Просвещение», 1982.
3. Плешаков А.А., Румянцев А.А. Великан на поляне или Первые уроки экологической этики: книга для учащихся начальных классов. Москва: «Просвещение», 2013, 744 с.
4. Kərimov Y.Ş. Seçilmiş əsərlərin IX cild. Pedaqogika və metodika tarixi problemləri. Bakı: "Kövsər" nəşriyyatı, 2013.
5. Меньшенина Л.А. Формирование мыслительных процессов у младших школьников //Проблемы и перспективы развития образования: материалы VIII Междунар. науч. конф. (г. Краснодар, февраль 2016 г.). Краснодар: « Новация», 2016.



**KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN EKSPERT-MƏNTİQİ DÜŞÜNCƏSİNİNİ İNKİŞAFININ TƏFƏKKÜR PROSESLƏRİ**

**xülasə**

Bu məqalədə kiçik yaşlı məktəblilərin ekspert-məntiqi düşüncəsinin inkişafı məsələlərinə baxılmışdır. Burada modelləşdirmə metodu təsvir olunur, hansı ki, ibtidai məktəb şagirdlərində səmərəli şəkildə ekspert-məntiqi düşüncəsinin müəyyən keyfiyyətləri formalaşdırılr. Onun istifadəsi üçün nümunə təqdim olunur. Düşüncə proseslərinin bu nümunəsi kiçik yaşlı məktəblilər arasında ekspert-məntiqİ bacarıqlarının inkişafına maraq yaradacaq və kömək göstərəcək: müqayisə etmək, faktlara əsaslanmaq, təhlil etmək, nəticələri ümumiləşdirmək.



**THE THOUGHT PROCESSES OF DEVELOPING THE LOGICAL THINKING OF THE YOUNGER ONES**

**summary**

This article discusses the development of logical thinking of younger pupils. The modeling method is described here, in which elementary school students effectively formulate certain qualities of the expert's logical thinking. An example is provided for its use. This example of thinking processes will be of interest to and support the development of expert and logic skills among younger pupils: compare, analyze, analyze, summarize the results.



**JURNAL AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ YANINDA ALİ ATTESTASİYA KOMİSSİYASININ QƏRARI İLƏ TÖVSİYƏ OLUNAN NƏŞRLƏR SİYAHISINA DAXİL EDİLMİŞDİR.**

# MÜƏLLİM–ŞAGİRD MÜNASİBƏTLƏRİNİN SƏMƏRƏLİ QURULMASINDA TOLERANTLIĞIN ROLU

**İradə Əmirəliyeva,**
pedaqogika üzrə fəlsəfə doktoru,
ARTİ-nin aparıcı elmi işçisi



**Açar sözlər:** hörmət, tolerantlıq, pedaqoji tolerantlıq, müəllim-şagird, şagird-şagird münasibətləri;

**Ключевые слова:** уважение, толерантность, педагогическая толерантность, отнощения учитель-ученик, ученик-ученик;

**Key words**: respect, tolerance, pedagogical tolerance, the teacher-student, student-studen trelationship.

Demokratikləşmə və humanistləşmə prinsipləri müasir məktəb islahatlarının başlıca amilləridir. Bu, təbii bir haldır. Məqsədimiz əsas dəyəri insan şəxsiyyəti, fərdiliyi olan, özünü maksimum reallaşdıra bilən uşaqlar yetişdirməkdir. Bunun üçün şəxsiyyət öz daxili dəyərini, azadlığını hiss etməlidir. Etiraf etmək lazımdır ki, bu gün uşaqların çoxu zahirən sərbəst görünmələrinə baxmayaraq, daxilən sıxıntılıdırlar. Onlar bəzən öz fikirlərini, düşüncələrini, hisslərini, başqa sözlə – özlərini ifadə edə, bacarıq və qabiliyyətlərini göstərə bilmirlər.

Etimad, inam hörmətin təzahürü, ilk növbədə yaradıcı fəaliyyət kimi özünü göstərir. Müəllim şagirdi baxışları, maraqları ilə birgə qəbul edib, ünsiyyət qurmalıdır. Bu, etibar deməkdir.

Şagirdin baxışlarına, fikirlərinə, maraqlarına hörmət etmək lazımdır. Bunun üçün də dözümlü – tolerant münasibət olmalıdır. Müəllim başa düşməlidir ki, müasir dövrdə yeniyetmələrin nəinki düşüncələrini eyni qəlibə sala, heç onların saç düzümlərinə də müdaxilə edə bilməzlər. Bütün bunlara sakit yanaşmaq lazımdır. Əksinə, pedaqoq öz marağı, hərəkətləri ilə yeniyetməyə dəstək olmalı, onun öz fərdiliyini, müstəqilliyini üzə çıxarmasına təkan verməlidir.

Artıq ənənəvi təhsildə tərbiyə idealı olan, dərsdə "əllər partanın üzərində", "hamı kimi" hərəkət edən, intizamlı şagird obrazı keçmişdə qalmışdır. Müasir müəllim üçün arzuolunan tapıntı baxışları müəllimin fikri ilə və dərslikdəki müddəalarla uzlaşmayan, "fərqli düşünən" şagird olmalıdır.

Şagirdin ən utopik ideyalarına, çaşdırıcı suallarına, skeptisizminə, hər şeyin mahiyyətinə varmaq istəməsinə tolerant münasibət təkcə müəllimin pedaqoji mədəniyyətinin göstəricisi deyil, həm də, yeni tipli – azad, sərbəst, yaradıcı şəxsiyyətin formalaşmasının təminatıdır.

Şagirdin şəxsiyyətinə müəllimin marağının başqa bir etik tərəfi də var. Şagirdin özünə marağının "axtarılması" "onun marağına maraq" deməkdir. Axı informasiyanın ötürülməsinin, qavranılmasının psixoloji əsası ona olan maraqdır və buna görə də bizim peşəkarlığımız onu doğurmağı bacarmaqdır. Bununla yanaşı, şagirdlərin marağına istiqamətlənmək, həm də onların şəxsiyyətinə hörmətin təzahürüdür. Şagirdlərin onlara necə münasibət bəslədiklərinin fərqinə varmayan müəllimlər aşağıdakı şəkildə düşünməklə düzgün mövqe tutmurlar: "Qoy onlar mənə nifrət etsinlər, ancaq fənni mənimsəsinlər.Onların sevgisinə ehtiyacım yoxdur". Unutmaq olmaz ki, şagirdlərin müəllimə rəğbəti onun fənninə olan marağın açarıdır.

Şagirdin şəxsiyyətinə olan hörmətin daha bir təzahürü onun şəxsi ləyaqətinin alçaldılmasına yol verməməkdir. Təcrübədə bir çox hallarda — xüsusi, məqsədyönlü, necə deyərlər, vərdiş üzrə bu qayda pozulur. Şagirdləri baxışla, səs tonu ilə, istehza etməklə alçaltmaqdan çəkinmək

lazımdır. Uşaqların üstünə qışqırmaq – müəllimin pedaqoji acizliyini boynuna alması deməkdir. Bu özünə qarşı hörmətsizlik yaratmaq, eyni zamanda, şagirdlərə qarşı da onu nümayiş etdirmək deməkdir. Bütün bunlar müəllimin tolerant davranışını labüd edir. Müəllimlər öz davranışları ilə təhsilalanlara nümunə olmalı, müəllim-şagird, şagird-şagird münasibətlərində lazımi vasitələrdən istifadə edərək, onlarda tolerantlıq formalaşdırmalıdırlar.

Tolerantlıq – digər şəxslərin fərqli düşüncə, davranış və rəftarlarını başa düşmək, onlara hörmət bəsləmək qabiliyyətidir. Çox zaman tolerantlığı bu və ya digər şəxsə müsbət yanaşma kimi də izah edirlər. Bu, o deməkdir ki, insanlar bir-birini həqiqətdə olduğu kimi, yəni necə varsa, elə də qəbul etməlidirlər.

Real həyatda insanlar arasında qarşılıqlı münasibətlər müsbət və mənfi yanaşmalar əsasında qurulur. *Müsbət yanaşma* şagirdin öz yaşıdlarına, yaxud yaşıdlarının ona, həmçinin müəllimin şagirdlərə, şagirdlərin müəllimə, başqalarına hörmətlə yanaşmalarını zəruri sayır. Bu da şagirdlərin bir-biri ilə, yaxud müəllimlə münasibətlərinə, ya da onların hər hansı sahədə nöqsanlarına, çatışmayan cəhətlərinə diqqətin yönəlməsinə deyil, müsbət keyfiyyətlərinə, hərəkətlərinə, bacarıq və qabiliyyətlərinə əsaslanılır. Münasibətlərin bu şəkildə qurulması şagirddə özünəinam hissini qüvvətləndirir, onun təşəbbüskarlığını, özfəaliyyətini, müstəqilliyini artırır.

*Mənfi yanaşmada* insanlara, o cümlədən, şagirdlərə düzgün olmayan münasibət başlıca yer tutur. Münasibətlər məcburiyyətə, təzyiqə, mənfi qiymətləndirməyə əsaslanır. Nəticədə şagirdlər təşəbbüskarlıq, idrak müstəqilliyi və yaradıcı fəallıq göstərməyə meyilli olmurlar. Tolerantlığı inkişaf etdirmək üçün müsbət yanaşma tərzinə üstünlük verilməlidir. İlk növbədə, müəllimlər müsbət yanaşma tərzini öyrənməli, daha sonra bu mühüm keyfiyyəti şagirdlərdə formalaşdırmalıdırlar. Tolerantlığın tərbiyə olunmasında yanaşma tərzi əhəmiyyətli rola malikdir.

Yeni pedaqoji təfəkkür müəllimin qarşısında xüsusi tələblər qoyur. Onların sırasında *pedaqoji tolerantlıq* özünəməxsus yer tutur. Tolerantlıq bir tərəfdən tərbiyə və təhsil vəzifələrinə çatmaq üçün vasitə kimi, digər tərəfdən tərbiyə prosesinin məqsədlərindən biri kimi nəzərdən keçirilə bilər.

Pedaqoji fəaliyyətin səmərəliliyinin zəruri şərti şagirdi necə varsa, eləcə də qəbul etməkdən ibarətdir. Şagirdə münasibətdə öz davranış və rəftarını, ünsiyyət tərzini xüsusi taktika əsasında quran tolerant müəllim böyük nəticələrə nail olur.

Y.P.Povarenko pedaqoji prosesdə tolerant şagirdin xüsusiyyətlərinin təhlili zamanı müəllimin tolerantlığının iki növünü müəyyən edir:

- sosial (yaxud sosial-psixoloji);
- psixoloji (yaxud psixo-fizioloji).

Sosial tolerantlığın mövcudluğu müəllimə təhsil prosesinin bütün iştirakçıları ilə səmərəli, qarşılıqlı fəaliyyət göstərməyə imkan verir. Psixoloji tolerantlığın formalaşdırılması müəllimin çoxsaylı peşə stresslərinə yüksək dayanıqlığını təmin edir və onun peşə fəaliyyətini faydalı qurmasına imkan verir.

Y.P.Povarenko sosial tolerantlıqda aşağıdakı struktur komponentləri fərqləndirməyi təklif edir: *dinamik* və *əməliyyat xarakterli.*

Tolerantlığın *dinamik* tərəfi müəllimin motivasiya sahəsinin məzmunu ilə (şagirdi necə varsa, elə qəbul etməyə hazır olmaq), onun dəyərlər sistemi ilə, maraqları, əqidə və inamları, sosial yönəlmələrlə müəyyən edilir.

Sosial tolerantlığın *əməliyyat xarakterli* əsası konkret bilikləri, bacarıq və qabiliyyətləri (insanların psixoloji xüsusiyyətləri haqqında biliklər, müxtəlif insanlarla ünsiyyət prosesinə nəzarət qabiliyyəti və s.) təşkil edir”.

*Pedaqoji tolerantlıq* dedikdə, təhsil prosesinin bütün subyektləri ilə tolerant qarşılıqlı fəaliyyət bacarığı və vərdişlərinə yiyələnmək, öz şəxsiyyətinin, şagirdlərin, onların valideynlərinin şəxsiyyət keyfiyyəti, pedaqoji etikanın tərkib hissəsi kimi tolerantlığı formalaşdırmaq üzrə fəal mövqe şəklində dözümlülüyə yönəlmə başa düşülür.

Pedaqoji tolerantlıq sosial kateqoriya olub, başqa insanın qəbuluna, empatik anlamaya, açıq və etibarlı ünsiyyətə yönəlmədə təzahür edir.

Pedaqoji tolerantlıq şagirdə münasibətdə nikbin olmağı, onun qüvvələrinə inanmağı vacib sayır. Pedaqoji tolerantlıq oğlan və qızları pedaqoji prosesin bərabərhüquqlu iştirakçıları kimi qəbul etməyi zərurətə çevirir.

Məktəbdə dərsdənkənar işin bir sıra formalarına müraciət edilməlidir: söhbətlər, müzakirələr, diskussiyalar, disputlar, görüşlər, axşamlar (hər hansı fənnə aid tematik, ədəbi-bədii gecələr), ekskursiyalar, yürüşlər, kinofilmlərə, teatr tamaşalarına, sərgilərə baxışlar, müsabiqələr, dəyirmi masa ətrafında fikir mübadiləsi, "Şən və hazırcavablar klubu", tarixi günlərə – Respublika gününə, Müstəqillik gününə, ümummilli lider Heydər Əliyevin ad gününə, Milli Ordu gününə, Novruz bayramına, Yeni ilə, həmçinin Qanlı Yanvar və Azərbaycanlıların soyqırımının anım gününə həsr olunmuş tədbirlər və s.

İş formalarının rəngarəngliyi diqqət mərkəzində olmalıdır. Belə ki, "Müəllim-şagird münasibətlərində tolerantlıq", "Kim tolerantlıq nümayiş etdirməlidir?" mövzusunda disput; "İnsanların qarşılıqlı münasibətlərində tolerantlıq" mövzusunda dəyirmi masa; "Səbir kasası daşanda..." mövzusunda diskussiya; "Tolerant şəxs: o kimdir?" və "Tolerantlığın dərəcəsi" mövzularında söhbətlər təşkil oluna bilər.

Müəllim-şagird münasibətlərində tolerantlığın inkişaf etdirilməsi müasir dövrün ən aktual tələbidir. Tolerantlıq şəxsiyyətlərarası münasibətlərdə özünəməxsus yer tutur. *İntolerant* (tolerant olmayan) insanlar tolerant nəsil yetişdirə bilməzlər. Ona görə də bütün bunları nəzərə alaraq, müəllimlər birinci növbədə özləri həmin keyfiyyəti, davranış bacarığını mənimsəyib, şagirdlərə ötürməlidirlər. Boş yerə deməyiblər ki, sözlə deyil, əməllərinlə tərbiyə etməlisən.

**Ədəbiyyat**


1. Abbasov A.N. Milli əxlaq və ailə etikası: (orta ixtisas məktəbləri üçün dərslik). Bakı: "Mütərcim", 2015.
2. Əmirəliyeva İ.B. Ali məktəb tələbələrində tolerantlığın formalaşdırılması. (monoqrafiya), Bakı: "Mütərcim", 2017.


**ТОЛЕРАНТНОСТЬ КАК ОДНО ИЗ ВАЖНЫХ УСЛОВИЙ В УСТАНОВЛЕНИИ ЭФФЕКТИВНЫХ ОТНОШЕНИЙ МЕЖДУ УЧИТЕЛЕМ И УЧЕНИКОМ**

**резюме**


В статье рассматривается развитие толерантности, основанной на доверии, уважении и дружбе в отношениях ученика и учителя. Предпочтение позитивных отношений повышает самооценку учеников. Это приводит к их интеллектуальной самостоятельности и творческой активности.


**TOLERANCE AS ONE OF THE IMPORTANT CONDITIONS IN ESTABLISHING BENEFICIAL RELATIONS BETWEEN TEACHER AND STUDENT**

**summary**


The article discusses the development of tolerance based on trust, respect and friendship in relations between a student and a teacher. A preference for positive attitudes in mutual relationships increases self-esteem of students. This leads to their intellectual independence and creative activity.

# ŞAGİRDLƏRDƏ TƏŞKİLATÇILIQ BACARIĞINI NECƏ FORMALAŞDIRIRAM

**Sevil Haşımova,**
Xəzər rayonu, 156 nömrəli məktəbin ibtidai sinif müəllimi,
"Ən yaxşı müəllim" müsabiqəsinin qalibi, "Tərəqqi" medalının mükafatçısı
hajihashimov1959 @gmail.com

**Açar sözlər:** təşkilatçılıq bacarığı, plan tərtibetmə, əməkdaşlıq, məsuliyyətlilik, təqdimetmə;
**Ключевые слова:** организаторские способности, планирование, сотрудничество, ответственность, презентация;
**Key words:** organizational skills, planning, cooperation, responsibility, presentation.



Mən vətənimiz üçün şəxsiyyət yetişdirən müəlliməm. Şagirdlərimin yalnız təhsil alması yox, həm də bu təhsilin onların həyatında nə kimi rol oynaması mənim üçün önəmlidir. Bu gün qarşımda əyləşən kiçikyaşlı körpələr gələcəyin qurucularıdır. Bu nəsli sağlam, gümrah, savadlı yetişdirmək üçün işimi düzgün təşkil edirəm. Sənətimi hədsiz dərəcədə sevirəm və həmişə onunla fəxr etmişəm. Sənətimə bağlılıq, vurğunluq mənə həmişə uğur gətirib və bu uğurlarıma görə şagirdlərimə minnətdaram.

Mən uzunmüddətli pedaqoji iş təcrübəmə əsaslanaraq, təlim prosesində təşkilatçılıq bacarığının formalaşdırılması barədə təcrübəmi sizinlə bölüşmək istəyirəm.

Müasir dövrün tələbi şagirdlərə müxtəlif bilik, bacarıq, vərdişlər aşılamaqla yanaşı, "11.1.2. öz üzərinə məsuliyyət götürmək, kollegial qərarların qəbulunda, demokratik təsisatların fəaliyyətində və inkişafında iştirak etmək keyfiyyətlərinə malik, müstəqil, yaradıcı şəxsiyyət və vətəndaş formalaşdırmaq"dır (1).

İbtidai siniflərdə bu bacarıqlar fənlər vasitəsilə həyata keçirilir. Mən bu bacarıqları hər bir fənnin tədrisi prosesində şagirdlərimdə formalaşdırmağa çalışıram.

Adından da göründüyü kimi *təşkilatçı – təşkil edən* deməkdir. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilən bacarıqlara əsaslanaraq, bu nəticəyə gəlirəm ki, müəyyən bir işin təşkili üçün hər bir şəxs aşağıda sadalanan bacarıqlara yiyələnməlidir:

- plan tərtib etmək;
- işin ardıcıllığını müəyyən etmək;
- iş yerini təşkil etmək;
- vaxtdan səmərəli istifadə etmək;
- əməkdaşlıq etmək;
- məsuliyyətli olmaq;
- ünsiyyət qurmaq;
- işin icra müddətini müəyyən etmək;
- görülən işi dəyərləndirmək;
- təqdimetmə.

Şagirdlərə müəyyən bir işin təşkili üçün zəruri olan bu bacarıqlar fənlər üzrə təhsil standartlarında əks olunmuşdur:

**Plan tərtib etmək**: Azərbaycan dili, st.2.2.3. Verilmiş mətni genişləndirmək və davam etdirmək məqsədilə yaradıcı plan tutur (II sinif).

**İşin ardıcıllığını müəyyən etmək**: İnformatika, st.2.2.2.Verilmiş vəziyyət və situasiyalarda "əgər – onda" qaydası ilə sadə ardıcıllıqlar qurur (IV sinif).

**İş yerini təşkil etmək:** Texnologiya, st.1.2.1.Hazırlanacaq məmulata görə iş yerini təşkil edir (IV sinif).

**Vaxtdan səmərəli istifadə etmək**: Həyat bilgisi, st. 2.2.3.Gün rejiminin nümunəsində vaxtdan qənaətlə istifadə olunmasını nümayiş etdirir (I sinif). Fiziki tərbiyə, st.1.1.2. Gün rejiminin tərtibində fəaliyyətləri əhəmiyyətlilik dərəcəsinə görə qruplaşdırır (IV sinif).

**Əməkdaşlıq etmək:**Həyat bilgisi, st. 3.4.1. Mənəvi borc *(dəstək olmaq, mərhəmət, şəfqət və yardım göstərmə )* haqqında biliklərini izah edir (III sinif). Fiziki tərbiyə, st.4.1.2. Komanda üzvləri ilə səmərəli əməkdaşlıq edir (II sinif).

**Məsuliyyətli olmaq:** Fiziki tərbiyə, st.4.1.2.Həlledici məqamlarda məsuliyyəti öz üzərinə götürmək, yoldaşlarına dəstək olmaq keyfiyyətlərini nümayiş etdirir (IV sinif).

**Ünsiyyət qurmaq:** Həyat bilgisi, st. 3.1.1. Ünsiyyət zamanı nəzakət qaydalarına *(müsahibini sonadək dinləmək, sözünü kəsməmək, müsahibinə təşəkkür etmək)* əməl edir (III sinif).

**İşin icra müddətini müəyyən etmək:** Riyaziyyat, st.4.2.4. Vaxtı saat, dəqiqə və saniyə dəqiqliyi ilə təyin edir, vaxt aralığını müəyyənləşdirir və şərhlər verir (IV sinif).

**Görülən işi dəyərləndirmək**: Həyat bilgisi, st.2.1.2. Özünün və yoldaşlarının kollektiv daxilində fəaliyyətinə münasibət bildirir (II sinif).

**Təqdimetmə:** Azərbaycan dili, st.2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. (IV sinif). Riyaziyyat, st.5.1.1. Müxtəlif yollarla məlumatları toplayır, təqdim edir və şərhlər verir (IV sinif). Həyat bilgisi, st.2.2.2. İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimat hazırlayır (IV sinif).

Göründüyü kimi, bu bacarıqlar I sinifdən başlayaraq, IV sinfin sonunadək inkişaf etdirilir. Qeyd olunan fənləri özüm tədris etdiyim üçün təlim prosesində fənlərarası əlaqəni nəzərə alır, bir fəndə əldə edilmiş bilikləri digər fənn vasitəsilə möhkəmləndirirəm. Bu isə öyrənilən biliklərin bacarığa çevrilməsində mühüm rol oynayır, məsələn, şagird həyat bilgisi dərsində öz gün rejimini tərtib edərkən Azərbaycan dilindən “plan tutma” və riyaziyyatdan öyrəndiyi “saat, vaxt, dəqiqə”yə dair biliklər onun köməyinə gəlir. Bu işlərin yerinə yetirilməsi üçün bölgü aparılır. Gün rejimində plan və iş bölgüsü vacib amildir. Bu işin hər gün aparılması şagirdlərə tövsiyə olunur. Həftə sonu və ya ayın axırında şagirdlərin tərtib etdikləri gün rejimləri müzakirə olunur və yeknəsəqlik varsa, məzmunda yeniliklərin, fərqliliklərin olmasını məsləhət görürəm. Bununla da hər bir şagirddə özünə tələbkarlıq və məsuliyyət formalaşdırıram. Şagird “Mən bunu bacardım” – deyə düşünür və sabahki işin planını tutur.

Onu da nəzərə almaq lazımdır ki, bu bacarıqlar yuxarı siniflərdə də davam etdirilir. Bu, onu göstərir ki, şagird artıq məktəb dövrünü başa vurduqdan sonra müstəqil həyata qədəm qoyduqda, digər bacarıqlarla yanaşı, təşkilatçılıq bacarıqlarına da yiyələnmiş olur. Hər bir şagird təşkilatçı ola bilər, lakin ilk növbədə onu bu işə hazırlamaq yollarını izah etmək və icrasına zəmin yaratmaq lazımdır.

Mən bir tədbir nümunəsi vasitəsilə “Təşkilatçı üçün lazım olan bacarıqları şagirdlərimdə necə formalaşdırıram?” sualını cavablandırmaq istəyirəm.

21 fevral – “Ana dili “ günü münasibətilə sinifdaxili tədbirin keçirilməsini şagirdlərə həvalə etdim. Tədbirin təşkili üçün işçi qrupu yaradıldı. Qrupu təşkil edərkən, keçirilən tədbirin məzmunu ilə bağlı şagirdlərin bacarıqları nəzərə alınmalıdır. Lider olmaq üçün təşkilatçıya məxsus bacarıqlar haqqında müəyyən edilmiş meyarlar şagirdlərə verilir. Bir neçə namizəd təklif edilir. Sinif yoldaşları tərəfindən səsvermə yolu ilə lider seçilir. O, qrup üzvləri ilə birlikdə qeyd dəftərində tədbirin hazırlanması planını tutur.

**Tədbirin adı**: “Ana dilimiz Azərbaycan dilidir”.

**Tədbirin keçirildiyi məkan**: məktəb kitabxanası;

**Məzmunu:** Azərbaycan dilinin gözəlliyi, dilimizin yad ünsürlərdən qorunması haqqında məlumat; Azərbaycan haqqında şeir və mahnılar; “Ana laylası” kompozisiyası, xatirə albomu.

**Dəvət olunanlar**: məktəb rəhbərliyi, valideynlər.

Tədbirin ssenarisi hazırlandı. Tədbirdə iştirak edəcək qonaqların siyahısını tutmaq, onları dəvət etmək üçün dəvətnamələr və divar qəzeti hazırlamaq, sinfi bəzəmək, tədbir zamanı sakitliyə nəzarət etmək, kompüterdə mətni yığmaq kimi vəzifələr və iştirakçılar –aparıcılar, şeir söyləyənlər, mahnı oxuyanlar, rəqqaslar müəyyən edildi. Mən yalnız bələdçi funksiyasını yerinə yetirərək, onlara istiqamət verirdim.

Tədbirin təşkilinin şagirdlərə həvalə olunması onlarda özünəinam yaratdı və məsuliyyət hissini artırdı. Tədbirə hazırlıq zamanı şagirdlər fikir mübadiləsi aparır, öz fikirlərini sərbəst şəkildə ifadə edir, bir-birini dinləyir, rəy bildirirdilər.

Tədbir valideynlərin və digər qonaqların iştirakı ilə, yüksək səviyyədə keçdi. Tədbirin təşkilində və keçirilməsində fəal iştirak edən şagirdləri müxtəlif hədiyyələrlə mükafatlandırdım.

Şagirdlərin təşkilatçılıq bacarıqlarından müxtəlif layihələrin həyata keçirilməsində də istifadə edirəm. Şagirdləri layihələrə cəlb etməklə, onlara müstəqillik verməklə qarşıma qoyduğum məqsədə nail oluram. Yaz fəslinin gəlişi ilə bağlı şagirdlər “Biz ağac əkirik” layihəsini hazırladılar. Layihənin planı şagirdlərlə birlikdə tərtib edildi. Bağbanla görüş keçirilərək, müvafiq məsləhətlər dinlənildi. Şagirdlərin həyat bilgisi, Azərbaycan dili, texnologiya, digər fənlərdən əldə etdikləri bilik və bacarıqlardan istifadə etməklə, əkiləcək ağaçlara qulluq qaydaları, görüləcək işin zamanı, məkanı, lazım olan ləvazimatlar və s. müəyyənləşdirildi. Ağaclar əkildi, sulandı, xatirə şəkilləri çəkildi.

Göstərilən nümunələr vasitəsilə nəzərinizə çatdırmaq istəyirəm ki, şagirdlərə hələ kiçik yaşlarından müəyyən bir işin təşkilini həvalə etməklə biz onlarda gələcəkdə istər öz şəxsi həyatlarında, istərsə də ictimaiyyət tərəfindən tapşırılan müəyyən bir işi həyata keçirmək üçün vacib olan təşkilatçılıq bacarıqları formalaşdırmış oluruq. Şagirdlərin məktəb dövründə yiyələndikləri bilik və vərdişlər həyati bacarığa çevriləndə şəxsiyyət formalaşır.

**Ədəbiyyat**

1.“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı: “Hüquq ədəbiyyatı”, 2009.
2.Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı, “Təhsil”, 2008.

**КАК РАЗВИВАЮ ОРГАНИЗАТОРСКИЕ НАВЫКИ У УЧЕНИКОВ ?**

**резюме**

В статье представлены пути и способы формирования у учащихся организаторских навыков. Автор отмечает, что предусмотренные в содержательных стандартах такие умения и навыки как составление плана, презентация, ответственность и т. д. способствуют приобретению учащимися организационных навыков. В статье также приведены примеры относительно работ, проводимых в данном направлении.

**HOW DO I DEVELOP F NURSING SCHOOL AT THE TOP SCHOOL?**

**summary**

The article presents the ways and means of developing organizational skills in students. The author notes that the skills and skills provided in the content standards, such as drawing up a plan, presentation, responsibility, etc., contribute to the acquisition of organizational skills by students. The article also provides examples regarding the work carried out in this direction.

## Azərbaycan Xalq Cümhuriyyəti haqqında görkəmli şəxsiyyətlərdən sitatlar

Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində – XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhvali-ruhiyyəsi yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır.

**Heydər Əliyev,**
**Azərbaycan xalqının ümummilli lideri**

Müasir Azərbaycan dövləti məhz 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin varisidir.

**Heydər Əliyev,**
**Azərbaycan xalqının ümummilli lideri**

XIX əsrdən başlanan mürəkkəb ictimai-siyasi proseslərin gedişi Azərbaycan cəmiyyətində əsaslı dəyişikliklərə gətirib çıxartdı, yeni mühitdə formalaşan görkəmli ictimai və siyasi xadimlərimiz əsrin çağırış və tələblərinə layiqincə cavab verməyə qadir oldular. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması üçün münbit zəmin yarandı.

**Heydər Əliyev,**
**Azərbaycan xalqının ümummilli lideri**

Bu gün Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya aktından danışarkən mütləq qeyd etmək lazımdır ki, həmin müstəqillik aktı Azərbaycanın 1918-ci ildə mövcud olmuş Xalq Cümhuriyyətinin bərpasıdır. Biz onların varisiyik, onların işinin davamçılarıyıq – ancaq yeni şəraitdə, yeni bir tarixi zamanda.

**Heydər Əliyev,**
**Azərbaycan xalqının ümummilli lideri**

Biz 26 iyun gününü bayram elan etmişik. Bu, tamam əsaslıdır, məqsədəuyğun, qanunauyğundur, çünki 80 il bundan öncə məhz bu gün Azərbaycan Xalq Cümhuriyyətinin– ölkəmizin müstəqilliyini elan edən Xalq Cümhuriyyətinin, müstəqil Azərbaycanı qurub-yaradan, hələ Gəncədə fəaliyyət göstərən hökumətin ilk addımlarından biri Azərbaycanın Milli Ordusunun yaranması haqqında verdiyi qərar olmuşdur. Həmin qərara, addıma böyük hörmət əlaməti olaraq biz 26 iyun gününü Azərbaycanın Silahlı Qüvvələri, ordusu günü elan etmişik.

**Heydər Əliyev,**
**Azərbaycan xalqının ümummilli lideri**

Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini, milli-mənəvi dəyərlərimizi üzvi şəkildə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi idi. Müsəlman ölkəsi olmaqla yanaşı, Azərbaycan bütün tarixi boyu qərb dəyərlərini, mədəniyyətini məmnuniyyətlə mənimsəmiş, azərbaycanlı ziyalılar və siyasi xadimlər ölkənin gələcəyini müasir təhsildə, elmdə, sivil xalqlar ailəsinə qovuşmaqda görmüşdür.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Müstəqillik yolumuz heç də asan və hamar olmamışdır. Bu yolda itkilərimiz, ağrılarımız, acılarımız kifayət qədər olub. 1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti Şərqin ilk demokratik parlament respublikası olmuşdur. Həmin il, həmin dövr Azərbaycan müsəlman dünyası, müsəlman Şərqi üçün əsl mayaka çevrilmişdir. Müsəlman qızları üçün ilk dünyəvi məktəb açılmışdır, Azərbaycan qadınları səsvermə hüququnu qazanmışdır, Şərqin ilk operası və baleti yazılmışdır.

**Mehriban Əliyeva,**
**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti**

Bir kərə yüksələn bayraq, bir daha enməz!
Sən bizimsən, bizimsən durduqca bədəndə can,
Yaşa, yaşa, çox yaşa, ey şanlı Azərbaycan!

**M.Ə.Rəsulzadə, siyasi xadim,**
**Azərbaycan Xalq Cümhuriyyətinin banisi**